Xalqın qəzeti!
# Xalq qəzeti
№ 09 (30978) 16 yanvar 2026-cı il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – ABŞ strateji əməkdaşlığı Cənubi Qafqazda sülhü möhkəmləndirir



Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın bir nömrəli ofisində siyasi möhür vurdu. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir.

Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## TRIPP və Ermənistan – ABŞ münasibətləri




Səhifə ⇨ 3

## Təhdid özünüqoruma instinktini gücləndirir



Səhifə ⇨ 3

## Beynəlxalq maliyyə qurumlarının Orta Dəhlizə dəstəyi




Səhifə ⇨ 7

## İrəvanın "hibrid" narahatlığı

*Seçkiqabağı həyəcan və qorxu əsassız deyil*

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan diqqətçəkən açıqlama ilə çıxış edib. Deyib ki, qısamüddətli və uzunmüddətli perspektivdə Ermənistan üçün hərbi təhdid yoxdur, lakin hibrid təhdidlər riski bir neçə dəfə artıb. Qriqoryan bu fikri yanvarın 14-də İrəvanda Beynəlxalq Münasibətlər və Təhlükəsizlik İnstitutunun "Ermənistan və dünya risklərin və imkanların kəsişməsində" mövzusunda keçirdiyi təhlükəsizlik forumunda bəyan edib.**




TŞ katibi Ermənistan ətrafında təhlükəsizlik sahəsində mövcud olan ümumi vəziyyətin və təhdidlərin xarakterinin dəyişdiyinin nəzərə alınmasının vacibliyini vurğulayıb: "Qısamüddətli və uzunmüddətli perspektivdə hərbi təhdidlər mövcud olmasa da, hibrid təhdidlər riski bir neçə dəfə yüksəlib. Və Ermənistanın qarşıdakı 5-6 ay ərzində daha çox hibrid təhdidlərlə üzləşəcəyi ehtimal olunur". Onun sözlərinə görə, hökumətin Milli Təhlükəsizlik Strategiyasının dərcini təxirə salmasının səbəbi məhz budur: "Biz görürük ki, 2025-ci il avqustun 8-dən sonra təhlükəsizlik sferasında vəziyyətimiz tamamilə dəyişib. Bizim bu yeni şəraitdə yaşamaq təcrübəmiz yoxdur və təhdidlərin xarakteri də dəyişməyə başlayır. Biz müəyyən müddət ərzində təcrübə toplamalı və bu təhdidlərə necə reaksiya verəcəyimizə baxmalıyıq".

*(ardı 5-ci səhifədə)*

## Aqrar sığorta fermerləri ziyandan qoruyur




Səhifə ⇨ 7

## Sədərək-Yerasx dəmir yolu sahəsinə birgə baxış keçirilib



**Yanvarın 15-də Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən Sədərək-Yerasx dəmir yolu sahəsinin cari vəziyyətinə birgə baxış keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, bu baxışın məqsədi müvafiq infrastrukturun bərpası tədbirlərinin yerinə yetirilməsi məqsədilə xüsusi dəmir yolu tikintisi texnikasının hərəkəti üçün həmin dəmir yolu sahəsinin texniki cəhətdən yararlılığının qiymətləndirilməsi olub.

Tərəflər keçirilən baxış çərçivəsində həmin sahədə dəmir yolu infrastrukturunun texniki vəziyyətinin qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

***XQ***

## Avrasiyanın yeni "dəmir qalxanı"




Səhifə ⇨ 3

## İrəvanda Moskvanın hərbi mövcudluğu



Səhifə ⇨ 4

## Qərb Sənaye Parkı Gəncə və Şəmkirə yeni texnologiya gətirəcək



Səhifə ⇨ 7

## Marko Rubionun, doğrudanmı, vaxtı yoxdur?



Səhifə ⇨ 4

# Qərb Sənaye Parkının yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara və yerli resurslara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, habelə regionlarda iqtisadi fəallığın və məşğulluğun daha da artırılması məqsədilə **qərara alıram:**

**1** Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkı yaradılsın.

**2** Müəyyən edilsin ki:

2.1. Qərb Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra − Agentlik) həyata keçirir.

**3** Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. üç ay müddətində:

4.1.1. Qərb Sənaye Parkının fəaliyyəti üçün Gəncə şəhəri Yevlax şosesində yerləşən, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş "Azəralüminium" MMC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 81.8 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini təmin etsin;

4.1.2. Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən, bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına keçirilməsi, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"yə və digər normativ hüquqi aktlara uyğun olaraq Qərb Sənaye Parkının fəaliyyətinə cəlb olunması ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin;

4.2. bu Fərmanın 4.1.1-ci və 4.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Qərb Sənaye Parkında istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Qərb Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2026-cı il**

# "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 29 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 67 (Cild I) 2-ci hissəsinin ikinci abzasından "Respublika" və "qəzeti" sözləri çıxarılsın.

**2** "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 88 (Cild I) 6.1-ci və 6.3-cü bəndlərindən "qəzeti" sözü çıxarılsın.

**3** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 649-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 may tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 819 (Cild I) 2.4-cü bəndindən "qəzeti" sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2026-cı il**

# "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 45 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1** 2.2-ci bənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

**2** həmin Fərmanla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" üzrə:

2.1. 1-ci hissədə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.1.1-ci yarımbənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.2.2. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. müvəkkil təşkilat – Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun fəaliyyət göstərən, Fondun dəstək mexanizmləri üzrə sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinə vasitəçilik edən və Fondla əməkdaşlıq müqaviləsi bağlayan hüquqi şəxs (bank, bank olmayan kredit təşkilatı, lizinq, faktorinq və investisiya fəaliyyətini həyata keçirən kommersiya hüquqi şəxsləri);";

2.2.3. 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.2.4. 2.1.7-ci yarımbənddə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.2.5. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.10. "Elektron kredit və zəmanət" informasiya sistemi (bundan sonra – informasiya sistemi) – Fondun Nizamnaməsinə uyğun olaraq sahibkarlıq subyektlərinə müvəkkil təşkilatlar vasitəsilə təqdim olunan dəstək mexanizmlərinin həyata keçirilməsi ilə bağlı prosedurların elektron qaydada icra olunmasını təmin edən sistem;";

2.2.6. 2.1.11-ci yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3.1-ci bənddə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.3.2. 3.3.1-ci yarımbənddə "kredit təşkilatından" sözləri "təşkilatdan" sözü ilə əvəz edilsin;

2.3.3. 3.3.3-cü yarımbənddə "kredit təşkilatı ilə" sözləri "müvəkkil təşkilatla" sözləri ilə əvəz edilsin;

2.3.4. 3.3.4-cü yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.3.5. 3.3.9-cu yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.3.10-cu yarımbənd ləğv edilsin;

2.4. 4.1.1-ci yarımbənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.5. 5-ci hissə üzrə:

2.5.1. adında "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

2.5.2. 5.1-ci bənd üzrə:

2.5.2.1. birinci abzasın birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.5.2.2. 5.1.1-ci yarımbənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.5.3. 5.2-ci bənd üzrə:

2.5.3.1. birinci və üçüncü cümlələrdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.5.3.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci bənd üzrə:

2.6.1.1. 6.1.1-ci yarımbənddə "kredit təşkilatını" sözləri "təşkilatı" sözü ilə əvəz edilsin;

2.6.1.2. 6.1.2-ci yarımbəndin birinci cümləsindən ", 3.3.10-cu yarımbəndində nəzərdə tutulmuş halın mövcudluğu isə 4 (dörd) iş günü müddətində" sözləri çıxarılsın və həmin yarımbəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydanın 3.3.5–3.3.9-cu yarımbəndlərində nəzərdə tutulmuş hallar müəyyən edildikdə dərhal bu barədə sahibkarlıq subyektinə informasiya sistemi vasitəsilə bildiriş göndərilir, müəyyən edilmədikdə isə eyni qaydada müraciət baxılmaq üçün sahibkarlıq subyektinin seçdiyi müvəkkil təşkilata göndərilir;";

2.6.1.3. 6.1.3-cü yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin yarımbəndə "etməklə" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.6.1.4. 6.1.4-cü yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.6.2. 6.2-ci bənd üzrə:

2.6.2.1. birinci abzasda "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin abzasa "sənədləri" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.6.2.2. 6.2.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.2.3. 6.2.3-cü yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.3. 6.4-cü bəndin birinci və ikinci cümlələrində "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.4. 6.5-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.6.5. 6.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"6.6. Müvəkkil təşkilatla sahibkarlıq subyekti arasında kredit müqaviləsi bağlanıldıqdan sonra bu müqavilə (ödəniş cədvəli də daxil olmaqla), girov (ipoteka) müqaviləsi və birdəfəlik zəmanət haqqının ödənilməsini təsdiq edən sənəd müvəkkil təşkilat tərəfindən 5 (beş) iş günü müddətində informasiya sistemi vasitəsilə elektron sənəd formasında Fonda təqdim edilir. Sənədlərin elektron formada təqdim edilməsi mümkün olmadıqda, həmin sənədlərin surətləri informasiya sistemi vasitəsilə göndərilir.";

2.6.6. 6.7-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.7. 7-ci hissə üzrə:

2.7.1. 7.1-ci bənddə və 7.2-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.7.2. 7.3-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.7.3. 7.4-cü bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin cümləyə "hesabatı" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.7.4. 7.5-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8. 8-ci hissə üzrə:

2.8.1. 8.1-ci bənd üzrə:

2.8.1.1. birinci və dördüncü cümlələrdə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.8.1.2. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.2. 8.2-ci bənd üzrə:

2.8.2.1. birinci abzasın birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.8.2.2. 8.2.1-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.2.3. 8.2.2-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.8.2.4. 8.2.4-cü yarımbənddə "kredit təşkilatlarında" sözləri "təşkilatlarda" sözü ilə əvəz edilsin;

2.8.3. 8.4-cü bənd üzrə:

2.8.3.1. birinci cümlədə "kredit təşkilatına bu barədə" sözləri "təşkilata bu barədə informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.8.3.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.4. 8.5-ci bənd üzrə:

2.8.4.1. birinci cümlədə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin və həmin cümlədən "təsdiq edilmiş" sözləri çıxarılsın;

2.8.4.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.9. 9-cu hissə üzrə:

2.9.1. 9.1-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun, həmin cümlədən "və faiz subsidiyasının ödənilməsinə dair müraciəti" sözləri çıxarılsın və həmin cümləyə "müddətində" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.9.2. 9.2-ci bənddə "müraciət" sözü "hesabat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.9.3. 9.4-cü bənddə hər iki halda "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10. 10-cu hissə üzrə:

2.10.1. 10.1-ci bəndin birinci cümləsində hər üç halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.2. 10.2-ci bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.10.3. 10.3-cü bənd üzrə:

2.10.3.1. birinci abzasda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.10.3.2. 10.3.2-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10.4. 10.4-cü bənd üzrə:

2.10.4.1. 10.4.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.4.2. 10.4.3-cü yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10.4.3. 10.4.7-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.5. 10.6-cı bənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.10.6. 10.7-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.11. 11-ci hissə üzrə:

2.11.1. 11.1-ci bənd üzrə:

2.11.1.1. 11.1.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatında" sözləri "təşkilatda" sözü ilə, "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.11.1.2. 11.1.2-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.11.2. 11.2-ci bənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.11.3. 11.3-cü bənd üzrə:

2.11.3.1. 11.3.1-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.11.3.2. 11.3.3-cü yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.11.4. 11.4-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12. 12-ci hissə üzrə:

2.12.1. 12.1-ci bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.12.2. 12.2-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12.3. 12.3-cü bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz olunsun və həmin bəndə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.12.4. 12.5-ci bənddə "kredit təşkilatında" sözləri "təşkilatda" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12.5. 12.7-ci bəndin birinci və ikinci cümlələrində, 12.8-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.13. 13-cü hissə üzrə:

2.13.1. 13.1-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin bəndə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.13.2. 13.3-cü bənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.14. həmin Qaydaya Əlavə − "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" üzrə:

2.14.1. 1.2-ci bənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

2.14.2. 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.3. 4-cü hissə üzrə:

2.14.3.1. 4.1-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.3.2. 4.2-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.14.4. 6-cı hissə üzrə:

2.14.4.1. 6.1-ci bənd üzrə:

2.14.4.1.1. birinci və dördüncü cümlələrdə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.14.4.1.2. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.4.2. 6.2-ci bənd üzrə:

2.14.4.2.1. birinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.14.4.2.2. ikinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz olunsun və həmin cümləyə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.14.4.2.3. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.4.3. 6.3-cü bənd üzrə:

2.14.4.3.1. birinci cümlədə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin və həmin cümlədən "təsdiq olunmuş" sözləri çıxarılsın;

2.14.4.3.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.14.4.4. 6.6-cı bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.14.5. 8-ci hissədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.14.6. 11-ci hissədə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 yanvar 2026-cı il**

# TRIPP və Ermənistan – ABŞ münasibətləri

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ABŞ dövlət katibi Marko Rubio ilə Vaşinqtonda keçirdiyi görüş və paralel olaraq TRIPP layihəsinin icra çərçivələrinin rəsmi şəkildə elan edilməsi Cənubi Qafqazda sülh prosesinin yeni mərhələyə daxil olduğunu göstərir. Əgər əvvəlki mərhələlər əsasən siyasi niyyət bəyanatları və etimadın bərpasına yönəlmişdisə, hazırkı mərhələ artıq konkret institutlaşma, hüquqi mexanizmlərin formalaşdırılması və iqtisadi qarşılıqlı asılılığın yaradılması üzərində qurulur. Prosesin diqqətçəkən tərəfi ondan ibarətdir ki, ABŞ sülh gündəliyini birbaşa strukturlaşdırıcı aktor kimi dizayn edir. TRIPP layihəsi regional təhlükəsizlik arxitekturasının geoiqtisadi dayağını formalaşdıran çoxsəviyyəli mexanizmdir.**




Birgə bəyanatda TRIPP-in Cənubi Qafqazda dayanıqlı sülhün təşviqi, regional kommunikasiyaların açılması və Transxəzər ticarət marşrutunun gücləndirilməsi kimi təqdim edilməsi burada daha geniş geosiyasi məqsədlərin mövcudluğunu göstərir. ABŞ üçün TRIPP bütövlükdə Avrasiya məkanında yeni bağlantı arxitekturasının dizaynı anlamına gəlir. Son onillikdə beynəlxalq sistemdə dərinləşən geosiyasi fraqmentasiya, böyük güclər arasında ticarət müharibələri, sanksiya rejimlərinin genişlənməsi və nəqliyyat dəhlizlərinin siyasiləşməsi Vaşinqtonu çoxşaxəli və risklərə davamlı logistika strategiyasına keçməyə məcbur edib.

Bütün bu kontekstdə TRIPP ABŞ-ın Avrasiya məkanında alternativ marşrutların yaradılması istiqamətində apardığı sistemli siyasətin Cənubi Qafqaz seqmentini formalaşdırır. Rusiya üzərindən keçən Şimal marşrutunun sanksiyalar və təhlükəsizlik riskləri səbəbindən etibarlılığını itirməsi, İran üzərindən tranzitin geosiyasi qeyri-müəyyənliklə yüklənməsi və Çin mərkəzli marşrutların Pekinin strateji təsir alətinə çevrilməsi Vaşinqtonu ticarət yollarının "geosiyasi neytrallaşdırılması" xəttinə sövq edir. TRIPP məhz bu ehtiyacın nəticəsi kimi Mərkəzi Asiya – Xəzər – Cənubi Qafqaz – Avropa xəttini funksional və institusional baxımdan konsolidasiya etməyə yönəlir.

Eyni zamanda, TRIPP-in ideoloji və normativ ölçüsü də diqqətdən kənarda qalmamalıdır. ABŞ regionda stabilliyi hərbi balans və ya sərt təhlükəsizlik mexanizmləri üzərindən deyil, iqtisadi qarşılıqlı asılılığın dərinləşdirilməsi yolu ilə formalaşdırmağa çalışır. Kommunikasiyaların açılması, ticarət axınlarının artması və institusional əməkdaşlığın güclənməsi regional aktorların davranışlarını rasional seçimlər çərçivəsinə salır və konfliktlərin siyasi maya dəyərini yüksəldir.

Prezident İlham Əliyevin mediaya son müsahibəsində səsləndirdiyi "Zəngəzur dəhlizi mütləq açılacaq" və "Azərbaycan üçün əsas məsələ yolun maneəsiz olmasıdır" fikirləri bu strategiyanın ali siyasi iradə səviyyəsində dəyişməz xarakter daşıdığını təsdiqləyir. Dövlət başçısının bəyanatları regional və qlobal aktorlara yönəlik strateji siqnaldır. Prezidentin ritorikasında əsas vurğu funksional nəticəyə yönəlir: əsas məqsəd hüquqi və fiziki baxımdan fasiləsiz, təhlükəsiz və proqnozlaşdırılan nəqliyyat bağlantısının təmin edilməsidir. TRIPP-in icrası üzrə çərçivə sənədinin məhz bu mərhələdə qəbul edilməsi Zəngəzur istiqamətində prosesin ardıcıllıqla irəlilədiyini göstərir. Sənəd siyasi qərarın texniki mexanizmlərə çevrilməsi üçün hüquqi-institusional platforma yaradır və tərəflərin məsuliyyət bölgüsünü konkretləşdirir. TRIPP–Zəngəzur identikliyi eyni zamanda Azərbaycanın regional liderlik modelinin yeni fazasını əks etdirir. Bakı uzun müddətdir kommunikasiyaların açılmasını regional təhlükəsizliyin əsas dayağı kimi təqdim edirdi. İndi isə bu konsepsiya ABŞ kimi qlobal aktorun iştirakı ilə beynəlxalq legitimlik qazanır.

Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Ayxan Hacızadənin TRIPP-in icrası üzrə çərçivə sənədinə dair açıqlaması layihənin artıq əməli icra fazasına keçdiyini göstərən siyasi siqnaldır. Bəyanat bir tərəfdən ABŞ-ın 8 avqust Vaşinqton sammitində üzərinə götürdüyü öhdəliklərə sadiqliyini təsdiqləyir, digər tərəfdən isə Ermənistanın real icra məsuliyyətinin institusional səviyyədə gündəmə gətirildiyini nümayiş etdirir. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, məsələ artıq konkret fəaliyyət mərhələsinə transfer olunur. Xüsusi vurğulanan "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi ölkəmizin əsas prioritetidir" tezisi TRIPP-in mahiyyət etibarilə Zəngəzur dəhlizi konsepsiyasının beynəlxalq çərçivəyə inteqrasiya olunduğunu göstərir.

Ermənistanın TRIPP çərçivəsində irəli sürdüyü prioritetlər ölkənin postmünaqişə dövründə xarici siyasət identifikasiyasını yenidən formalaşdırmaq cəhdinin aydın indikatorudur. Uzun illər ərzində Ermənistan regional təhlükəsizlik diskursunda özünü əsasən risk altında olan, xarici təminatlara ehtiyac duyan və müdafiəyönümlü davranış modeli ilə xarakterizə olunan aktor kimi təqdim etmişdi.

TRIPP-in konseptual arxitekturası Azərbaycanın son illər formalaşdırdığı regional sülh diskursu ilə mahiyyət etibarilə üst-üstə düşür. Bakı postmünaqişə mərhələsində sülhü real iqtisadi qarşılıqlı asılılıq və funksional kommunikasiyalar üzərində qurulan davamlı model kimi təqdim edirdi. Regional nəqliyyat xətlərinin açılması, logistik inteqrasiyanın dərinləşdirilməsi və qarşılıqlı fayda əsaslanan iqtisadi mühitin formalaşdırılması Azərbaycanın sülh gündəliyinin əsas institusional dayaqlarını təşkil edirdi. TRIPP bu yanaşmanı beynəlxalq platformada legitimləşdirir və onu artıq çoxtərəfli strateji mexanizm səviyyəsinə yüksəldir.

Layihənin mərkəzi xəttinin Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında dayanıqlı bağlantının formalaşdırılması üzərində qurulması ölkənin geoiqtisadi xəritədə mövqeyinin yenidən kalibrlənməsi deməkdir. Xəzər hövzəsindən Qara dəniz və Aralıq dənizi bazarlarına çıxışın Azərbaycan üzərindən keçməsi ölkənin tranzit kapitalını artırır və regional iqtisadi proseslərdə normativ təsir imkanlarını genişləndirir. Ən əhəmiyyətli məqam isə Ermənistanın bu layihəyə rəsmi və institusional şəkildə qoşulmasıdır. Ermənistanın tranzit əməkdaşlığını qəbul etməsi, əslində, münaqişə məntiqindən inteqrasiya məntiqinə keçidin siyasi legitimləşdirilməsi deməkdir. Bütün bu amillər Azərbaycanın sülh gündəliyinin real regional transformasiya layihəsi olduğunu nümayiş etdirir və Bakının regional liderlik iddiasını möhkəmləndirir.

TRIPP ətrafında formalaşan siyasi konsensus və normativ sənədlər regionda yeni əməkdaşlıq mərhələsinin başlanğıcını göstərsə də, bu razılaşmaların avtomatik şəkildə uğurlu icraya çevriləcəyini iddia etmək realistik olmazdı. Beynəlxalq layihələrin praktiki həyata keçirilməsi çox vaxt hüquqi niyyətlə siyasi davranış arasında yaranan boşluqla üzləşir. Cənubi Qafqaz kimi tarixi münaqişə yaddaşı güclü olan, təhlükəsizlik dilemmasının hələ tam aradan qalxmadığı bir məkanda bu boşluq daha kəskin şəkildə özünü göstərir.

İndi həssas risk mənbələrindən biri Ermənistanın daxili siyasi mühitidir. Postmünaqişə dövründə cəmiyyətdə formalaşan travmatik yaddaş, identitet böhranı və siyasi revanşizm meyilləri hər hansı regional inteqrasiya təşəbbüsünü potensial siyasi manipulyasiya obyektinə çevirir. Milli-populist və revizionist qruplar TRIPP-i suverenlik, təhlükəsizlik və tarixi iddialar prizmasından şərh edərək ictimai müqavimət yarada bilər. Risklərin digər mühüm mənbəyi regional güc balansları ilə bağlıdır. Rusiya və İran TRIPP-i öz ənənəvi təsir zonalarında alternativ geoiqtisadi və siyasi arxitekturanın formalaşması kimi qavrama potensialına malikdir. Xüsusilə Rusiyanın Cənubi Qafqazda təhlükəsizlik və nəqliyyat üzərində uzun illər ərzində qurduğu nəzarət mexanizmlərinin nisbi şəkildə zəifləməsi Moskvanın strateji narahatlıqlarını artırır. İran üçün isə Şimal–Cənub və Şərq–Qərb marşrutları üzərində rəqabət balansının dəyişməsi iqtisadi və təhlükəsizlik baxımından yeni qeyri-müəyyənlik yaradır.

Bütün bu amillər onu göstərir ki, TRIPP çoxsəviyyəli təhlükəsizlik idarəetməsi platforması kimi dizayn edilməlidir. Hüquqi çərçivələrin icraedici mexanizmlərlə dəstəklənməsi, risklərin qabaqlayıcı idarə edilməsi



və regional aktorlarla balanslaşdırılmış dialoqun saxlanılması layihənin davamlılığını müəyyən edəcək əsas amillərdir. Əks halda, normativ razılaşmalar real siyasi dinamikaya uyğunlaşmadığı təqdirdə, TRIPP simvolik diplomatik təşəbbüs səviyyəsində qala və gözlənilən transformativ təsiri yarada bilməz. Məhz bu səbəbdən layihənin gələcək taleyi daha çox strateji idarəetmə keyfiyyətindən asılı olacaq.

Sonda qeyd edək ki, əgər layihə planlaşdırıldığı kimi icra olunarsa, Cənubi Qafqaz ilk dəfə geosiyasi risk zonası deyil, geoiqtisadi sabitlik platforması kimi formalaşa bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Avrasiyanın yeni "dəmir qalxanı"

## *Yaxud Zəngəzur layihəsi qlobal xaosu necə neytrallaşdırır?*

**Türk Dövlətləri Təşkilatının (TDT) çətiri altında həyata keçirilən inteqrasiya prosesləri, xüsusilə TRIPP kimi strateji təşəbbüslər vasitəsilə reallaşdırılan əməkdaşlıq formatları nəhəng coğrafiyada təhlükəsizlik qalxanı funksiyasını yerinə yetirməyə başlayır. XXI əsrin üçüncü onilliyində müşahidə olunan qlobal xaos, xüsusilə ABŞ və Çin arasında getdikcə kəskinləşən və ticarət müharibələrindən hərbi-siyasi qarşıdurmaya keçid mərhələsində olan rəqabət fonunda Türk dövlətlərinin nümayiş etdirdiyi həmrəylik modeli alternativsiz sabitlik adasıdır. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Türk dünyasının birləşməsi və TDT-nin qlobal liderə çevrilməsi tarixi zərurətdən irəli gələn qaçılmaz prosesdir. Məhz bu zərurət fonunda formalaşan təhlükəsizlik arxitekturası regionun gələcəyini sığortalayan yeganə effektiv mexanizmdir.**

Hazırkı qlobal qarşıdurma mühiti kiçik və orta dövlətləri seçim qarşısında qoyaraq onları hegemon güclərin orbitinə məcburi şəkildə daxil etməyə çalışır. Sakit okean hövzəsindən başlayaraq Avropanın şərq sərhədlərinə qədər uzanan gərginlik zolağı dünya ticarətinin və enerji təhlükəsizliyinin əsas damarlarını təhdid altına alır. Vaşinqtonun Hind–Sakit okean strategiyası çərçivəsində Pekini cilovlamaq cəhdləri və Çinin buna cavab olaraq qlobal cənub ölkələri ilə əlaqələri dərinləşdirməsi qlobal təhlükəsizlik sistemində vakuum yaradır. Məhz bu şəraitdə TDT heç bir qütbün yanında yer almadan, əksinə, mərkəzi qüvvə kimi çıxış edərək milli maraqların və suverenliyin qorunmasını hədəfləyən müstəqil xətt yürüdür. TRIPP təşəbbüsü çərçivəsində reallaşdırılan layihələr, o cümlədən Orta Dəhlizin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi və vahid nəqliyyat-logistika şəbəkəsinin qurulması iqtisadi inteqrasiyanı təhlükəsizlik amili ilə birbaşa əlaqələndirir.




TDT-nin təhlükəsizlik sahəsində atdığı addımlar, xüsusilə son zirvə görüşlərində qəbul edilən qərarlar təşkilatın, sadəcə, mədəni və ya iqtisadi ittifaq olmadığını, həm də ciddi hərbi-siyasi blok kimi formalaşdığını sübut edir. Mülki Müdafiə Mexanizminin yaradılması, kəşfiyyat məlumatlarının mübadiləsi, terrorizmə, ekstremizmə və separatizmə qarşı birgə mübarizə barədə razılaşmalar kollektiv təhlükəsizlik sisteminin təməl daşlarıdır. Dünyanın müxtəlif nöqtələrində alovlanan münaqişələr, hibrid müharibələr və kibertəhdidlər Türk dövlətlərini müdafiə sənayesi sahəsində dərin kooperasiyaya sövq edir. Türkiyənin hərbi-sənaye kompleksinin əldə etdiyi nailiyyətlərin Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan ordularının arsenalına inteqrasiya olunması regionun müdafiə qabiliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəldir. Bu əməkdaşlıq birgə istehsal müəssisələrinin yaradılmasını, hərbi kadrların hazırlanmasını və ortaq təlimlərin keçirilməsini ehtiva edir.

### İlham Əliyevin müdafiə realizmi: hücum etmirik, qoruyuruq!

Azərbaycan Prezidenti İlham Əliyevin TDT-nin mahiyyəti barədə səsləndirdiyi fikirlər təşkilatın fəlsəfəsini və strateji hədəflərini dəqiq ifadə edir. Dövlət başçısı birmənalı şəkildə bəyan etdib ki, formalaşan birlik üçüncü tərəflərə qarşı yönəlməyib, ərazi iddiaları və ya hücum xarakteri daşımır, əksinə, sırf özünüqoruma instinktinə və milli suverenliyin müdafiəsinə əsaslanan müdafiə ittifaqıdır. Sözügedən yanaşma beynəlxalq münasibətlərdə müdafiə realizmi nəzəriyyəsi ilə tam uzlaşır. Türk dövlətləri başqalarının torpaqlarında gözü olmadığını, lakin mövcud sərhədlərin toxunulmazlığını və daxili sabitliyi qorumaq üçün istənilən təhdidə, istər hərbi, istər ideoloji, istərsə də iqtisadi olsun, birgə cavab vermək əzmində olduqlarını nümayiş etdirirlər. Regionda neokolonializm meyillərinin baş qaldırdığı, bəzi Qərb dairələrinin və ya ənənəvi imperiya ambisiyası güdən qüvvələrin Türk dövlətlərini yenidən təsir dairəsinə salmaq cəhdləri qarşısında TDT sarsılmaz sədd rolunu oynayır.

ABŞ və Çin arasındakı qlobal rəqabətin Mərkəzi Asiya və Cənubi Qafqaz regionuna proyeksiyası region ölkələri üçün həm risklər, həm də imkanlar yaradır. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü və ABŞ-ın regiona yönəlik layihələri arasında balansın qorunması incə diplomatik məharət tələb edir. TRIPP və Orta Dəhliz layihələri vasitəsilə Türk dövlətləri tranzit ölkə statusundan çıxaraq qlobal ticarətin moderatoru rolunu mənimsəyirlər. Şərq–Qərb marşrutu üzrə yükdaşımaların həcminin artması və enerji resurslarının Avropa bazarlarına nəqli Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin strateji çəkisini artırır. Lakin iqtisadi cəlbedicilik artdıqca xarici müdaxilə riskləri də paralel şəkildə artır. Məhz burada TDT-nin təhlükəsizlik çətiri işə düşür. Vahid informasiya məkanının yaradılması, kiberhücumlara qarşı ortaq müdafiə sistemlərinin qurulması və sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi xarici ölkələrin regionda destruktiv fəaliyyət göstərmək imkanlarını məhdudlaşdırır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, XXI əsr Türk əsri olacaq. Bu bəyanat konkret rəqəmlərə, demoqrafik göstəricilərə və iqtisadi potensiala söykənir. Avropada əhalinin qocalması və iqtisadi durğunluq, Rusiyanın sanksiyalar məngənəsində sıxılması fonunda gənc, dinamik və zəngin resurslara malik Türk dünyası qlobal inkişafın yeni hərəkətverici qüvvəsinə çevrilir. Təşkilatın əhatə etdiyi coğrafiya Aralıq dənizindən Sakit okeana qədər uzanır və mühüm geostrateji nöqtələri nəzarətdə saxlayır.

ABŞ-Çin qarşıdurmasının gələcəkdə daha kəskin fazaya keçməsi ehtimalı fonunda TDT-nin bitərəf, lakin prinsipial mövqeyi qlobal sabitlik üçün hava və su kimi zəruridir. Bloklara qoşulmamaq, lakin milli maraqları qorumaq üçün güclü hərbi-siyasi ittifaq formalaşdırmaq strategiyası ən rasional yoldur. Təhlükəsizlik sahəsindəki əməkdaşlığın genişləndirilməsi, hərbi doktrinaların unifikasiyası və operativ uyarlılığın təmin olunması Türk ordularının vahid orqanizm kimi hərəkət etmək qabiliyyətini artırır. Türk Dövlətləri Təşkilatının Səmərqənd və Astana sammitlərində qəbul edilən strateji sənədlər təşkilatın gələcək yol xəritəsini müəyyən edir. Sənədlərdə əks olunan müddəalar onu göstərir ki, üzv dövlətlər təhlükəsizliyi bölünməz anlayış kimi qəbul edirlər. Yəni üzv dövlətə qarşı yönələn təhdid bütün təşkilata qarşı yönəlmiş hesab olunur. Bu həmrəylik modeli NATO-nun 5-ci maddəsinə bənzər mexanizmin, lakin regionun spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmış formasının tətbiqini nəzərdə tutur.

Mövcud reallıqlar onu deməyə əsas verir ki, Türk Dövlətləri Təşkilatı artıq qlobal güc mərkəzlərindən biri kimi formalaşıb. Təşkilatın sülhsevər missiyası, ədalətli dünya nizamı çağırışları və beynəlxalq hüquqa hörmət prinsipləri onu digər hərbi bloklardan fərqləndirir. Prezident İlham Əliyevin vurğuladığı kimi, məqsəd kiməsə hücum etmək yox, öz evini, öz dəyərlərini və gələcəyini qorumaqdır. Qərbin ikili standartları və bəzi hallarda Türk dünyasına qarşı qərəzli yanaşması fonunda özünümüdafiə mexanizmlərinin yaradılması zərurətə çevrilib. Mədəni köklərdən güc alan, iqtisadi praqmatizmlə möhkəmlənən və hərbi-siyasi iradə ilə zirehlənən Türk birliyi Avrasiyanın taleyini müəyyən edən əsas faktorlardan biri olacaq. Prosesin gedişatı labüddür və geridönüşü yoxdur.

Prezident İlham Əliyevin liderliyi və strateji uzaqgörənliyi ilə Azərbaycan sözügedən prosesin lokomotivlərindən biri kimi çıxış edir. Güclənən, birləşən və inkişaf edən Türk dünyası qlobal təlatümlər dənizində etibarlı liman və sivilizasiyalararası dialoqun mərkəzi olacaq. Yaradılan ittifaq aqressiv millətçilikdən uzaq, bəşəri dəyərlərə hörmət edən və əməkdaşlığa açıq modeldir. Lakin kimsə Türk dünyasının səbrini sınamağa və ya onun maraqlarına toxunmağa cəhd edərsə qarşısında sarsılmaz divar görəcək. Tarixin sərt sınaqlarından, münaqişə və xarici təzyiqlərdən keçərək hazırkı mərhələyə çatan Türk xalqları təhlükəsizliyin və birliyin dəyərini başqalarından daha dərindən dərk edirlər. Xalqımızın "Başına gələn başmaqçı olar" hikməti məhz mövcud geosiyasi reallığın dəqiq ifadəsidir. Keçmişdə yaşanan acı təcrübələr, üzləşdiyi ədalətsizliklər və xarici müdaxilələr bu gün Türk dövlətlərini daha ayıq, daha güclü və daha mütəşəkkil olmağa vadar edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Təhdid özünüqoruma instinktini gücləndirir

## *Müharibə dinc ölkəni minalardan istifadəyə vadar edir*

**Ottava Konvensiyası dinc, sabit dünya üçün nəzərdə tutulan bir öhdəlikdir. Başqa sözlə desək, silahlı münaqişələrin olmadığı, müharibə cinayətlərinin törədilmədiyi sakit dövr üçün keçərli sayılan konvensiyadır. Amma nə yazıq ki, bu gün sabit və dinc dünya mövcud deyil. Planetin müxtəlif nöqtələrində ən müasir silahlarla insanlar kütləvi şəkildə məhv edilir, yerdən və havadan hərbi-texniki vasitələrlə hücumlar həyata keçirilir, ayrı-ayrı ölkələrin əraziləri işğal olunur, yüz minlərlə sakin köçkünə, mühacirə çevrilir. Baş verənlər hücuma, təhdidə məruz qalan ölkəni özünün bəzi ərazilərinə kənardan hərbi sızmanın qarşısını almaqdan ötrü müəyyən sahələri minalamağa məcbur edir. Bu səbəbdən Ottava Konvensiyasının effektivliyinin xeyli azalmasına təəccüblənməyə dəyməz.**

Hələ ötən ilin mart ayında Litva, Latviya, Estoniya və Polşanın müdafiə nazirlərinin birgə bəyanatında ölkələrini Ottava Konvensiyasından çıxmağa çağırışlar yer almışdı. Sonradan onlara Finlandiya da qoşuldu. İyun ayında isə Ukrayna Prezidenti Volodimir



Zelenski ölkəsinin bu müqavilədən çıxması barədə fərman imzaladı. Artıq bu tendensiyanın genişlənməsi müşahidə olunmaqdadır. Finlandiya piyada əleyhinə minaların qadağan olunmasını nəzərdə tutan Ottava Konvensiyasından çıxdığını rəsmiləşdirdi. Bununla bağlı BMT-yə müvafiq bildiriş təqdim edildikdən altı ay sonra qərar qüvvəyə mindi. Yəni yuxarıda adlarını sadaladığımız ölkələr kimi, Finlandiya da bu silah növündən öz hərbi arsenalında istifadə etmək hüququnu qazanmış oldu. Prezident Aleksandr Stubb bildirib ki, konvensiyadan çıxandan sonra ölkə sülh dövründə mina sahələrindən istifadə etməyəcək, lakin ehtiyatları saxlamaq niyyətindədir: "Reallıq budur ki, qonşumuz Ottava Konvensiyasının tərəfi olmayan, özü də minalardan istifadə edən Rusiya adlı təcavüzkar dövlətdir". Stubbun sözlərinə görə, Helsinkinin bu addımı qonşu ölkədən gələn təhdidlərlə qarşı təhlükəsizlik variantlarının öyrənilməsi və tətbiqinin zəruriliyi ilə izah olunur.

Yeri gəlmişkən, Ottava Konvensiyası piyada əleyhinə minaların istifadəsini, istehsalını, toplanmasını və ötürülməsini qadağan edir. Həmçinin iştirakçı dövlətlərin üzərinə mövcud ehtiyatları məhv etmək öhdəliyini qoyur. 1997-ci ildə imzalanan, 1999-cu ildə qüvvəyə minən və 163 dövlətin qoşulduğu Konvensiya hər ay yüzlərlə insanı öldürən və şikəst edən silahların təsirini məhdudlaşdırmaq üçün güclü vasitə idi. Əsas qurbanlar isə mülki şəxslərdir. Minalar, təəssüf ki, bərpa və yenidənqurma işlərinə davamlı maneə olaraq qalır.

Azərbaycan "mina terroru"na məruz qalmış dünyanın azsaylı ölkələrindən biridir. Böyük səylərə baxmayaraq, minatəmizləmə sürəti potensial bərpa tempindən xeyli geri qalır. Yaranmış vəziyyətin paradoksallığı odur ki, ortada günahlandıracaq heç kim yoxdur. Bu, təhdidlə üzləşən hər bir ölkə üçün reallıqdır. İntəhası, Konvensiya, sadəcə, beynəlxalq sənəd deyil, torpağa "ölüm əkməmək" öhdəliyinə dair bəyannamədir. Üzv dövlətlərin bir çoxu piyada əleyhinə minaları tamamilə və ya demək olar ki, tamamilə ləğv etmişdi. Azərbaycanın bu Konvensiyaya qoşulmamasının səbəbi məlumdur. Buna görə işğalçı qonşumuza "təşəkkür" etməliyik.

Beləliklə, Estoniya, Latviya, Litva, Ukrayna və Finlandiya Ottava Konvensiyasından rəsmən çıxdılar. Baltikyanı xalqlara və finlərə nəzər yetirsək, görərik ki, adətən, bu cür məsələlərdə onlar məhdudlaşdırıcı tədbirlərə avanqardlıq edir və beynəlxalq öhdəliklərindən imtina etdikləri müşahidə olunmur.

*(ardı 4-cü səhifədə)*

# İrəvanda Moskvanın hərbi mövcudluğu




**Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamə imzalananda və həmin sənədin əsas qayəsinin "Tramp marşrutu" (TRIPP) olduğu açıqlananda, Rusiya rəsmiləri marşrutun keçəcəyi ərazilərdə ölkələrinə məxsus hərbi birləşmələrin olduğunu xatırlatmışdılar. Təsəvvür edin, bir dövlətin silahlı qüvvələrinin təmsilçiləri başqa dövlətin torpağındadır və həmin başqa dövlət hansısa layihə reallaşdırmaq istəyərkən, "mən də varam" mesajı ilə üzləşir. Əslində, absurd durum yaranır. Amma nə edək ki, müstəqil Ermənistanın bəxtinə bu aqibət yazılıb və rəsmi İrəvan 2018-ci ildən başlayaraq vəziyyətin aradan qaldırılması istiqamətində müxtəlif cəhdlər göstərsə də, problem həll olunmur. Amma…**

Bəli, Ermənistan rəhbərliyi ölkə ərazisində rus hərbi mövcudluğunun anormallığını anlayır və müxtəlif gedişlərlə həmin mövcudluğu aradan qaldırmaq istiqamətində işlər görür. Məsələn, məlumdur ki, artıq İrəvanın "Zvartnots" hava limanında Rusiya sərhədçilərinin varlığına son qoyulub. Ümumən isə İrəvan iqtidarının bu məsələdə Kremli qıcıqlandırmaq istəmədiyi aşkar görünür. Baş nazir Nikol Paşinyan administrasiyası "nə şiş yansın, nə də kabab" prinsipinə uyğun davranır. Əlbəttə, obrazlı desək, kabab üçün şişi qurban verməyə dəyər.

Beləliklə, bir neçə gün əvvəl Ermənistanın müxtəlif media orqanları ölkə rəhbərliyinin Türkiyə ilə sərhəddə yerləşən Axurik zastavasındakı keçid məntəqəsindən Rusiya sərhədçilərinin çıxarılması barədə qərar qəbul etdiyinə və orada bayraq dirəyinin quraşdırıldığına dair xəbər yaymışdılar. Məlum olduğu kimi, müstəqillik illərindən başlayaraq, Ermənistanın Türkiyə ilə sərhədlərini də rus hərbi kontingenti qoruyur. Söhbət həm də Gümrüdəki 102-ci Rusiya hərbi bazasından gedir.

Rusiya sərhədçilərinin Ermənistandan çıxarılması məsələsi, ümumən, İrəvan–Moskva münasibətlərinin hazırkı mənfi trayektoriyasına bir qədər boz çalarlar gətirsə də, Paşinyan iqtidarı qətiyyətli davranmalıdır. Axı ortada TRIPP söhbəti var. Yeri gəlmişkən, Rusiya tərəfi bu yaxınlarda TRIPP layihəsinə qoşulmaq istəyini açıqlayıb. Bu açıqlamada əvvəllərdə olduğu kimi, rus hərbi mövcudluğunu yada salmaq ritorikası yoxdur. Görəsən, Moskva ənənəvi jandarm ampluasına dəyişiklik edir? İnanmaq çətindir. Çünki Kremlin TRIPP-də fundamental iştirakçılıqla bağlı hansısa strategiyası istisnadır. Hər halda, belə bir strategiya olsaydı, Rusiya rəsmiləri müvafiq açıqlamalar verərdirlər. Deməli, necə deyərlər, torbada pişik var.

Onu da deyək olar ki, Rusiyanın Cənubi Qafqazda ən mühüm siyasi proseslərin fəal adekvat iştirakçısı qismində qalmaqla kifayətlənməsi ehtimalı azdır. Heç şübhəsiz, Moskva ABŞ və digər maraqlı tərəflər kimi, iqtisadi fayda əldə etməyi planlaşdırır. Məsələ həmin faydanın hansı ölçüdə olmasındadır. Loru dildə desək, Rusiya özü üçün nə istəyir? Həmçinin ölkənin başqalarına nələrin olmasını istəməməsi də önəmlidir. Axı Moskvanın Ermənistandakı mövqeləri xeyli zəifləyib. Düşünmək olar ki, Kreml bu zəifliyi məhz TRIPP vasitəsilə aradan qaldırmağa çalışacaq. Çox güman, layihədə iştirakla bağlı Rusiya tərəfinin açıqlamaları məhz bundan qaynaqlanır.

Məlum olduğu kimi, TRIPP özündə regional kommunikasiyaların açılmasının geniş spektrini birləşdirir. Yəni məsələ yalnız vacib və Azərbaycan üçün önəmli komponent olan Naxçıvana maneəsiz yolda, Zəngəzur dəhlizinin işə düşməsində deyil. Duruma geniş yanaşaraq, deyək ki, Türkiyə tərəfi artıq Ermənistanla sərhəddəki Marqara keçid məntəqəsi ərazisində tikinti işlərinə başlayıb. Buna dair xəbərlərlə Axurik zastavasından Rusiya sərhədçilərinin çıxarılması qərarı ilə bağlı məlumatların paralelliyi diqqət çəkməkdədir. Deməli, Ermənistan–Türkiyə sərhədinin açılması planı var və Ankaranın sərhəddə üçüncü tərəfi, yəni rus hərbçilərini görmək istəməməsi kimi haqlı durumun yaranması mümkündür.

Ümumən, ötən il avqustun 8-də imzalanmış Azərbaycan–Ermənistan Birgə Bəyannaməsindən sonra Ankara–İrəvan münasibətlərinin tənzimlənməsi üçün zəmin formalaşıb və Paşinyan administrasiyası iki dövlət arasında sərhədlərin açılmasının fəal təbliğatını aparır. Hətta o qədər fəal təbliğat aparır ki, bəzən sərhədlərin Zəngəzur dəhlizindən əvvəl açılacağına dair təəssürat da yaradır. Amma bu təəssüratın Türkiyə rəsmilərinin açıqlamaları ilə sıradan çıxdığı məlumdur. Açıqlamaların məzmunu isə belədir: Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsi imzalanmayana, Zəngəzur dəhlizi reallaşmayanadək Türkiyə-Ermənistan sərhədləri açıla bilməz.

Deməli, TRIPP-lə bağlı məntiqi ardıcıllıq olmalıdır. Birincisi, Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsi imzalanmalıdır. Bu, tərəflərin regional kommunikasiyaların açılması xüsusunda bir-birilərinə daha etimadla yanaşmalarını təmin edəcək. Etimad üçün isə ölkəmizin Ermənistan konstitusiyasına dəyişiklik şərti yerinə yetirilməli, əsas qanun qonşulara ərazi iddiasından qurtulmalıdır.

Eyni zamanda, yekun saziş bilavasitə Birgə Bəyannamənin "Tramp marşrutu" seqmenti ilə bağlı da intensivliyi təmin edəcəkdir. Nəzərə alaq ki, mövcud trayektoriyada Türkiyənin marağı məhz Azərbaycanla maneəsiz bağlantı qurmaqdır. Yəni Paşinyanın ölkəsinin Azərbaycan–Ermənistan, Ermənistan–Türkiyə üzrə yükdaşımaların həyata keçirilməsinə hazır olduğuna dair ötən ilki bəyanatlarının praktik əhəmiyyəti yoxdur. Çünki daşımaların konkret yolu var və o yol işlək olmaldır. Yəni Ermənistanın baş naziri vaxtilə "Sülhün kəsişməsi" layihəsi üzrə irəli sürdüyü Laçın–Kornidzor–Marqara xəttinə ümid bəsləməməlidir.

Sonda ümumiləşdirmə apararaq, deyək ki, Ermənistan Qərblə əlaqələrini möhkəmləndirib, Rusiya təsirini mərhələli şəkildə aradan qaldırıb özünün ayrıca subyekt ampluasını nümayiş etdirməklə yanaşı, Azərbaycanla yekun sülh sazişinin imzalanması istiqamətində daha çox səy göstərməlidir. Bu, təkcə sərhədlərin və kommunikasiyaların açılmasını deyil, həm də Cənubi Qafqaz regionuna sabitlik və təhlükəsizlik gətirəcək. Bilavasitə əvvəldə haqqında söz açdığımız Ermənistandakı rus hərbi mövcudluğu isə nəzərdə tutulan sülh düzəni ilə tərs mütənasibdir. Durumun aradan qalxması üçün Ermənistanın Rusiya ilə 1992-ci ildə imzaladığı, sonra müddəti uzadılmış müqavilədən imtinası lazımdır. Nəzərə alaq ki, TRIPP üzrə rəsmi İrəvan tərəfindən açıqlanmış fəaliyyət planına görə, ABŞ mühəndislərinin, texnikasının və şirkət nümayəndələrinin tikinti və idarəetmə aparacağı ərazi Rusiyanın hərbi yurisdiksiyasındadır. Rusiya sərhədçilərinin ABŞ infrastrukturu üzərində necə davranacağı müəmmadır.

Əminliklə deyə bilərik ki, Ermənistandakı rus hərbi mövcudluğu status-kvonun və Rusiyanın ənənəvi dominantlığının qalıqlarıdır. TRIPP layihəsi isə İrəvanın bu dominantlıqdan çıxmaq və Qərb infrastrukturuna inteqrasiya şansıdır. Bu iki amil bir-biri ilə ziddiyyət təşkil edir. Ona görə yaxın gələcəkdə ya Rusiya sərhədçiləri ərazidən çıxarılmalı, ya da nəzəri yanaşsaq, TRIPP layihəsi Rusiyanın şərtlərinə uyğunlaşdırılmalıdır. Əks halda...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Təhdid özünüqoruma instinktini gücləndirir

*(əvvəli 3-cü səhifədə)*

Yəni bu gün ağıllı xalqların onilliklər boyu əməl etdikləri prinsiplərdən imtinası baş verir. Xeyirxahlıq və mərhəmət sülhməramlı təşəbbüsləri dəfn etməyə hazır olanların inadından üstün olmağı bacarmadı. Bir-birinin ardınca ayrı-ayrı ölkələr "əbədi basdırdıqları" kütləvi qırğın silahlarını üzə çıxarırlar.



**Mövzu ilə bağlı XQ-yə açıqlama verən Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) təsisçisi və prezidenti Umud Mirzəyev Ottava Konvensiyasından çıxışın səbəbi kimi təhlükəsizlik zərurətini önə çəkdi:** "Bu prosesin arxasında humanitar hüquqa qarşı münasibətin dəyişməsi yox, beynəlxalq təhlükəsizlik mühitinin kəskin şəkildə transformasiyası dayanır. Ottava Konvensiyası qəbul edilərkən Avropada genişmiqyaslı müharibə real ssenari kimi nəzərdən keçirilmirdi. Bu gün isə Ukraynada davam edən hərbi çatışma göstərdi ki, dövlətlərarası silahlı toqquşmalar tam gücü ilə geri qayıdıb. Bu şəraitdə bəzi ölkələr hüquqi öhdəliklərlə öz milli təhlükəsizlik ehtiyacları arasında seçim qarşısında qalır. Bu seçim getdikcə daha çətin olur. Litva, Latviya və Estoniyanın ardınca Finlandiyanın da Konvensiyadan çıxış qərarı verməsi emosional yox, hesablanmış təhlükəsizlik yanaşmasının nəticəsidir".

U.Mirzəyev diqqəti Rusiya ilə sərhəddə yerləşən ölkələrin tarixi təcrübələrində suverenliyin itirilməsi, hərbi təzyiq və zorakı ilhaq kimi hadisələrin olduğuna yönəltdi: "Ukrayna müharibəsi isə onlara açıq şəkildə göstərdi ki, beynəlxalq hüquqi sənədlər müharibənin qarşısını almağa kömək etmir. Baltikyanı ölkələr hesab edirlər ki, mümkün münaqişənin ilk mərhələsində ərazinin müdafiəsi üçün istifadə edilən vasitələrdən imtina strateji baxımdan risklidir. Mina kimi vasitələr isə onlar üçün deterrensiya və əraziyə nəzarət baxımından mühüm rol oynayır.

Hazırkı mərhələdə bu prosesin ümumavropa xarakteri aldığını demək olmaz. Daha çox Rusiya ilə sərhədi olan və ya özünü birbaşa təhlükə altında hiss edən ölkələr məsələyə yenidən baxır. Qərbi Avropa dövlətlərində isə təhlükəsizlik mühiti fərqlidir və humanitar hüquq hələ prioritet sayılır. Amma presedent artıq yaranıb və bu presedent beynəlxalq hüquq sisteminə uzunmüddətli təsirlər göstərə bilər. Yəni bu, lokal addımlar silsiləsi kimi başlasa da, gələcəkdə normativ sistemə təsir edəcək bir prosesdir".

Bir daha Rusiya amilinə toxunan ekspert burada bir neçə paralel amilin olduğunu vurğuladı: "Bəzən ölkələr üçün minalar nisbətən ucuz və effektiv müdafiə vasitəsi hesab olunur. Digər vacib məqam isə beynəlxalq hüququn real icra mexanizmlərinin zəifləməsi və etibarsızlaşmasıdır. Müharibə zamanı pozuntuların qarşısı alınmır, məsuliyyət isə çox zaman illər sonra və məhdud formada müəyyən edilir. Çox təəssüf ki, Azərbaycan bu mövzuda əsas qurbanlardan biri və real təcrübə sahibidir. Biz onilliklər ərzində minaların xüsusən mülki əhali üçün hansı ağır nəticələr doğurduğunu açıq şəkildə gördük. Hesab edirəm ki, Ottava Konvensiyası tam mənada aktuallığını itirməyib, amma ciddi şəkildə yenidən düşünülməyə ehtiyacı var. Müasir münaqişələr göstərir ki, yalnız qadağalara əsaslanan yanaşma kifayət etmir. Əgər beynəlxalq hüquq təhlükəsizlik reallıqları ilə uzlaşmasa, dövlətlər ondan uzaqlaşmağa davam edəcək. Ona görə də əsas məsələ humanitar prinsiplərlə dövlətlərin real təhlükəsizlik ehtiyacları arasında balansın tapılmasıdır".

Yeri gəlmişkən, onu da qeyd edək ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu ANAMA-nın sifarişi əsasında işğaldan azad olunmuş ərazilərin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi xidmətini göstərir.

Ottava Konvensiyasından çıxan ölkələr piyada əleyhinə minaların istehsalı, saxlanması və istifadəsi ilə bağlı hüquq qazanır. ABŞ, Çin və Rusiyanın bu konvensiyaya qoşulmaması, eyni zamanda, Rusiya və Ukrayna arasındakı müharibə bir daha piyada əleyhinə minaların geniş istifadəsini gündəmə gətirməkdədir. Təəssüf ki, beynəlxalq hüququn kobud şəkildə pozulduğu, ərazilərin işğal edildiyi indiki dövrdə hər bir ölkə öz təhlükəsizliyini düşünməyə, özünü qorumağa məcburdur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Marko Rubionun, doğrudanmı, vaxtı yoxdur?

## *ABŞ-da Kaya Kallasla görüşlərdən imtinanın pərdəarxası səbəbləri*

**Son dövrlər Vaşinqton–Brüssel diplomatik xəttində soyuqluq müşahidə olunur. ABŞ siyasi dairələrində, Marko Rubio da daxil olmaqla, bir sıra yüksəkçinli fiqurların Avropa İttifaqının (Aİ) xarici siyasət üzrə ali nümayəndəsi Kaya Kallasla planlaşdırılan görüşlərdən imtina etməsi bu fonu daha da gücləndirib. Rəsmi izahlar əsasən "qrafik uyğunsuzluğu", "prioritetlərin dəyişməsi" kimi texniki səbəblərə söykənsə də, pərdə arxasında prosesin siyasi etimad böhranı ilə əlaqəli olduğu qənaəti güclənir.**



Məsələ təkcə bir və ya iki görüşün baş tutmaması ilə yekunlaşmır. Kallasın son aylar tutduğu sərt və bəzən maksimalist mövqe, xüsusilə ABŞ-ın daha praqmatik yanaşma axtardığı mövzularda çeviklik göstərməməsi Vaşinqtonda suallar doğurur. Ağ Ev üçün Aİ ilə münasibətlər ideoloji bəyannamələrdən daha çox, nəticə verən koordinasiya üzərində qurulmalıdır. Bu baxımdan, Kallasın ritorikası ilə real siyasi balans arasındakı uyğunsuzluq getdikcə aydın görünür.

**ARAYIŞ:** *Əslən estoniyalı olan Kaya Kallas Avropa siyasətində son illərin ən çox müzakirə olunan fiqurlarından biridir. Atası Siim Kallas Estoniyanın keçmiş baş naziri, Avropa Komissiyasının sabiq vitse-prezidenti və ölkənin müstəqillikdən sonrakı siyasi elitasının əsas simalarından olub. Bu amil Kallasın siyasətə erkən yaşlardan maraq göstərməsinə zəmin yaradıb. Onun aktiv siyasi karyerası 2010-cu ildə başlayıb. O, əvvəlcə Estoniya parlamentinə seçilib, daha sonra Avropa Parlamentində ölkəsini təmsil edib. 2018-ci ildə Kaya Kallas Estoniyanın liberal-mərkəzçi İslahat Partiyasının lideri seçilib, 2021-ci ildə isə Estoniyanın ilk qadın baş naziri olub. Kaya Kallasın beynəlxalq imici əsasən anti-Rusiya ritorikası ilə formalaşıb. Bu mövqe Kallası Şərqi Avropa və Baltik ölkələrində güclü lider kimi ön plana çıxarsa da, Qərbi Avropa və Aİ daxilində bəzən radikal hesab olunur. 2024-cü ildən etibarən Kallasın adı Avropa İttifaqının xarici siyasət arxitekturasında daha yüksək vəzifələr kontekstində hallanmağa başlayıb. O, Brüsseldə prinsipial, emosional tonu yüksək, kompromisdən çox siyasi mövqe nümayişinə üstünlük verən siyasətçi kimi qəbul olunur. Bu isə onun bəzi diplomatik proseslərdə konsensus qurmaq imkanlarını məhdudlaşdıran amil kimi dəyərləndirilir.*

Ümumiyyətlə, Kallas vəzifəyə gəldiyi gündən Avropa xarici siyasətini daha prinsipial və sərt xətt üzərində qurmaq niyyətini gizlətməyib. Lakin beynəlxalq münasibətlərdə prinsipiallıq tərəfdaşların maraqları ilə uzlaşdırılmadıqda siyasi yükə çevrilir. Görünür, ABŞ-da da Avropa İttifaqının bəzi mövqelərinin Vaşinqtonun qlobal strategiyası ilə hər zaman üst-üstə düşmədiyi düşüncəsi formalaşmağa başlayıb. Bu kontekstdə Kallasın şəxsi liderlik üslubu və kompromisə az meyilli obrazı əlavə risk faktoru kimi qiymətləndirilir. Marko Rubio kimi siyasətçilər üçün əsas məsələ etibarlı dialoq tərəfdaşlığıdır. Nəzərə alsaq ki, ABŞ siyasi mədəniyyətində etimad davranışlarla ölçülür, Kallasın bəzi çıxışlarında Vaşinqtonun maraqlarını gözardı edən tonun sezilməsi, eləcə də Avropa İttifaqı daxilində konsensus tam formalaşmamış mövqeləri qlobal səviyyədə səsləndirməsi bu etimadı zəiflədən amillər sırasındadır. Nəticədə görüşlərdən imtina, əslində, institusional narazılığın ifadəsi kimi dəyərləndirilə bilər. Şübhəsiz, vəziyyət Aİ-nin öz daxilində də suallar yaradır. Çünki ABŞ-la münasibətlərdə yaranan məsafə Brüsselin qlobal aktor kimi çəkisini zəiflədə bilər.

Bir məsələni də qeyd edək ki, Kallasın siyasi portreti bu kontekstdə xüsusi əhəmiyyətə malikdir. O, Avropa siyasətinə Baltik ölkələrinin təhlükəsizlik düşüncəsi ilə daxil olmuş fiqurdur və bu, onun ritorikasında açıq hiss olunur. Sərt mövqe, prinsipial dil və normativ çərçivələr Kallasın əsas alətləridir. Lakin bu yanaşma regional təhlükəsizlik baxımından anlaşılan olsa da, qlobal diplomatiyada həmişə effektiv olmur. ABŞ üçün əsas məsələ müxtəlif regional baxışları vahid strategiya çərçivəsində uzlaşdırmaqdır.

Çox güman ki, Vaşinqtonda Kallasla bağlı yaranan ehtiyatlı münasibət onun bəyanatlarının məzmunundan daha çox, onların nəticə doğurmaq potensialı ilə bağlıdır. Çünki ABŞ siyasi dairələrində Aİ-nin bəzi məsələlərdə mövqeyinin çox sərt, lakin praktik alətlər baxımından zəif olduğu qənaəti güclənir. Bu da dialoq tərəfdaşı seçimində təbii filtr rolunu oynayır. Ehtimal olunur ki, Rubio ilə görüşün baş tutmaması məhz bu filtrin işlədiyini göstərir.

Əslində, Rubio tərəfinin görüşün baş tutmamasını "qrafik uyğunsuzluğu" ilə izah etməsi klassik diplomatik etiket çərçivəsində normal sayılır. Beynəlxalq siyasi ünsiyyətdə bu cür formulalar münasibətləri açıq şəkildə zədələmədən məsafə saxlamağın, narazılığı söz əvəzinə davranışla ifadə etməyin ən yumşaq üsullarındandır.

Yaranmış ümumi mənzərə fonunda bir məqamı ayrıca qeyd etmək yerinə düşər. Kaya Kallas ötən il Azərbaycana rəsmi səfər etmişdi və bu səfər Aİ ilə ölkəmiz arasında münasibətlərin mövcud durumunu, eləcə də gələcək konturlarını müzakirə etmək baxımından diplomatik hadisə kimi qiymətləndirilmişdi. Səfər çərçivəsində Prezident İlham Əliyev ilə keçirilən görüşdə ikitərəfli əlaqələrin əsas istiqamətləri, regional təhlükəsizlik mühiti, enerji və nəqliyyat əməkdaşlığı, eləcə də Cənubi Qafqazda formalaşmış yeni siyasi reallıqlar ətrafında ətraflı fikir mübadiləsi aparılmışdı.

Azərbaycan tərəfi siyasi dialoq və regional məsələlər üzrə məsləhətləşmələrin əhəmiyyətini xüsusi önə çəkmiş, Kallas isə Aİ-nin Bakı ilə əməkdaşlığa strateji əhəmiyyət verdiyini və Azərbaycanın Aİ üçün etibarlı tərəfdaş kimi qəbul edildiyini bildirmişdi. Səfər, həmçinin bir çox müşahidəçilər tərəfindən ikitərəfli münasibətlərdəki müəyyən gərginliklərin yumşalması və dialoq kanallarının açıq saxlanılması kimi dəyərləndirilmişdi.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

Məsələyə daha geniş strateji böhran prizmasından yanaşmaq lazımdır. Çünki artıq Avropa İttifaqı və ümumilikdə Avropa institutları ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlər əvvəlki dövrlərdə olduğundan fərqlidir. Mövcud geosiyasi və iqtisadi böhranlar münasibətlərin strukturunda ciddi çatlar yaradıb və tərəflər arasında maraqların getdikcə açıq şəkildə toqquşmasına səbəb olur.

Xüsusilə ABŞ-ın son dövrlər qəbul etdiyi bir sıra qərarlar göstərir ki, Vaşinqton müttəfiqlərlə koordinasiyadan daha çox, milli maraqların önə çəkildiyi müstəqil və sərt siyasi xəttə üstünlük verir. Bu yanaşma Avropa paytaxtlarında narahatlıq doğurur və transatlantik münasibətlərdə fikir ayrılıqlarını dərinləşdirir. Məhz bu kontekstdə baş verən hadisələr daha çox strateji baxış fərqlərinin nəticəsi kimi qiymətləndirilməlidir. Digər tərəfdən, hesab edirəm ki, proses ABŞ-ın Avropa strukturlarına qarşı müəyyən təzyiq mexanizmlərindən istifadə etdiyini göstərir. Vaşinqton bu yolla həm qərarqəbuletmə proseslərinə təsir göstərməyə, həm də qarşı tərəfi öz siyasi və iqtisadi şərtlərinin qəbuluna sövq etməyə çalışır. Təzyiq elementləri açıq şəkildə ifadə olunmasa da, konkret addımlar və siyasi mesajlar vasitəsilə özünü büruzə verir. Bu səbəbdən mövzuya güc balansı və təsir mexanizmləri prizmasından da yanaşmaq zəruridir.

Aİ–Azərbaycan münasibətlərinə gəldikdə isə, burada tamamilə fərqli və müsbət mənzərə müşahidə olunur. Ölkəmizlə Avropa İttifaqı arasında uzun illər formalaşmış praqmatik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq mövcuddur. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri, regional sabitlik və iqtisadi əməkdaşlıq bu münasibətlərin əsas sütunlarını təşkil edir. Azərbaycan bu əlaqələrin dərinləşdirilməsində maraqlıdır və mövcud dialoq qarşılıqlı hörmət, real maraqlar üzərində qurulub. Eyni zamanda, Azərbaycan–Aİ münasibətlərini Transatlantik böhran kontekstinə salmaq düzgün olmaz. Çünki Bakı Brüssel ilə əlaqələrini müstəqil, balanslı və rasional xarici siyasət xətti əsasında formalaşdırır. Bununla yanaşı, Azərbaycan–ABŞ münasibətləri də müsbət və sabit inkişaf edir. Bu əlaqələr qarşılıqlı maraqların uzlaşdırılması, regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq prinsipləri üzərində qurulub. Azərbaycanın həm ABŞ, həm də Avropa İttifaqı ilə paralel və sağlam münasibətlər saxlaması ölkənin çoxşaxəli və çevik xarici siyasət strategiyasının göstəricisidir.

# Aİ nümayəndəsi XİN-də



**Yanvarın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının cari vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, nəqliyyat, enerji təhlükəsizliyi və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri, əməkdaşlıq platformaları və alətləri üzrə əldə edilmiş razılıqlar, habelə növbəti addımlar nəzərdən keçirilib.

Ceyhun Bayramov öz növbəsində Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə məlumat verib, ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

# İİB Qrupunun Bakı toplantısına hazırlıq

**Yanvarın 15-də Nazirlər Kabinetində "İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi" ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifov iclası açaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 sentyabr tarixli 711 nömrəli Sərəncamı ilə yaradılmış İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının təşkili ilə bağlı Təşkilat Komitəsinin qarşısında duran əsas vəzifələri qeyd edib, İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının iyunun 16-19-da Bakı şəhərində keçirilməsinin ölkəmizin beynəlxalq nüfuzu baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

İclasda İslam İnkişaf Bankı Qrupunun İllik Toplantısının təşkili üzrə görülmüş işlər və cari hazırlıq vəziyyəti, ilk növbədə, görüləli işlər, onların icra qrafiki və xüsusi diqqət tələb edən məsələlər, İllik Toplantıların keçirilməsinə dair Tədbirlər Planının layihəsi və gündəlikdə duran digər məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, 57 ölkənin üzv olduğu İslam İnkişaf Bankı 1973-cü ildə yaradılıb. Bankın baş qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşir. Azərbaycan Respublikası 1992-ci ildən Bankın üzvüdür.

# Su təchizatının strateji hədəfləri

**Yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş müşavirədə təqdim olunan "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı" ölkənin su təhlükəsizliyi və infrastruktur inkişafı sahəsində növbəti mərhələyə start verdi.**



Son 20 ildə Azərbaycanın enerji və infrastruktur sahələrində əldə etdiyi uğurlar bu proqramın əsas təməlini təşkil edir. Elektrik enerjisində generasiya gücünün artıq daxili tələbatdan çox olması və ixraca başlanılması, qazlaşmanın 96 faizə çatdırılması, avtomobil yollarının, körpülərin və tunellərin genişmiqyaslı inşası ölkənin uzunmüddətli infrastruktur strategiyasının uğurlu nəticələridir. Su sektoru da bu uğurların əsas prioritetlərindən biridir. Ötən 20 il ərzində inşa edilən dörd böyük su anbarı və "Ceyranbatan", "Taxtakörpü" kimi əsas obyektlərin yenidən qurulması şəhər və kənd əhalisinin dayanıqlı içməli su təminatını şərtləndirir.

Azad edilmiş ərazilərdə həyata keçirilən su layihələri, o cümlədən "Sərsəng", "Suqovuşan", "Köndələnçay" və "Zabuxçay" su anbarlarının bərpası Ermənistan tərəfindən əvvəllər həyata keçirilmiş su terroruna qarşı milli su təhlükəsizliyinin təmin olunması baxımından mühüm addımdır. Bu layihələr, eyni zamanda, kənd təsərrüfatının inkişafına və sənaye müəssisələrinin dayanıqlı su təchizatına xidmət edir.

Yeni Dövlət Proqramı su infrastrukturunun modernləşdirilməsini, 30-a yaxın yeni su anbarının inşasını, su sayğaclaşdırılmasının 100 faizə çatdırılmasını və itkilərin əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tutur. Proqram həmçinin yağış sularının idarə olunması üçün 30 küçədə yeni kollektor şəbəkəsinin qurulması, tullantı sularının tam təmizlənməsi və Xəzər dənizinin çirklənməsinin qarşısının alınması məqsədini daşıyır. İlk dəfə ölkədə duzsuzlaşdırma zavodunun tikilməsi Bakının və Abşeron yarımadasının su təchizatının daha dayanıqlı olmasına imkan yaradacaq.

Prezidentin də qeyd etdiyi kimi, Dövlət Proqramı həm dövlət büdcəsi, həm də xarici kreditlər hesabına maliyyələşdiriləcək ki, bu da həm Azərbaycanın maliyyə imkanlarının güclənməsini, həm də beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın artırılmasını təmin edəcək. Proqramın icrası zamanı ictimai nəzarətin təmin olunacağına dair məlumat da təqdirəlayiqdir. Bu, şəffaflığın təmini və vətəndaşların görülən işlərdən xəbərdar olması baxımından olduqca əhəmiyyətlidir.

Ümumilikdə, bu proqramın həyata keçirilməsi ölkədə su təhlükəsizliyinin möhkəmlənməsi, su itkilərinin azaldılması, içməli suyun və suvarma imkanlarının genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir və Azərbaycan infrastruktur siyasətində yeni dövrün başlanğıcını qoyur.

***Yusif BAĞIRZADƏ,***
***politoloq***

# Audiovizual mediada Azərbaycan dili



**Bakı Dövlət Universitetində "Audiovizual mediada Azərbaycan dilinin saflığının qorunması yeni çağırışlar müstəvisində" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Əvvəlcə ulu öndər Heydər Əliyevin Azərbaycan dilinin qorunması istiqamətində gördüyü işlər, verdiyi töhfələrlə bağlı videoçarx nümayiş etdirilib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxışında qeyd edib ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırlanan Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsdiq olunub: "Bu uğurlu və məqsədyönlü dil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir".

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, media subyektlərində çalışan əməkdaşlar tərəfindən dilin düzgün, səlis və ədəbi normalara uyğun tətbiqi vacib məsələlərdəndir: "Biz bu gün cəmiyyətin daha çox diqqət mərkəzində olan audiovizual mediada ədəbi dilimizin düzgün işlədilməsi məsələsini müzakirə edirik. Artıq Mətbuat Şurasında Dil Komissiyası yaradılıb".

Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov deyib ki, müasir media mühitində Azərbaycan dilinin saflığına təsir edən ən böyük problemlərdən biri xarici dillərdən heç bir ehtiyac olmadan dilimizə keçən və geniş şəkildə istifadə edilən sözlərdir. Bu cür halların qarşısının alınması məqsədilə Audiovizual Şura ötən ildən televiziya kanallarında xarici sözlərin istifadəsi ilə bağlı monitorinqlər aparır.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov qeyd edib ki, media cəmiyyətin güzgüsüdür. Dil normalarına riayət olunması, ədəbi dilin qorunması və düzgün təqdim edilməsi cəmiyyətə birbaşa təsir göstərir.

"REAL Təhlil və İnformasiya Mərkəzi" MMC-nin baş direktoru Mirşahin Ağayev qeyd edib ki, Azərbaycan dilinin qorunması məsələsinə hərtərəfli yanaşmaq lazımdır. Prezident İlham Əliyevin bu sahəyə münasibəti həyata keçirilən dövlət siyasətinin mahiyyətini aydın şəkildə göstərir.

Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli qeyd edib ki, dil, ilk növbədə, öz daxili imkanları hesabına inkişaf etdirilməli və zənginləşdirilməlidir. Kənar sözlərə ehtiyac minimuma endirilməlidir. Dilin daim inkişaf etdiyinə, yeni sözlərin yarandığına və dilə daxil olduğuna diqqət çəkən professor N.Məmmədli sonda əlavə edib ki, bu proseslərin fonunda normativ baza da mütəmadi olaraq təkmilləşdirilməlidir.

"ARB 24" telekanalının icraçı direktoru Radik İsmayılov isə bildirib ki, televiziya efirində rast gəlinən əsas problemlər daha çox tələffüz və vurğu ilə bağlıdır.

Sonda mövzu ilə əlaqədar müzakirələr aparılıb.

# İrəvanın "hibrid" narahatlığı

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Ermənistanın digər yüksək vəzifəli şəxsləri də ölkələrinin hibrid təhdidlərlə üzləşdiyini açıqlayıblar. Baş nazir Nikol Paşinyan 2025-ci il oktyabrın 30-da Paris Sülh Forumunda təhlükəsizlik mühitinin dəyişdiyini vurğulayaraq bildirmişdi ki, müasir dövrdə dövlətlər klassik müharibədən daha çox kompleks və çoxşaxəli təzyiqlərlə üzləşirlər. Onun sözlərinə görə, Ermənistan silahlı təhdidlərlə deyil, informasiya manipulyasiyaları, daxili sabitliyi sarsıtmağa yönəlmiş təsirlər və siyasi basqılarla qarşı-qarşıyadır. Paşinyan açıq şəkildə demişdi ki, təhlükəsizlik anlayışı artıq təkcə cəbhə xətti ilə məhdudlaşmır və hökumət bu reallığa uyğun siyasət qurmağa məcburdur.

Ermənistan Milli Assambleyasının sədri Alen Simonyan bir müddət öncə jurnalistlərin suallarını cavablandırarkən bildirmişdi ki, ölkə təkcə hərbi və siyasi deyil, informasiya və daxili sabitliyi hədəf alan təsirlərlə üzləşir. Onun sözlərinə görə, Ermənistan cəmiyyətində süni qarşıdurma yaratmağa, dövlət institutlarına inamsızlığı artırmağa yönəlmiş proseslər müşahidə olunur.

Simonyan bu kontekstdə açıq şəkildə qeyd etmişdi ki, Ermənistana qarşı aparılan mübarizə klassik müharibə formasında deyil, hibrid xarakter daşıyır.

Oxşar mövqe ölkənin xarici işlər naziri Ararat Mirzoyan tərəfindən də səsləndirilib. O, beynəlxalq platformalarda və xarici mediaya müsahibələrində Ermənistanın regionda artan qeyri-ənənəvi risklərlə üzləşdiyini bildirib. Mirzoyanın fikrincə, hibrid təhdidlər diplomatik təzyiq, dezinformasiya kampaniyaları və iqtisadi rıçaqlar vasitəsilə dövlətlərin qərarvermə prosesinə təsir göstərmək məqsədi daşıyır. O əlavə edib ki, Ermənistan bu kontekstdə beynəlxalq tərəfdaşlarla daha sıx əməkdaşlığa ehtiyac duyur.

*

Onu da bildirək ki, hibrid mübarizə anlayışı müasir beynəlxalq münasibətlərdə klassik hərbi qarşıdurmadan kənara çıxan, lakin dövlətlərin suverenliyinə və daxili sabitliyinə real təsir göstərən fəaliyyətlər toplusunu ifadə edir. Bu mübarizə forması hərbi təzyiqi informasiya müharibəsi, dezinformasiya kampaniyaları, siyasi manipulyasiya, iqtisadi rıçaqlar, daxili ictimai rəyə təsir və dövlət institutlarını zəiflətmə cəhdləri ilə tamamlayır. Əsas məqsəd bir ölkəni birbaşa müharibəyə cəlb etmədən onu daxildən idarəolunmaz vəziyyətə salmaq, cəmiyyət daxilində parçalanmanı dərinləşdirmək və qərarvermə mexanizmlərinə təsir göstərməkdir.

Ermənistan rəsmilərinin son dövrlər hibrid təhdidlər barədə səsləndirdiyi narahatlıqlar məhz bu kontekstdə formalaşır. Rəsmi İrəvan hesab edir ki, ölkə ətrafında dəyişən regional konfiqurasiya fonunda




Ermənistan artıq yalnız hərbi risklərlə deyil, daha mürəkkəb və görünməz təsir alətləri ilə üzləşir. Bu narahatlıqların arxasında duran əsas amillərdən biri isə daxili siyasi proseslərin, xüsusən də qarşıdan gələn parlament seçkilərinin həssaslığıdır. Qarşıdakı 5-6 ay ərzində Ermənistanda taleyüklü parlament seçkilərinin keçirilməsi gözlənilir və bu, hakimiyyət üçün ən zəif və riskli mərhələ hesab olunur. Seçki dövrləri istənilən ölkədə informasiya axınlarının sürətləndiyi, ictimai emosiyaların kəskinləşdiyi və xarici təsirlərə açıq olduğu zaman kəsiyidir.

İrəvanda səslənən açıqlamalardan aydın olur ki, əsas təhlükə mənbəyi kimi dolayısı ilə Rusiya nəzərdə tutulur. Ermənistan siyasi dairələrində Rusiyanın ölkə daxilində geniş informasiya və siyasi təsir imkanlarına malik olduğu, media, ekspert şəbəkələri və ictimai rəy üzərində təsir mexanizmlərinin mövcudluğu açıq şəkildə müzakirə olunur. Rusiya faktoru burada birbaşa ittihamdan daha çox potensial risk mənbəyi kimi təqdim edilir. İki ölkə arasında uzun illər formalaşmış dərin siyasi, hərbi, iqtisadi və humanitar əlaqələr Moskvanın Ermənistan cəmiyyətində ciddi təsir imkanları yaratmasına səbəb olub. Hakimiyyət isə seçki dövründə bu təsir alətlərinin aktivləşdirilə biləcəyindən, xüsusilə də antihökumət tədbirlərinin gücləndiriləcəyindən ehtiyatlanır. Bu baxımdan Rusiyanın adı rəsmi bəyanatlarda çəkilməsə də, hibrid təhdid anlayışının arxa planında məhz Rusiya faktoru dayanır.

Bununla yanaşı, Ermənistan hakimiyyəti balansı qorumağa çalışır. Rusiya hələ də Ermənistan üçün mühüm təhlükəsizlik və iqtisadi tərəfdaş olaraq qalır və açıq qarşıdurma İrəvanın maraqlarına cavab vermir. Bu səbəbdən hibrid mübarizə mövzusu daha çox ümumi təhlükəsizlik ritorikası çərçivəsində təqdim olunur, ünvan isə birbaşa göstərilmir. Lakin siyasi kontekst və zamanlama bu narahatlıqların məhz Rusiya ilə bağlı olduğunu dolayısı ilə ortaya qoyur. Nəticə etibarilə, Ermənistan rəsmilərinin hibrid mübarizə ilə bağlı narahatlıqları əsassız sayılmamalıdır. Seçki dövrünə daxil olan, daxili siyasi qütbləşməsi dərinləşən və xarici aktorlarla mürəkkəb münasibətlər yaşayan ölkə üçün bu risklər realdır. Digər tərəfdən, bu yanaşma tərzi hakimiyyət üçün həm də preventiv siyasi alət rolunu oynayır. Seçkilərin legitimliyini qorumaq, mümkün uğursuzluqları əvvəlcədən xarici müdaxilə ilə izah etmək və cəmiyyəti səfərbər etmək baxımından hibrid təhdid anlayışı İrəvan üçün əlverişli çərçivə yaradır.

***Səxavət HƏMİD***
***XQ***

### *Ekspert rəyi*



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

Ermənistan hakimiyyəti qarşıdakı parlament seçkiləri ərəfəsində cəmiyyət daxilində artan narazılığı və siyasi parçalanmanı hibrid müdaxilə təhlükəsi kimi təqdim edir. Bu yanaşma seçki prosesində yarana biləcək problemlərin əvvəlcədən xarici təsirlərlə əlaqələndirilməsinə xidmət edir. Seçkilərə müdaxilə ehtimalı istisna edilməsə də, əsas risk mənbəyinin xaricdən deyil, Ermənistanın öz daxilindəki institusional zəifliklərdən qaynaqlandığı daha real görünür.

Rusiya bu kontekstdə dolayısı ilə əsas ünvan kimi göstərilir. Doğrudur, Rusiyanın Ermənistan cəmiyyətində informasiya və siyasi təsir imkanları mövcuddur. Lakin bu təsir alətlərinin yeni deyil, uzun illərdir formalaşmış olması diqqətdən kənarda qalır. Əgər Rusiya faktoru doğrudan da hibrid təhlükə yaradırsa, bu, bugünkü vəziyyətin deyil, illərlə qurulan asılı münasibətlərin nəticəsidir. Seçki dövründə Rusiyanın Ermənistanın daxili siyasi proseslərinə birbaşa və həlledici müdaxilə edəcəyi ehtimalı şişirdilmiş görünür. Moskva üçün əsas prioritet İrəvanda proqnozlaşdırıla bilən və nəzarətdən çıxmayan siyasi mühitin qorunmasıdır. Bu baxımdan radikal müdaxilə deyil, mövcud balansın saxlanılması daha məntiqli strategiya kimi görünür.

# Prezident İlham Əliyevin sülhyaratma strategiyası və Qərbi Azərbaycana qayıdış konsepsiyası

**Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



**Müasir Azərbaycan dövlətçiliyinin inkişaf mərhələsini səciyyələndirən əsas cəhətlərdən biri Prezident İlham Əliyevin həyata keçirdiyi strateji sülhyaratma siyasəti, suverenlik konsepsiyası və tarixi ədalətin bərpasına yönəlmiş Qərbi Azərbaycana qayıdış ideyasıdır.**

Qərbi Azərbaycan məsələsi Azərbaycanın dövlətçilik gündəliyində məxmər transformasiya dövrünü yaşayır. "Qayıdış" anlayışı artıq yalnız tarixi yaddaşla bağlı, lokal siyasi məqsəd deyil, milli ideologiyanın strukturlaşdırıcı sütunu kimi çıxış edir. Bu ideya ötən illər ərzində tədricən emosional çağırış səviyyəsindən çıxaraq fəlsəfi cəhətdən əsaslandırılmış, hüquqi baxımdan legitimləşdirilmiş və siyasi baxımdan institusionallaşan konsepsiya xarakteri almışdır. Qərbi Azərbaycana qayıdış bu mənada Qarabağ məsələsinin alternativi deyil, onun tarixi və ideoloji davamıdır.

Prezident İlham Əliyevin müxtəlif illərdə, xüsusilə də 2025-ci il 3 noyabr tarixində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində səsləndirdiyi fikirlər bu konsepsiyanın dövlət səviyyəsində formalaşmış siyasi iradə olduğunu açıq şəkildə nümayiş etdirir.

## Qayıdış ideyasının tarixi-siyasi aspektləri

Tarixi mənbələr, arxiv sənədləri, toponimik materiallar və demoqrafik göstəricilər birmənalı şəkildə təsdiq edir ki, indiki Ermənistan ərazisi, yəni Qərbi Azərbaycan, əsrlər boyu azərbaycanlıların tarixi yaşayış məskəni olmuşdur. XX əsrdə dörd dəfə həyata keçirilmiş sistemli deportasiyalar nəticəsində azərbaycanlı əhali bu torpaqlardan zorla çıxarılmış, onların maddi və mənəvi irsi isə ya dağıdılmış, ya da mənimsənilmişdir. Bu baxımdan qayıdış ideyası hər hansı revanşist niyyət deyil, tarixi ədalətin bərpası tələbi kimi dəyərləndirilməlidir.

Qərbi Azərbaycana qayıdış ideyası birmənalı şəkildə tarixi ədalətin bərpası, hüquqi legitimlik və insanların ləyaqətli qayıdış hüququ prinsiplərinə əsaslanır. Son dövrlərdə bu məsələ yalnız ictimai diskursda deyil, həm də beynəlxalq hüquq müstəvisində qalıcı siyasi hədəf kimi qarşıya qoyulmuşdur.

Ötən illər ərzində Prezident İlham Əliyev özünün müəllifi olduğu Qayıdış konsepsiyasını dövlət siyasəti xətti kimi ifadə etmiş, beynəlxalq platformalarda təkrarlamış və elmi müzakirə səviyyəsinə çıxarmışdır.

Prezidentin sülhyaratma strategiyası qalib dövlətin məsuliyyətli davranış modeli kimi xarakterizə oluna bilər. Azərbaycan müharibədən sonra revanşizm deyil, beynəlxalq hüquqa əsaslanan sülh gündəliyi irəli sürmüşdür. Dövlət başçısı dəfələrlə vurğulamışdır ki, sülh yalnız Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam tanıması, eləcə də regionda süni geosiyasi qarşıdurma xətlərindən imtina edilməsi şərti ilə mümkündür.

Bu müstəvidə Prezidentin bir çox çıxışlarında əsas ideya-qayəvi xətt kimi keçən Qərbi Azərbaycan məsələsi bir inzibati-ərazi anlayışından çıxıb Azərbaycan xalqının kollektiv tarixi yaddaşı, torpaq, vətən, əcdadlarımızın nəşinin uyuduğu müqəddəs məkan mənasını ifadə edir. Belə bir praqmatik-rasional yanaşma Qərbi Azərbaycan məsələsini emosional ritorikadan çıxararaq günümüzün, xarici siyasətin prioritetlərində və xalqın iradəsində ifadə olunmuş gerçəklərinə kökləyir, beynəlxalq legitimlik müstəvisinə çıxararaq elmi-hüquqi diskursun predmetinə çevirir.

"Konstitusiya və Suverenlik İli" kimi tarixə düşən ötən ilin ideya-fəlsəfi leytmotivinə əsaslanaraq deyə bilərik ki, hüquqi dövlətçilik fəlsəfəsi çərçivəsində Qərbi Azərbaycan məsələsi məhz konstitusiya və suverenlik kontekstində təqdim olunur və bu, təkcə tarixi yaddaş problemi deyil, artıq həm də konstitusion hüquqların bərpası məsələsidir.

Prezidentin yanaşmasına görə, XX əsr boyunca azərbaycanlıların Qərbi Azərbaycandan kütləvi şəkildə köçürülməsi spontan proses deyil, ardıcıl və məqsədli deportasiya siyasətinin nəticəsi olmuşdur. Bu faktların vurğulanması Qərbi Azərbaycan məsələsini tarixi mübahisə deyil, kollektiv hüquqların pozulması problemi kimi təqdim etməyə imkan verir. Beləliklə, tarixi yaddaş hüquqi müstəviyə daşınır və elmi əsaslandırma üçün zəmin yaranır.

## Qərbi Azərbaycana qayıdışın fəlsəfi əsasları

Fəlsəfi baxımdan Qərbi Azərbaycana qayıdış ideyası məkanla insan arasındakı ontoloji əlaqənin bərpası kimi izah oluna bilər. Burada söhbət təkcə coğrafi ərazidən deyil, tarixi yaddaşın, mədəni izlərin və kollektiv kimliyin daşıyıcısı olan məkandan gedir.

Prezident İlham Əliyev bu məsələni çıxışlarında dəfələrlə vurğulayaraq qeyd etmişdir ki, Qərbi Azərbaycan anlayışı "tarixi faktlara, sənədlərə və xalqın yaddaşına əsaslanan obyektiv reallıqdır". Bu yanaşma qayıdışı romantik nostalgiya deyil, tarixi ontologiyanın bərpası kimi təqdim edir.

Qayıdış ideyasının fəlsəfi mərkəzində ləyaqət anlayışı dayanır. Ləyaqətli qayıdış zorakılığa deyil, hüquqa əsaslanır; revanşizmə deyil, ədalətə söykənir; emosional deyil, normativ düşüncə ilə ifadə olunur.

Prezident İlham Əliyevin çıxışlarında xüsusi vurğulanan əsas tezislərdən biri budur ki, "Azərbaycan xalqı öz haqqını sivil, beynəlxalq hüquqa uyğun yollarla tələb edir". Bu tezis Qərbi Azərbaycana qayıdışın əxlaqi üstünlüyünü və siyasi legitimliyini təmin edən əsas fəlsəfi dayaqlardan biridir.

## Qayıdışın hüquqi legitimliyi

Bu kontekstdə söhbət etnik və ya siyasi iddiadan deyil, universal insan hüquqlarının həyata keçirilməsindən gedir. Qayıdış hüququ beynəlxalq hüququn legitim aləti kimi çıxış edir və bu hüququn reallaşdırılması heç bir dövlət üçün təhlükə mənbəyi sayıla bilməz.

Azərbaycanlıların Qərbi Azərbaycana qayıdış hüququ beynəlxalq hüququn əsas sənədlərində açıq şəkildə təsbit olunmuşdur. İnsan Hüquqları Ümumdünya Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Qaçqınların Statusu haqqında Konvensiya və digər beynəlxalq aktlar hər bir şəxsin öz doğma yurduna qayıtmaq hüququnu tanıyır.

Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı BMT-yə ünvanlanan müraciətlər və sənədlər məsələnin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Bu sənədlərdə əsasən aşağıdakı hüquqi prinsiplərə istinad edilir: məcburi köçkünlərin təhlükəsiz və könüllü qayıdış hüququ; mülkiyyət və mədəni irs hüquqları; etnik təmizləmənin yolverilməzliyi.

Prezident İlham Əliyevin bu kontekstdə səsləndirdiyi əsas mövqe ondan ibarətdir ki, "Azərbaycan heç vaxt başqa xalqlara qarşı ərazi iddiası irəli sürmür, lakin öz xalqının pozulmuş hüquqlarının bərpasını tələb edir". Belə bir yanaşma Qərbi Azərbaycana qayıdışı beynəlxalq hüququn legitim subyekti kimi təqdim edir. Ölkə başçısının mövqeyi yalnız tarixi-faktoloji deyil, eyni zamanda, humanitar hüquq aspekti ilə bağlıdır. Prezident bir sıra çıxışlarında deportasiya olunmuş azərbaycanlıların qayıdış hüququnu beynəlxalq hüquqla əlaqələndirərək deyib ki, belə bir qayıdış hüququ İnsan Hüquqları Ümumdünya Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların Statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq sənədlərdə təsbit olunmuşdur. Bu sitat insan hüquqları çərçivəsində qayıdışın hüquqi legitimliyini təmin edir və məsələnin yalnız qarşılıqlı siyasi statusla məhdudlaşmadığını göstərir.

Digər tərəfdən, belə bir yanaşma Qərbi Azərbaycan problemini regional siyasi mübahisə çərçivəsindən çıxararaq, qlobal insan hüquqları diskursuna inteqrasiya edir. Prezidentin ritorikasında etnik ayrı-seçkiliyin yolverilməzliyi, mədəni və dini irsin qorunması, azərbaycanlıların tarixi-mədəni hüquqlarının tanınması əsas arqumentlər kimi çıxış edir.

## Qayıdışın elmi əsasları

Ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində Prezident İlham Əliyevin çıxışı Qərbi Azərbaycana qayıdış ideyasının akademik statusunun təsdiqi, eyni zamanda, bu taleyüklü məsələsinin elmi əsaslandırılması baxımından mühüm hadisə sayıla, həmçinin, strateji əhəmiyyətli sənəd kimi qiymətləndirilə bilər.

Prezident həmin çıxışında alimləri məsələnin faktoloji və metodoloji əsaslarını ortaya qoymağa və geniş ictimaiyyətə çatdırmağa çağırdı. Bu baxımdan çıxış ölkə elmi ictimaiyyətinin bu məsələdə aktiv rol oynamaq missiyası olduğunu ortaya qoydu.

Prezident Qərbi Azərbaycan məsələsinin tarixçilər və hüquqşünaslar tərəfindən sənədlərlə əsaslandırılmasının vacibliyini; emosional ritorikanın deyil, elmi faktların və hüquqi arqumentlərin önə çəkilməli olduğunu; bu mövzunun gələcək nəsillər üçün milli yaddaşın qorunması baxımından əhəmiyyətini xüsusi vurğulamış, elmi ictimaiyyəti tarixi saxtalaşdırmalara qarşı faktoloji və metodoloji əsaslarla çıxış etməyə, Qərbi Azərbaycanla bağlı araşdırmaları sistemli və multidissiplinar şəkildə aparmağa çağırmışdır.

**Dövlət başçısı bir neçə mühüm tezis irəli sürmüşdür:**

*1. Qərbi Azərbaycan məsələsi yalnız siyasi deyil, elmi əsaslandırılmış milli məsələdir;*

*2. Qərbi Azərbaycanla bağlı sistemli elmi-tədqiqat proqramlarının hazırlanması zəruridir;*

*3. Tarix, hüquq, etnoqrafiya, dilçilik və demoqrafiya, həmçinin mədəni irsin və tarixi yaddaşın bərpası sahəsində aparılan tədqiqatlar bu prosesin əsas dayağı olmalıdır;*

*4. Deportasiya faktları beynəlxalq hüquq normaları əsasında sənədləşdirilməlidir;*

*5. Elmi nəticələr beynəlxalq akademik platformalarda təqdim olunmalıdır;*

*6. Elmi ictimaiyyət tarixi saxtalaşdırmalara qarşı intellektual müqavimət mərkəzi rolunu oynamalıdır.*

Prezidentin akademik məsuliyyət anlayışını ön plana çəkən çıxışı, eyni zamanda, elm-tədris müəssisələrinə də açıq bir ismarıcdır: Qərbi Azərbaycan məsələsi dövlət siyasətinin tərkib hissəsidir və onun elmi əsaslandırılması milli vəzifədir!

Beləliklə, Qərbi Azərbaycan ideyası dövlət başçısının siyasi iradəsi ilə akademik bilik və elmi məsuliyyət zonasına daxil edilmişdir.

## BDU-da Qərbi Azərbaycan "beyin" mərkəzi

Qeyd etdiyimiz kimi, Qərbi Azərbaycana qayıdış ideyası müasir mərhələdə yalnız siyasi iradə deyil, eyni zamanda elmi əsaslandırma, akademik tədqiqatlar və beynəlxalq hüquqi arqumentlər tələb edir. Bu baxımdan ali təhsil müəssisələrinin və elmi institutların, xüsusilə də ölkə ali məktəblərinin bayraqdarı kimi Bakı Dövlət Universitetinin üzərinə mühüm intellektual və tarixi məsuliyyət düşür.

Bakı Dövlət Universiteti ölkənin unikal elm-təhsil ocağı kimi "Qayıdış konsepsiyası" ilə bağlı bütöv bir məsələlər, problemlər və vəzifələr kompleksinin həllinə ciddi töhfəsini verməkdədir. Universitetdə cəmlənmiş zəngin elmi-intellektual potensial və güclü tədris-tədqiqat kompleksi həmin nəticələrin kifayət qədər praktik və sanballı olacağının zəmanətini verir. Genişmiqyaslı tədbirlərə, fundamental tədqiqatlara start verilmişdir. Həmin fəaliyyətə davamlılıq xarakteri vermək, nəticələrini geniş ölkə ictimaiyyətinə və beynəlxalq birliyə çatdırmaq, tədqiqatların əhatəsini, fundamentallığını və tətbiqi-praktik əhəmiyyətini artırmaq məqsədilə, eləcə də bu məsələnin strateji və ümummilli məsələ olduğunu nəzərə alaraq maddi-texniki bazasını genişləndirilmək düşüncəsi ilə həmin fəaliyyətin vahid mərkəzdən koordinə edilməsi zərurəti yaranmışdı. Universitet rəhbərliyinin Qərbi Azərbaycanla bağlı problemləri ələ alacaq, tədqiq edəcək, ortaya faydalı bir iş qoyacaq işlək, mobil, intellektual strukturun yaradılması ilə bağlı qəti iradəsi Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin təsis edilməsi ilə nəticələnmişdir.

Mərkəz Azərbaycan Respublikasının milli maraqlarına, dövlət siyasətinin prioritetlərinə və elmi inkişaf strategiyasına uyğun fəaliyyət göstərən multidissiplinar elmi-tədqiqat strukturudur. Onun fəaliyyəti Qərbi Azərbaycana qayıdış ideyasının elmi əsaslandırılmasına, tarixi yaddaşın bərpasına, beynəlxalq hüquq müstəvisində legitim mövqelərin formalaşdırılmasına və akademik bilik istehsalına yönəlmişdir.

Universitetin ən müxtəlif elm sahələri və ixtisaslar üzrə güclü elmi kadr potensialına – professor-müəllim heyətinə malik olması, bu sahədə fəaliyyətin də universallığını təmin edir. Söhbət Qərbi Azərbaycanın tarixi, ədəbiyyatı, folkloru, dil məsələləri, mətbuatı, mədəni və ictimai-siyasi fikir tarixi, ərazilərinin arxeologiyası, etnoqrafiyası, coğrafiyası, təbii sərvətləri və s. məsələlərin geniş tədqiqata cəlb olunmasından gedir. Eləcə də qayıdış prosesi yeni bir tarixi reallıq və hüquqi presedent yaratdığı üçün beynəlxalq münasibət və mübahisələrin konstruktiv həlli çərçivəsində, həmçinin beynəlxalq hüququn prinsip və normalarına uyğun ləyaqətli şəkildə həyata keçirilməlidir. Səsləndirilən məsələlər üzrə konkret nəticəyə hesablanmış məhsuldar tədqiqatlar aparmaq üçün universitetin bir sıra fakültələrinin zəngin elmi-tədqiqat potensialı səfərbərliyə alınmışdır.

Düşünürük ki, Bakı Dövlət Universiteti Qərbi Azərbaycanla bağlı məsələlərin tədqiqində intellektual mərkəz rolunu oynaya biləcəkdir. Universitetin bu prosesə töhfəsi bir çox istiqamətdə reallaşdırılmaqdadır. Buraya multidissiplinar elmi layihələrin icrasını; beynəlxalq konfrans və simpoziumların təşkilini; Qərbi Azərbaycanla bağlı xüsusi kurs və proqramların tədrisini, tematik tədqiqat işlərinin aparılmasını və digər tədbirləri aid etmək mümkündür. Bu proses daha çox gələcəyə hədəfləndiyi üçün gənclərin bu işə fəal şəkildə səfərbər olunması, onlarda tarixi torpaqlarımızla bağlı təəssübkeşlik və vətəndaşlıq duyğularının tərbiyə edilməsi, Qərbi Azərbaycanın tarixi, folklor və ədəbiyyatı, ictimai-siyasi fikir tarixi, Qayıdış konsepsiyasından irəli gələn siyasi-hüquqi problemlərin həlli ilə bağlı magistratura və doktorantura səviyyəsində təhsil alanların elmi tədqiqat işlərinə cəlb edilməsi nəzərdə tutulur. Artıq universitetdə Qərbi Azərbaycanla bağlı müvafiq ixtisaslar üzrə magistr və fəlsəfə doktoru dissertasiyaları yerinə yetirilir.

## Sülh şəraitində Qərbi Azərbaycana qayıdış

Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdışla bağlı mövqeyi təsadüfi siyasi bəyanatlar toplusu deyil, ardıcıl, hüquqi əsaslandırılmış və elmi-strateji baxışa söykənən, tarixi, hüquqi, humanitar və sülhyönümlü milli dövlət konsepsiyasıdır. Dövlət başçısının müxtəlif tədbirlərdə səsləndirdiyi çıxışlardan sitatları bu yanaşmanın tarixi arqumentlə, beynəlxalq hüquqla və humanitar hüquq mexanizmləri ilə dəstəkləndiyini göstərir. Qərbi Azərbaycan məsələsi müasir Azərbaycan dövlət siyasətində də elmi-hüquqi və beynəlxalq legitimlik müstəvisində qurulan konsepsiya kimi çıxış edir. Bu konsepsiya tarixi ədalətin bərpasını, insan hüquqlarının müdafiəsini və regional sülhün möhkəmləndirilməsini bir-biri ilə uzlaşdırır.

Prezident İlham Əliyevin mövqeyində prinsipial xətt ondan ibarətdir ki, Qərbi Azərbaycana qayıdış məsələsi yalnız sülh yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll oluna bilər. Dövlət başçısı bu məsələni revanşizm və ya ərazi iddiası kimi təqdim etmir, əksinə, onu Ermənistanla davam edən sülh gündəliyinin ayrılmaz tərkib hissəsi kimi izah edir. O, Milli Elmlər Akademiyasındakı çıxışında açıq mətnlə bəyan etmişdir: "Buna görə də azərbaycanlıların indiki Ermənistan ərazisinə qayıdışı nə Ermənistan xalqını, nə də Ermənistan dövlətini qorxutmamalıdır... Biz tarixi torpaqlarımıza tanklarla deyil, avtomobillərlə qayıtmalıyıq".

Bu yanaşma Azərbaycanın beynəlxalq arenada hüquqa əsaslanan və məsuliyyətli aktor imicini möhkəmləndirir. Bu, güc siyasətinin deyil, hüquq və diplomatiya üzərində qurulmuş rasional yanaşmanın simvoludur. Belə bir mövqe Ermənistan cəmiyyətinə və dövlətinə yönəlmiş təhdid deyil, regionda davamlı sülhün təmininə xidmət edən konstruktiv çağırışdır.

Qərbi Azərbaycan mövzusu Prezidentin çıxışlarında regional sabitliyi pozan faktor deyil, uzunmüddətli sülhün və etimadın qurulmasına xidmət edən humanitar çağırış kimi təqdim olunur. Ölkənin Ali rəhbərliyinin bu mövzunu davamlı olaraq gündəmdə saxlaması, hüquqi mexanizmlərin yaradılması, tarixşünaslıq və humanitar sahədə elmi tədqiqatların genişləndirilməsi Azərbaycanın dövlətçilik strategiyasının ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir.

## Əsas vəzifələr və perspektivlər

**Qərbi Azərbaycana qayıdış prosesinin növbəti mərhələsi üçün bir neçə əsas istiqamət ön plana çıxır:**

*1. Elmi əsaslandırmanın dərinləşdirilməsi – monoqrafiyalar, arxiv tədqiqatları, xəritə və demoqrafik analizlər, tarix, hüquq, fəlsəfə və politologiya sahələrində sistemli tədqiqatlar;*

*2. Beynəlxalq hüquqi mexanizmlərin genişləndirilməsi – BMT, beynəlxalq məhkəmələr və insan hüquqları institutları çərçivəsində ardıcıl fəaliyyət;*

*3. İctimai diplomatiyanın gücləndirilməsi – qayıdışın sülhsevər, hüquqa əsaslanan xarakterinin beynəlxalq ictimaiyyətə çatdırılması;*

*4. Normativ diskursun qorunması – qayıdışın revanşist ritorikadan uzaq, ləyaqət, hüquq və sülh çərçivəsində təqdim olunması.*

Bütün bu və digər məsələlər Qərbi Azərbaycan İcmasının gündəlik fəaliyyətinin predmetini təşkil edir və uğurla da həllini tapır.

Beləliklə, Qərbi Azərbaycana qayıdış ideyası artıq Azərbaycan üçün, sadəcə, tarixi iddia deyil. Bu ideya fəlsəfi baxımdan tarixi varlığın bərpası, hüquqi baxımdan beynəlxalq normalara əsaslanan haqlı tələb, siyasi baxımdan milli ideologiyanın növbəti mərhələsidir.

Prezident İlham Əliyevin ardıcıl mövqeyi bu konsepsiyanı dövlət siyasətinin strateji və uzunmüddətli xətti kimi təsbit edir. Qarabağdan sonra Qərbi Azərbaycan məsələsi Azərbaycan xalqının tarixlə dialoqunun və gələcəyə suveren yürüşünün ideoloji ifadəsinə çevrilir.

***Xalid NİYAZOV,***
***Bakı Dövlət Universiteti Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin direktoru,***
***siyasi elmlər doktoru***

# Aqrar sığorta fermerləri ziyandan qoruyur

## Ötən 5 ildə ölkə üzrə 22,6 milyon manat zərər ödənişi həyata keçirilib

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan sərfəli aqrar sığorta mexanizmi fermerlərin zərərlərdən qorunmasında ciddi rol oynayır. Bunun nəticəsidir ki, ölkədə aqrar sığorta mexanizmindən faydalanan təsərrüfatların sayı və həyata keçirilən zərər ödənişləri sürətlə artmaqdadır. Elə 2025-ci ildə bu sahədə qeydə alınmış nəticələr də bunu deməyə əsas yaradır.**




Aqrar Sığorta Fondunun məlumatına əsasən, 2025-ci il ərzində müxtəlif hadisələr səbəbindən zərərlə üzləşən fermer və təsərrüfatlara, ümumilikdə, 9 milyon 147 min milyon manat sığorta ödənişi edilib. Bu da əvvəlki ilin ödənişləri ilə müqayisədə 44 faiz, 2023-cü illə müqayisədə isə 2,1 dəfə çoxdur. Aqrar Sığorta Fondu 2023-cü ildə 4,4 milyon manat, 2024-cü ildə isə 6,4 milyon manat sığorta ödənişi həyata keçirib. Ötən il isə əkin sahələrində baş vermiş hadisələr üzrə fermer və təsərrüfatlara 8,8 milyon manat sığorta ödəniş edilib. Bu, 2024-cü illə müqayisədə 70 faiz, 2023-cü ildəki ödənişlərə nisbətən isə 2,5 dəfə artıqdır.

Ümumilikdə, Aqrar Sığorta Fondu fəaliyyətə başladığı 2020-ci ildən indiyədək ölkə üzrə 22,6 milyon manat sığorta ödənişi aparıb. Müqayisə üçün qeyd edək ki, fond fermer və təsərrüfatlara 2021-ci ildə 200 min manat, 2022-ci ildə 2,4 milyon manat, 2023-cü ildə 4,4 milyon manat, 2024-cü ildə 6,4 milyon manat ödəniş həyata keçirib.

2025-ci ildə həyata keçirilən sığorta ödənişlərinin 8 milyon 753 min manatı bitkiçilik, 394 min manatı isə heyvandarlıq sığortasının payına düşüb. Yeri gəlmişkən, bu günlərdə ölkədə ən çox aqrar sığorta ödənişi edilən əkin sahələri açıqlanıb. Bildirilib ki, ötən il fond tərəfindən sığortalanan 41 bitki növündən 26-sı üzrə sığorta ödənişi həyata keçirilib.

Qurumdan verilən məlumata əsasən, ötən il buğda və arpa sahələri üzrə, ümumilikdə, 5 milyon 175 min manat sığorta ödənişi həyata keçirilib. Bu, 2024-cü illə müqayisədə 2 milyon manat və ya 63 faiz çoxdur. Pambıq sahələri üzrə ödənişlər isə 958 min manat təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 72 min manat və ya 8 faiz artıqdır. Taxıl bitkiləri və pambıqdan sonra ən çox aqrar sığorta ödənişləri şaftalı, qarğıdalı, badam, günəbaxan, tütün, alma, armud, üzüm və ərik bağları üzrə həyata keçirilib.

Xatırladaq ki, Azərbaycanda aqrar sığorta mexanizmi dövlət dəstəyi ilə həyata keçirilir. Fermerlərə dəstək üçün sığorta haqqının 50 faizini dövlət özü ödəyir. Nəticədə, fermerlər cüzi ödəniş etməklə əkin sahələrini sığortalayırlar. Aqrar sığorta əkin sahələrini, meyvə bağları və sair təsərrüfatları təbiət hadisələri, dolu, sel-subasma, fırtına-qasırğa, yanğın, şaxtavurma, leysan və sair risklərdən qoruyur.

Hazırda ölkə payızlıq taxıl zəminləri və meyvə bağlarının sığortalanması prosesi davam edir. Aqrar Sığorta Fondu fermer və təsərrüfat sahiblərini dövlətin dəstəyindən faydalanmağa və əkin sahələrini vaxtında sığortalamağa çağırır. Sığortalanma prosesini asanlaşdırmaq üçün isə fermerlərin sığorta ödənişini "AsanPay" sistemi vasitəsilə, mobil telefonla ödəməsi imkanı yaradılıb. Aqrar sığortanın əhatə etdiyi məhsullarının sığorta şərtləri və tarifləri ilə fondun rəsmi internet səhifəsində "Bitkiçilik məhsulları" bölməsində ətraflı tanış olmaq, sığorta haqqını isə "Bitkiçilik kalkulyatoru" vasitəsilə hesablamaq mümkündür.

Ölkədə tətbiq olunan aqrar sığorta mexanizmindən faydalanan sahələrdən biri də heyvandarlıq təsərrüfatlarıdır. Belə ki, aqrar sığorta vasitəsilə kənd təsərrüfatı heyvanlarını – iribuynuzlu südlük və ətlik mal-qaranı və xırdabuynuzlu heyvanları – qoyun və keçiləri sığortalamaq mümkündür. Bu zaman Aqrar Sığorta Fondu təbii fəlakət hadisələri, yoluxucu xəstəliklər, yemdən, otdan və kimyəvi maddələrdən zəhərlənmə, ilan və həşərat sancması, yanğın, vəhşi heyvanların hücumu, avtomobillə vurulma, daşınma zamanı qəza, oğurluq və sair hallara görə fermerlərə zərər ödənişi həyata keçirir. Təhlillər göstərir ki, son zamanlar heyvandarlıq sığortası üzrə ödənişlər əsasən yoluxucu xəstəliklər, yem və otdan zəhərlənmə, vəhşi heyvanların (ayı, canavar və sair) hücumu, ilan və ya həşərat sancması və sair hallarda qeydə alınır.

Dövlətin 50 faizlik sığorta haqqı dəstəyi sayəsində fermerlər öz heyvanlarını olduqca cüzi məbləğdə – sığorta haqqının yarısını ödəməklə sığortalaya bilərlər. Belə ki, hazırda iribuynuzlu heyvanların sığortası üzrə tariflər seçilmiş sığorta zərfindən asılı olaraq 4,89-7,80 faiz, xırdabuynuzlu heyvanlar üzrə tariflər isə 4,60-7,37 faiz arasında dəyişir. Nəticədə, qiyməti 1000 manat olan inəyi sığorta etmək fermerə cəmi 24-39 manata, 300 manatlıq qoyun və ya keçinin sığortası isə cəmi 7-11 manata başa gəlir.

Aqrar Sığorta Fondu tərəfindən son zamanlar heyvandarlıq sığortası üzrə ödənişlərdə də artım müşahidə olunur. Müqayisə üçün qeyd edək ki, heyvandarlıq təsərrüfatlarına 2021-ci ildə 118 min manat, 2022-ci ildə 671 min manat, 2023-cü ildə 910 min manat, 2024-cü ildə 1 milyon 172 min manat sığorta ödənişi edilib. Ümumilikdə isə, Aqrar Sığorta Fondu tərəfindən heyvandarlıq təsərrüfatlarında baş verən hadisələr və heyvan tələfatı ilə əlaqədar olaraq fermerlərə indiyədək, ümumilikdə, 3,2 milyon manat sığorta ödənişi həyata keçirilib.

Hadisə baş verdikdə 10 faiz azadolma tətbiq edilməklə fermerə aqrar sığorta ödənişi edilir. Qanunvericiliyə əsasən yalnız, rəsmi bəyan edilmiş və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatda olan heyvanlar sığortalana bilər. Sığortalanmaq üçün müraciət edilmiş təsərrüfata əvvəlcə müstəqil aqrar sığorta eksperti baxış keçirir, təsərrüfat və heyvanlar lazımi tələblərə cavab verdiyi halda, onlar aqrar sığorta təminatına alınır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qərb Sənaye Parkı Gəncə və Şəmkirə yeni texnologiya gətirəcək

**Ölkədə qeyri-neft sektorunun sürətli inkişafında mühüm rol oynayan sənaye parklarında innovasiya və yüksək texnoloji həllərin tətbiqi genişlənməkdədir. Dövlət tərəfindən reallaşdırılan təşviq mexanizmləri bu prosesə əlavə impuls verir. Mövcud vergi islahatları çərçivəsində sənaye parklarının rezidentləri müasir və hazır infrastrukturla dövlət dəstəyi əsasında təmin olunur.**

Bu gün ölkədə Sumqayıt, Pirallahı, Qaradağ, Ağdam, Mingəçevir, Hacıqabul, Naxçıvan sənaye parkları, eləcə də "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı fəaliyyət göstərir. Balaxanı sənaye parkları isə tullantıların təkrar emalı sahəsinə yönəlməklə ekoloji baxımdan fərqli və müasir sənaye yanaşmasını təcəssüm etdirir. Bu parklar Azərbaycanın istehsal potensialının genişləndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi və ixrac imkanlarının artırılması baxımından mühüm rol oynayır.

Dünən Prezident İlham Əliyev ölkədə sənayenin inkişafını daha da sürətləndirmək məqsədilə "Qərb Sənaye Parkının yaradılması haqqında" fərman imzalayıb. Gəncə şəhəri və Şəmkir rayonunun ərazisində yeni sənaye parkı fəaliyyət göstərəcək. Bu park sahibkarlara rəqabətqabiliyyətli məhsullar istehsal etmək və xidmət göstərmək üçün zəruri infrastruktur və idarəetmə mexanizmləri təmin edəcək. Burada müasir texnologiyaların tətbiqi ilə işlər səmərəli şəkildə qurulacaq və sahibkarların inkişafı üçün əlverişli şərait yaradılacaq.

Sənaye parkının təşkili, idarə olunması və inkişafı ilə bağlı bütün tədbirlər İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçiriləcək. Yeni sənaye zonasında xarici və daxili infrastruktur layihələndirilərək yaradılacaq. Bu işlərin həyata keçirilməsi üçün dövlət büdcəsində Prezidentin ehtiyat fondundan ilkin olaraq 500 min manat vəsait ayrılıb. Qərb Sənaye Parkı həm yerli, həm də xarici sahibkarlar üçün yeni investisiya imkanları açır və Azərbaycanın sənaye sektorunun gələcək inkişaf strategiyasının mühüm hissəsi kimi önə çıxır.

***Ekspert rəyi***



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Sənaye parkları həm yerli sahibkarlar, həm də xarici investorlar üçün cəlbedici iqtisadi platforma rolunu oynayır. Azərbaycan bu istiqamətdə kifayət qədər uğurlu təcrübə formalaşdırmış ölkələr sırasındadır. Məhz bu təcrübəyə əsaslanaraq sənaye parklarının yaradılması prosesi artıq işğaldan azad olunmuş əraziləri də əhatə edir.

Ağdamda və Cəbrayılda sənaye parklarının salınması istehsal fəaliyyətinin təşkili baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə Ağdam Sənaye Parkı Azərbaycan qeyri-neft ixracının genişlənməsinə real töhfə verən istehsal məkanı kimi formalaşır. Burada istehsal olunan məhsulların xarici bazarlara çıxarılması üçün əlverişli şərait yaradılır. Bu yanaşma Azərbaycanın sənaye məhəllələri və sənaye parkları üzrə formalaşdırdığı uğurlu praktikaya əsaslanır və qeyri-neft sektoruna investisiya cəlb olunması baxımından yeni imkanlar açır.

Eyni zamanda, sənaye parkları sahibkarlara dövlət tərəfindən daha sistemli dəstəyin göstərilməsinin effektiv mexanizmi kimi çıxış edir. Sahibkarlar bu ərazilərdə fəaliyyət göstərərkən vergi və gömrük güzəştlərindən yararlanır, hazır infrastrukturdan istifadə imkanı əldə edirlər. Bu amillər investisiya qoyuluşunu stimullaşdıran əsas təşviq elementlərindəndir.

Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı "Qərb Sənaye Parkının yaradılması haqqında" Fərman sənaye siyasətinin coğrafiyasının genişləndirilməsi baxımından mühüm addım hesab olunur. Sözügedən sənaye parkının yaradılması sahibkarlığın dəstəklənməsi siyasətinin daha da dərinləşdirildiyini göstərir. Parkın mövcud infrastrukturu yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün də maraqlı imkanlar vəd edir.

Qərb Sənaye Parkı yerli sahibkarlar üçün xüsusilə cəlbedici olacaq. Çünki burada vergi güzəştlərindən istifadə etməklə istehsal imkanlarını genişləndirmək, xərcləri azaltmaq və daha səmərəli istehsal prosesini qurmaq mümkündür. Ümumilikdə, sənaye parkları sənaye sektorunda istehsalın təşkili üçün optimal platforma rolunu oynayır və müxtəlif sahələr üzrə istehsalın qurulmasına şərait yaradır.

Təcrübə göstərir ki, sənaye parkları və sənaye məhəllələri iqtisadiyyatın müxtəlif sahələri üzrə səmərəli istehsalın təşkilinə imkan verir. Bu praktikanın yeni yaradılan Qərb Sənaye Parkında da davam etdirilməsi gözlənilir. Parkda əsasən sənayedə yüksək tələbat olan məhsulların istehsalına üstünlük veriləcəyi proqnozlaşdırılır. Sahibkarların təqdim etdiyi layihələr əsasında müxtəlif sənaye məhsullarının istehsalı burada həyata keçiriləcək.



Ümumiyyətlə, Azərbaycanda sənaye zonaları üzrə ümumi investisiya həcmi 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb. Bu müəssisələrdə 10 min 600-dən artıq daimi iş yeri yaradılıb. Sənaye zonalarında indiyədək 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun 5,2 milyard manatı ixracın payına düşür.

Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkı 613 hektar ərazini əhatə edir və kimya, neft-kimya, maşınqayırma, metallurgiya, tikinti materialları kimi sahələr üzrə fəaliyyət göstərir. Parkda sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin olunur, rezidentlər 10 il müddətinə əmlak, torpaq və gəlir vergilərindən, eləcə də avadanlıq idxalı zamanı ƏDV və gömrük rüsumlarından azad edilir. Parkda ümumi investisiya həcmi 6 milyard manatdan artıq olan 39 rezident qeydiyyata alınıb, onlardan 26-sı artıq fəaliyyət göstərir. Rezidentlər tərəfindən indiyədək 14 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun təxminən 5 milyard manatı ixrac edilib. 2025-ci ilin birinci rübündə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda parkda 6 mindən çox insan daimi işlə təmin olunub və məhsullar 70-dən artıq ölkəyə ixrac edilir.

Ağdam Sənaye Parkı isə rezidentlərin sayına görə ölkədə ikinci ən böyük parkdır. Burada Çin kapitallı lift istehsalı müəssisəsi kimi yeni zavodlar qurulur. Cəbrayılda yerləşən Araz Vadisi İqtisadi Zonası isə transformator istehsalı layihəsi ilə diqqət çəkir və parkın ümumi investisiya portfeli 150 milyon manata yaxınlaşır. Araz Vadisi İqtisadi Zonası Sənaye Parkı yeni rezidentlərlə inkişafını davam etdirir. Birləşmiş Ərəb Əmirliklərinin "SENSEMI DMCC" şirkətinin Azərbaycandakı nümayəndəliyi parkın rezident statusu alıb. Şirkət parkın 2 hektar ərazisində müasir avadanlıqlarla təchiz edilmiş transformator istehsalı müəssisəsi yaradacaq. Layihə çərçivəsində ildə 3 min transformator istehsal olunacaq və investisiya həcmi təxminən 17 milyon manat təşkil edir. Hazırda parkın investisiya portfeli 140 milyon manat səviyyəsindədir. Burada 18 sahibkar rezident, 4 sahibkar isə qeyri-rezident kimi fəaliyyət göstərir.

Qeyd edək ki, sözügedən zonalarda bərpaolunan enerjidən istifadə çərçivəsində də mühüm işlər görülür. Sənaye parklarının bərpaolunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı buna əyani misaldır. Buna əsasən, sənaye parklarının enerji tələbatı "Azərenerji" və "Azərişıq" ASC-lər tərəfindən təmin olunacaq, rezident və qeyri-rezidentlərin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün zəruri müqavilələr bağlanacaq.

Beləliklə, Azərbaycan sənaye parkları həm yerli, həm də xarici investisiyaları cəlb edərək qeyri-neft sektorunun inkişafına əhəmiyyətli töhfə verir və regionlarda yeni istehsal imkanları yaradır.

***Nurlan ABDALOV***
***XQ***

# Beynəlxalq maliyyə qurumlarının Orta Dəhlizə dəstəyi




**Dünya ticarətində formalaşan yeni reallıqlar nəqliyyat marşrutlarının əhəmiyyətini daha da artırır. Avropa ilə Asiyanı birləşdirən Orta Dəhliz bu prosesdə əsas marşrutlardan biri kimi ön plana çıxır. Orta Dəhliz 2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq qurumlarının təşəbbüsü ilə formalaşdırılıb.**

Sonrakı mərhələdə layihə genişlənərək yeni iştirakçıları cəlb edib və marşruta Ukrayna, Rumıniya, Polşa kimi Avropa ölkələri qoşulub. Çin–Qazaxıstan sərhədindən başlayan bu dəhliz Mərkəzi Asiya ərazisi və Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstandan keçir, daha sonra Türkiyə üzərindən Avropaya çıxır. Bu marşrut Şərqlə Qərb arasında yüklərin daşınması üçün ən qısa və əlverişli əsas nəqliyyat arteriyalarından biridir.

Qeyd edək ki, Orta Dəhlizin inkişafında Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Son illərdə reallaşdırılan nəqliyyat və logistika layihələri ölkəni regionun aparıcı tranzit mərkəzlərindən birinə çevirib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və yenilənən dəmir yolu infrastrukturu Orta Dəhlizin səmərəli işləməsi üçün möhkəm baza formalaşdırıb.

Yeri gəlmişkən, Orta Dəhliz çərçivəsində əməkdaşlıq 2026-cı ildə "Avrasiya Nəqliyyat Marşrutu" assosiasiyası vasitəsilə praktik nəticələr mərhələsinə keçə bilər. "Azərbaycan Dəmir Yolları" QSC sədrinin müşaviri Emil Məmmədovun açıqlamalarına görə, 2026-cı il bu marşrut üçün yeni dinamikanın başlanğıcı kimi qiymətləndirilir. Onun fikrincə, region artıq "vəhşi kapitalizm" mərhələsini geridə qoyub və qloballaşmanın tələb etdiyi koordinasiyalı fəaliyyət mərhələsinə daxil olub. Bu mərhələdə əsas diqqət nəqliyyat dəhlizlərinin inkişafına, ticarət həcmlərinin artırılmasına və marşrut boyunca biznes imkanlarının genişləndirilməsinə yönələcək.

Bundan əlavə, Çin artıq bir neçə ildir bu istiqamətdə daha fəal mövqe nümayiş etdirir, hazırda isə Avropa nəqliyyat tərəfdaşları tərəfindən də oxşar açıq yanaşma müşahidə olunur. Onlar proseslərdə sadəcə kənardan müşahidəçi olmaqdan çıxıb, dəhlizin inkişafında aktiv iştirak etmək istəyirlər.

Bu kontekstdə "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının yaradılması xüsusi əhəmiyyət daşıyır. 2024-cü ilin sentyabrında Bakıda Azərbaycan, Özbəkistan, Qırğızıstan və Tacikistanın milli dəmir yolu qurumlarının iştirakı ilə təsis edilən assosiasiyaya sədrlik Azərbaycana həvalə olunub. Assosiasiyanın əsas hədəfləri tranzit yüklərin cəlb edilməsi, inteqrasiya olunmuş logistika həllərinin tətbiqi, vahid texnoloji yanaşmanın formalaşdırılması və tarif siyasətinin optimallaşdırılmasıdır.

Ötən gün assosiasiyasının ilk işçi iclası keçirilib. İlk işçi iclasın keçirilməsi isə Orta Dəhlizin, xüsusilə cənub qolunun gücləndirilməsi istiqamətində praktik addım kimi dəyərləndirilir.

Qeyd edək ki, Orta Dəhlizin inkişafı yalnız regional təşəbbüslərdən ibarət deyil. Sözügedən marşruta beynəlxalq maliyyə institutlarının dəstəyi də getdikcə artır. Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi (MIGA), Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) və "Standard Chartered" bankının birgə maliyyələşdirməsi ilə Qazaxıstanın milli dəmir yolu operatoru "Kazakhstan Temir Zholy" SC-yə 300 milyon ABŞ dolları həcmində vəsait ayrılıb. Bu investisiya Almatı ətrafında 130 kilometrlik elektrikləşdirilmiş dəmir yolu dolama xəttinin inşasına yönəldilib.

Yeri gəlmişkən, layihənin həyata keçirilməsi nəticəsində Almatı ətrafında nəqliyyat sıxlığının 40 faizdən çox azalacağı, yüklərin çatdırılma müddətinin isə 24 saata qədər qısalacağı gözlənilir. Bu isə Orta Dəhliz boyunca dəmir yolu daşımalarının ötürücülük qabiliyyətini və etibarlılığını əhəmiyyətli dərəcədə artıracaq. Qazaxıstan tərəfinin açıqlamalarına görə, yeni dolama xətt regional logistikanın dayanıqlılığını gücləndirəcək və Orta Dəhlizin Asiya ilə Avropa arasında etibarlı körpü kimi mövqeyini möhkəmləndirəcək.

Bundan əlavə, statistik göstəricilər Orta Dəhlizə marağın sürətlə artdığını aydın şəkildə ortaya qoyur. 2024-cü ildə Trans-Xəzər marşrutu üzrə yük daşımalarının həcmi 62 faiz artaraq 4,5 milyon tona yüksəlib. Proqnozlara əsasən, 2027-ci ilə qədər Orta Dəhlizin illik ötürücülük imkanlarının 10 milyon tona çatacağı, 2030-cu il üçün isə bu göstəricinin 11,4 milyon ton səviyyəsində olacağı gözlənilir.

Həmçinin Qazaxıstanın "Kazmortransflot" şirkəti ("KazMunayGaz"ın törəmə qurumu) 2025-ci ildə Xəzər dənizi üzrə konteyner daşımalarını 15 faizdən çox artırıb. Belə ki, Aktau–Bakı–Aktau fider xətti ilə ötən il 59,4 min TEU həcmində konteyner daşınıb. Bu, 2024-cü ilin göstəricisi olan 51,4 min TEU ilə müqayisədə 15 faizdən artıq artım deməkdir. Müsbət dinamika Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalara tələbatın artması ilə izah olunur.

Sonda qeyd edək ki, bu artım Azərbaycanın tranzit potensialına da birbaşa təsir göstərir. Yüklərin əhəmiyyətli hissəsinin ölkə ərazisindən keçməsi yeni investisiyaların cəlb olunmasına, logistika infrastrukturunun daha da genişlənməsinə və regionda Azərbaycanın mövqeyinin güclənməsinə şərait yaradır.

***Musa BAĞIRLI***
***XQ***

# Ölkəmizdə qızıl hasilatı artıb

**Ölkəmizdə fəaliyyət göstərən qızıl, mis və gümüş istehsalçısı "Anglo Asian Mining" şirkəti ötən il hasilatı xeyli artırıb. Britaniya şirkəti 2025-ci ildə 25 min 61 unsiya qızıl istehsal edib ki, bu da əvvəlki illə müqayisədə 66 faiz çoxdur. Qeyd edək ki, qızıl istehsalı yenilənmiş proqnoz aralığının (25 min–28 min unsiya) aşağı həddinə uyğun formalaşıb.**

Bununla yanaşı, "Anglo Asian Mining" şirkəti il ərzində 7 min 915 ton mis hasil edib. Bu isə əvvəlki ilə nisbətən 21 dəfə çox olmaqla yanaşı, şirkətin tarixində ən yüksək illik mis istehsalı kimi qeydə alınıb. İstehsalın artması, əsasən, Gədəbəy mədənində hasilatın genişlənməsi, "Dəmirli" yatağının istehsala başlaması ilə əlaqələndirilir. Hesabat dövründə şirkətin gümüş hasilatının həcmi isə 153,332 min unsiya (5,4 dəfə çox) təşkil edib.

Şirkət ötən il dekabrın 31-nə 27,6 milyon ABŞ dolları məbləğində borc, 2,5 milyon ABŞ dolları xalis pul vəsaitinə malik olub. Hesabat dövrünə satılmamış qızıl-filiz ərintisi və mis konsentratı ehtiyatları 37,7 milyon dollar məbləğində olub. Bu ehtiyatlara hər tonu 12 min 504 dollar dəyərində olmaqla, tərkibində 2 min 457 ton mis olan konsentrat da daxildir.

Xatırladaq ki, "Anglo Asian" 1997-ci il avqustun 21-də imzalanmış hasilatın pay bölgüsü tipli müqavilə çərçivəsində ölkəmizdə 6 yatağın işlənməsi ilə fəaliyyətə başlayıb. Müqaviləyə əsasən, Azərbaycanın payı 51 faiz, "Anglo Asian Mining PLC" şirkətinin payı isə 49 faiz təşkil edir. Hazırda şirkət Azərbaycanda 8 müqavilə sahəsində fəaliyyət göstərmək hüququna malikdir. Onu da qeyd edək ki, "Anglo Asian" London Birjasında listinqdədir və ölkənin ən iri qeyri-neft sənaye ixracatçılarından biridir.

***XQ***

# Vergi ödəyicilərinin sayı çoxalıb

**2026-cı il yanvarın 1-nə Azərbaycanda vergi ödəyicilərinin sayı 1 milyon 674 min 984 olub. Bu da ötən il yanvarın 1-i ilə müqayisədə 4,9 faiz çoxdur.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, vergi ödəyicilərinin 86,8 faizi fiziki şəxslər, 13,2 faizi hüquqi şəxslər və digər təşkilatlardır. Son 1 ildə fərdi sahibkarların sayı 4,6 faiz, idarə, müəssisə və təşkilatların sayı isə 6,6 faiz artıb. Ötən il dekabrın sonuna qeydiyyatda olan kommersiya qurumlarının sayı da 1 il əvvələ nisbətən 7,2 faiz çox – 204 min 65 vahid təşkil edib.

2025-ci ildə 14 min 51 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların da 88,7 faizi yerli investisiyalı, 11,3 faizi isə xarici investisiyalıdır. Kommersiya qurumlarının 85,1 faizi elektron qaydada qeydiyyata alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 96,5 faiz təşkil edib.

Qurumun məlumatına görə, dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 92 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və s. formalarda yaradılıb.

***XQ***

# Tarixin qaynağı gerçəklər, məramı keçmişə işıq salmaqdır

*Samvel Meliksetyanın "Göyçə, yaxud Sevan: xəritələr İ.Əliyevin bəyanatı ilə bağlı nə deyir?" məqaləsinin qaranlıq məqamları*

**2025-ci il noyabr ayının 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley iclasında çıxış edərkən Azərbaycan xalqının tarixində yeni mərhələnin başlandığını və milli tarix, dilçilik və digər elm sahələri qarşısında mühüm problemlərin həlli məsələlərinin dayandığını söylədi. Dövlət başçısı nitqində dedi:**

"Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır... Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıblar. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. ".

Bu fikri məqalə müəllifinin özü də etiraf edir ki, Ermənistanda çox böyük səs-küyə və təşvişə səbəb olub və bu fikir Ermənistana qarşı ərazi iddiası kimi qiymətləndirilib. Ermənilərin Prezidentin fikrinə belə reaksiya vermələri təbiidir. İlk növbədə, ona görə ki, "Ermənistan Respublikası" adlanan dövlət Qərbi Azərbaycan torpağında bütün Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq, onun razılığı olmadan, heç bir hüquqi akt tətbiq edilmədən, yəni rəy sorğusu və ya referendum keçirilmədən Azərbaycan Xalq Cümhuriyyəti Müsəlman Milli Şurasının 44 nəfər üzvündən 20 nəfər üzvünün 1918-ci il 29 may tarixində Tiflis şəhərində keçirilən iki iclasında (Protokol №3, 4) müzakirə olunmuş və hüquqi prosesin pozulması ilə müşayiət edilərək Azərbaycan xalqının legitimlik hüququ kobud surətdə pozulmuş və siyasi cəhətdən yanlış qərar qəbul edilmişdir.

Əslində, Azərbaycan xalqı tərəfindən AXC MMŞ-yə belə səlahiyyət verilməmişdi və digər tərəfdən, belə bir ümummilli məsələ ilə bağlı istənilən iclasın keçirilməsi beynəlxalq hüquq baxımından qeyri-qanuni idi. Bu qərara əsasən, İrəvan şəhəri və onun ətrafında yerləşən 9 min kvadratkilometr ərazi Ermənistana yox, ermənilərə güzəşt edilmişdir. Erməni Milli Şurası 1918-ci il mayın 30-da I Dünya müharibəsi zamanı vətəndaşları olduqları Osmanlı Türkiyəsi dövlətinə xəyanət edərək qaçıb Gümrü şəhəri və onun ətrafına toplaşmış 450 mindən çox erməninin məskunlaşdığı ərazilərin idarəçiliyini öz üzərinə götürdüyünü elan etmişdi.

Doğrudur, Gümrü şəhəri Osmanlı Türkiyəsi Ordusunun nəzarətində 1918-ci ilin mayından həmin il dekabrın 1-dək qaldıqdan sonra 1918-ci il oktyabrın 30-da İngiltərə ilə imzalanan Mudros müqaviləsinə əsasən Cənubi Qafqaz ərazilərini tərk etmək məcburiyyətində qaldı. Osmanlı Türkiyəsi Ordusunun nəzarətində olan Gümrü şəhəri və onun ətrafında yerləşən 8 min kvadratkilometr Azərbaycan torpağı daşnak Ermənistanın nəzarətinə keçdi və çox böyük təəssüflər olsun ki, AXC hökuməti buna heç bir münasibət bildirmədi.

1918–1920-ci illər ərzində AXC hökumətinin bütün səylərinə baxmayaraq, o, beynəlxalq münasibətlərin subyekti kimi de-yure, yəni hüquqi cəhətdən tanınmadı. Bunun əsas səbəbi isə Bakı neftinə kimin sahib olacağı amili ilə bilavasitə bağlı idi. 1920-ci il aprelin 28-də Bakı neft sənayesində hökmran mövqeyə malik Avropa, ABŞ və Rusiya maliyyə maqnatlarının yardımı ilə Rusiyada 1917-ci ilin oktyabrında həyata keçirilən hərbi çevriliş nəticəsində hakimiyyəti ələ keçirən bolşeviklər Bakını işğal etdikdən sonra həmin ilin iyunundan daşnak Ermənistan hökuməti ilə gizli danışıqlara başladılar və onlara Sovet hakimiyyətini qəbul edəcəkləri halda keçmiş AXC ərazilərindən yaradılacaq Ermənistan SSR-in tərkibinə ərazilər verəcəklərini imzaladıqları məxfi müqavilə ilə təsdiq etdilər.

Qeyd etmək lazımdır ki, bolşeviklər tərəfindən daşnak Ermənistanına edilən "hədiyyə" burada Sovet hakimiyyəti qurulmamışdan bir ay əvvəl, yəni 1920-ci il oktyabrın 30-da Qərbi Azərbaycanın Dərələyəz mahalının ərazisinin verilməsi oldu. Qeyd etmək lazımdır ki, 1918–1920-ci illər ərzində ermənilərə edilən "güzəştlər" Azərbaycan xalqına çox baha başa gəldi. Belə ki, təkcə İrəvan quberniyası ərazisində 135 min, Zəngəzurda isə 10 068 azərbaycanlı əhali ermənilərin törətdikləri soyqırımı cinayətlərinin qurbanı oldu və müvafiq olaraq İrəvan quberniyası ərazisində 199, Zəngəzurda isə 115 kənd yer üzündən silindi.

Bütün bunları təsadüf saymaq olarmı? Xeyr! Çünki cənab Samvel Meliksetyan, bu cinayətlər Sovet Rusiyasının, Avropa və ABŞ-ın təcavüzkar dairələrinin hərbi-maliyyə yardımları ilə sizin babalarınız tərəfindən törədilmişdir. Hazırda əlimizdə bu dediklərimi təsdiq edən təkzibedilməz faktlar və sənədlər vardır.

Məsələnin maraqlı tərəfi odur ki, sizə edilən bu güzəştdən sonra Qərbi Azərbaycan ərazisində yerli Azərbaycan mənşəli toponimlərin, o cümlədən hidronim və oronimlərin erməniləşdirilməsi prosesinə başlanılmışdır. Əgər bu ərazilər ən qədim zamanlardan bu günədək sizə məxsus idisə, onda nə üçün 1918-ci ilin II yarısından başlayaraq bu günədək bu əraziyə Azərbaycan xalqının verdiyi adları, toponimləri, hidronim və oronimləri kütləvi surətdə dəyişdirdiniz?






**Jelixovskaya, V. P.**
Qafqaz və Zaqafqaziya. Qafqazın xəritəsi ilə.
Sankt-Peterburq: [M. A. Xanın tipoqrafiyası], 1885.




**Qafqazın etnoloji xəritəsi,**
cənab Zeydliç, Komarov, fon Erkert, Şantr və Ernest Şantrın elmi işləri əsasında tərtib edilmişdir.
Fransa, Lion – 1887.

1935-ci ildən 1991-ci ilədək Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin və 1992-ci ildən bu günədək isə Ermənistan Respublikası Milli Məclisinin qərarları ilə 717 Azərbaycan mənşəli toponim dəyişdirilmişdir. Bu, ən qədim zamanlardan Göyçə adını daşıyan məşhur gölə də şamil edilmişdir. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley iclasında çıxış edərkən: "Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir, hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir", – demişdir.

Cənab Meliksetyan, hörmətli Prezident real tarixi həqiqəti söyləyib, sizi təlaşa salan səbəb nədir? Açıq deyirəm, Sizi və sizin himayədarlarınızı təlaşa salan və qorxudan tarixi həqiqətin üzə çıxması və ədalətin zəfər çalmasıdır. Yuxarıda qeyd etdiyim kimi, Siz və sizi himayə edənlər də bilirsiniz ki, son 200 il ərzində burada sizin və onların Azərbaycan xalqına qarşı törətdiyiniz kompleks cinayətlər nəticəsində bu ərazinin nəinki etnik mənzərəsi, onun tarixi, milli-mədəni irsi barbarcasına tamamilə məhv edilmişdir. İrəvan şəhərində yeganə yarımçıq dağıdılmış şəkildə qalan Göy məscidi isə fars məscidi adlandırıb İİR-in səfirliyinə 99 illiyə icarəyə vermisiniz. Farsların İrəvan şəhərinə və onun dini abidələrinə nə aidiyyəti var? Sizin saxtalaşdırdığınız digər abidə isə 1411-ci ildə vəfat edən Çuxur-Səəd əmiri Əmir Səədin oğlu – İrəvan şəhərindən 7 km məsafədə cənubda yerləşən Cəfərabad (1946-cı ildə kəndin adını dəyişdirib Arqavan adlandırıblar) kəndində oğlu Pir Hüseyn tərəfindən ucaldılan məqbərədir. Bu abidəni isə türkmən abidəsi kimi dünyaya təqdim etmisiniz. Göyçə gölünün adına gəldikdə isə ən qədim zamanlardan bu içməli su hövzəsi yerli-avtoxton Azərbaycan əhalisinin adını daşıyıb. Qafqazın 5 verstlik xəritəsində Gökçə (Qokça) gölü kimi göstərilir. Göyçə gölünün adı "Kitabi-Dədə Qorqud" dastanında aydın şəkildə çəkilir: "Ondan Şərükun ucundan Göyçə dənizə təkin el çarpdı". Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud"un müxtəlif illərdəki nəşrində Göyçə gölünün adı Göyçə dəniz, Gökcə dəniz, Gökcə dəngiz (Gögçe Denqiz) formalarında qeyd edilmişdir. Göyçə gölünün adı həm də VII əsr mənbəyi olan Moisey Kalankatuklunun "Albaniya tarixi" əsərində yer almışdır.

Əmir Teymurun 1385-ci ildən başlayaraq Azərbaycana yürüşlərindən bəhs edən Şərəfəddin Əli Yəzdinin, XV əsr Azərbaycan Ağqoyunlu sülaləsinin tarixinə həsr edilmiş "Kitabi-Diyarbəkriyyə" əsərində Göyçə gölünün adı "Gökcə Tengiz" kimi əks olunmuşdur. Cənab Prezident İlham Əliyevin Göyçə gölü ilə bağlı Rusiya imperiyası hərbçi kartoqrafları tərəfindən tərtib edilməsi faktına diqqət çəkməsi təsadüfi xarakter daşımır. Belə ki, Şimali Azərbaycanın işğalına qədər və işğaldan sonrakı müxtəlif dövrlərdə hərbçi topoqraf və kartoqrafların ərazinin hərbi-topoqrafik təsvirini verərkən bütün toponimlər, hidronim və oronimlər olduğu kimi tərtib edilən xəritə və əsərlərdə qeydə alınmışdır.

Məşhur gürcü şairi Aleksandr Çavçavadze 1828–1830-cu illərdə "Erməni vilayəti"nin başçısı işləyərkən Göyçə gölü ətrafında ermənilər tərəfindən cinayət hadisələrinin şahidi olmuş; 1817–1864-cü illərdə Qafqazı işğal etmək üçün aparılan müharibələr nəticəsində gölün ətrafında yaşayan yerli azərbaycanlı əhali doğma yurdlarından qovulmuş, kəndlər boşalmış, sahibsiz qalmışdır. Aleksandr Çavçavadzenin 1841-ci ildə yazdığı "Göyçə gölü" şeirində Göyçədə, Göyçə gölünün sahillərində kəndlərin dağıldığı, xarabalığa çevrildiyi, abidələrin yerlə-yeksan edildiyi ürək yanğısı ilə təsvir olunur. Şairin "Göyçə gölü" şeiri Azərbaycan dilinə tərcümə edilərək 1988-ci ildə nəşr edilən "Kür Xəzərə qovuşur" kitabında çap olunub.

Qeyd etmək lazımdır ki, XIX əsrdən XX əsrin əvvəlinədək Rusiya imperiya ordusu kartoqraf və topoqrafçıları tərəfindən çoxsaylı xəritələr tərtib olunmuşdur ki, bunların da tam əksəriyyətində bütün toponimlər, hidronimlər və oronimlər olduğu kimi yazılmışdır. Dediyimiz fikri təsdiq etmək üçün aşağıda XIX əsrin II yarısı – XX əsrin əvvəlində çar Rusiyası və bütün ermənilərin "böyük bacısı" Fransada Cənubi Qafqaza aid nəşr olunmuş topoqrafik və etnoqrafik xəritələrdə Göyçə gölünün adı olduğu kimi yazılmışdır. Hərçənd ki, fransızlar 1779-cu ildə çap etdikləri xəritədə Göyçə gölünün adını fransız dilində "Gheuk-sha" və ya "Eau Bleue", yəni "Mavi dəniz" kimi yazsalar da, müəllif onu qəsdən Sevan adı ilə verir. Cənab Meliksetyan, "Sevan" sözü fars dilində "üç məkan" mənasını verir, siz gölün şimal-qərbində yerləşən üç monastıra verilən adı səhv salmısınız, çünki onların da siz ermənilərə heç bir aidiyyəti yoxdur.

Burada bir vacib məqamı da qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, çar Rusiyasının hərbi mütəxəssisləri, o cümlədən kartoqraf və topoqrafları Cənubi Qafqaz regionunu və xüsusilə də Şimali Azərbaycan ərazisini həmişə diqqət mərkəzində saxlamışlar. Bu məsələyə dair onlar tərəfindən çoxsaylı müxtəlif təyinatlı xəritələr çəkilmiş, hərbi-coğrafi əsərlər yazılmışdır. Belə mütəxəssislərdən biri çar Rusiyası Baş Qərargahının kapitanı L.K.Artamonovun 1890-cı ildə Tiflisdə nəşr etdirdiyi "Şimali Azərbaycan. Hərbi-coğrafi oçerk" əsəridir.

Bu əsər Cənubi Azərbaycanın hərbi-coğrafi təsvirinə həsr olunub. Bu əsərin 9-cu səhifəsində "Hidroqrafik oçerk" paraqrafının "Urmiya gölü" hissəsində belə bir cümlə yazıb: "Bu göl həm sahəsinə və həm də meridianına görə bizim Göyçə gölündən iki dəfə üstündür".

Cənab Meliksetyan, baş qərargahın kapitanı L.K.Artamonov bu əsərində "Sevan gölü" yox, "Göyçə gölü" adını yazır. Ona görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley iclasında çıxış edərkən Göyçə gölü ilə bağlı real tarixi həqiqəti söyləmişdir. Bu fikrin tarixi əsası faktlar və sənədlərlə təsdiq olunur. Ona görə də cənab Prezident İlham Əliyevin bir Azərbaycan Respublikasının vətəndaşı, bir professional tarixçi alim və müstəqil Azərbaycan dövlətinin başçısı kimi belə tarixi məsələlərə müdaxilə etməyə və münasibət bildirməyə haqqı vardır!

***Cəbi BƏHRAMOV,***
***AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, fəlsəfə doktoru, dosent***




**1903-cü il Qafqaz diyarının xəritəsi**
Qafqaz Hərbi Dairəsinin Hərbi-topoqrafik şöbəsi, 1914.
**Təsvir:**
Qafqaz diyarının 40 verst miqyasında (rəngli) xəritəsi.
A. A. Elzenqer və N. P. Stelmaşçukun redaktəsi ilə.
Tiflis:
İmperator Ali-Həzrətlərinin Qafqazdakı Canişininin Dəftərxanasının mətbəəsi, 1914.




**Mənbə:**
Fransa Milli Kitabxanası, Xəritələr və Planlar Bölməsi
(GE SH 19 PF 1 QUATER DIV 18 P 1 D)
**İllər:** 1863–1873

# Prezidentin ana dili dərsləri

**Azərbaycanda 28 aprel çevrilişindən sonra sovet hakimiyyəti tərəfindən ruslaşdırma siyasəti aparıldığı üçün xüsusilə Bakı şəhərində rusdilli məktəblərin artması, Azərbaycan əhalisinin totalitar rejimin “müvafiq qanunları” əsasında əhalinin Moskvadan gətirilən rusdilli qəzet-jurnallara abunə olunması, bütün iş yerlərində sənədlərin rus dilində tərtib edilməsi, ərizələrin bu dildə yazılması, iclasların yalnız onların dilində keçirilməsi, afişaların, elanların imperiya dilində vurulması, təbii ki, ruslaşdırma prosesini gücləndirir, bununla da xalqın milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin üstündən xətt çəkilirdi. Kommunist ideologiyasının tələbləri əsasında aparılan bu proses nəticəsində Azərbaycan xalqı gerçək tarixini, soykökünün kimliyini az qala unudur, sovet üsuli-idarəsinin sərt tələbləri ilə milli mənliyini zaman-zaman itirirdi.**

1969-cu ildə Azərbaycana rəhbər gələn Heydər Əliyev xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, milli mənliyini özünə qaytarmaq üçün əlindən gələni etdi və sosializm ideologiyasının sərt tələbləri altında yüksək intellekti, dərin zəkası, fitri istedadı ilə bacardığı qədər xalqın saxtalaşdırılan tarixini yenidən vərəqləyib ən vacib səhifələri üzə çıxardı və ana dilinə dövlət statusu verilməsi üçün mübarizə aparmağa başladı. Nəhayət, 1978-ci ildə Azərbaycan SSR Ali Sovetinin VII sessiyasında ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti sayəsində Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir təklif olundu: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. Nəticədə, bu məsələ Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Bununla da Azərbaycan dili dövlət dili statusunu aldı.

Bu isə, öz növbəsində, Azərbaycan xalqının mənliyinin, milli-mənəvi dəyərlərinin, milli mədəniyyətinin, milli təfəkkürünün, milli mövcudluğunun, adət-ənənələrinin əks-sədası idi. Çünki dil xalqın milli mənliyini ifadə edir. Təbii ki, öz dilini mükəmməl bilməyən insan bir çox şeydən, ən əsası, xalqın milli təfəkküründən xəbərsiz olur.

Bu da günəşin başımızın üstündə şölə saçdığı kimi aydındır ki, ədiblərimiz dilə millətin ruhu, kimliyi, mədəniyyəti kimi yanaşıb, onu qorumağı, zənginləşdirməyi özlərinə borc biliblər. Nəsimi, Füzuli, Vaqif, Əhməd Cavad, Cəfər Cabbarlı kimi dahi şəxsiyyətlər dilimizin gözəlliyini, gücünü yaradıcılıqlarında əks etdirərək, dilimizin ədəbi norma və standartlarının formalaşmasına, zənginləşməsinə böyük töhfələr vermişlər. Onlar dilin sadəcə ünsiyyət vasitəsi deyil, eyni zamanda, fikrin, ideyanın, milli kimliyin daşıyıcısı olduğunu vurğulamışlar.

Klassiklərimizin yaradıcılığını dərindən bilən, onların bəşəri ideyalarla zəngin olan cahanşümul əsərlərini, doğma dilin saflığını qorumaq üçün yaratdıqları sanballı və dəyərli əsərləri gözəl dərk edən ümummilli liderimiz Heydər Əliyevin bu qətiyyətli addımı Azərbaycan xalqını başqa dillərin təsirinə düşməkdən, öz milli-mənəvi dəyərlərini qoyub başqa xalqların dəyərlərini daşımaqdan xilas etdi.

Bütün bunlar bilavasitə Azərbaycanda yaşayan azərbaycanlılar tərəfindən həyata keçirilməyə başlandı, daha doğrusu, Azərbaycanda yaşayan azərbaycanlılar əcnəbi dilin təzyiqindən xilas oldular, doğma dildən azad və sərbəst şəkildə istifadə edildi. Sənədlər Azərbaycan dilində tərtib olundu, iclaslar doğma dildə keçirildi, afişalar ana dilində yazıldı, verilişlər dilimizdə yayımlandı. Milyon tirajlarla Azərbaycan dilində kitablar nəşr olundu, çox sayda dərsliklər hazırlandı. Eyni zamanda, dünya, Avropa, rus klassiklərinin əsərləri Azərbaycan dilinə tərcümə edilib, xalqın ixtiyarına verildi.

Lakin yerli-yersiz doğma dilimizə daxil olan yad sözlərin işlədilməsi də dilimizin saflığında müəyyən problemlər yaradırdı ki, bu da öz növbəsində Heydər Əliyevin ənənələrini layiqincə davam etdirən Prezident İlham Əliyevi narahat edən məsələlərdən biri idi. Dilimizin saflığına, təmizliyinə daim xüsusi əhəmiyyət verən Prezidentimiz 3 noyabr 2025-ci ildə AMEA-nın 80 illik yubileyindəki tarixi çıxışında bu mövqeni dəqiq şəkildə ifadə edərək bildirib ki, beynəlxalq leksikonun mövcudluğu danılmaz faktdır və bütün xalqlar bu leksikondan istifadə edirlər. Lakin Azərbaycan dilində əzəli və adekvat qarşılığı olan sözlərin başqa dillərdən alınan sözlərlə əvəzlənməsi nə elmi, nə də funksional baxımdan əsaslandırıla bilər. Bu cür yanaşma ya dilçilik baxımından yanlış, ya da məqsədli şəkildə aparılan destruktiv müdaxilə kimi dəyərləndirilə bilər.

Prezident İlham Əliyev Azərbaycan dilinin saflığını, təmizliyini qorumaqdan ötrü islahatlar aparmağın zəruriliyini önə çəkmiş, bu işlə məşğul olmağın xalq qarşısında müqəddəs bir vəzifə olduğunu xüsusi vurğulamışdır.

Dövlət başçısı dilin insanları birləşdirdiyini qeyd edərək, doğma dilin bayraqla, himnlə, gerblə birlikdə əsas atributlardan biri olduğunu diqqətə çatdırmışdır. Prezidentimiz, eyni zamanda, Azərbaycanın əsrlər boyu yadellilər tərəfindən işğal olunaraq müstəmləkəyə çevrildiyini yada salmış, lakin buna baxmayaraq, müstəqillik tariximizin də zəngin olduğunu söyləmişdir. Lakin başqa imperiyaların, dövlətlərin tərkibində olmağımızın istər-istəməz, xalqımızın psixologiyasında müəyyən təsir buraxdığını və bu psixoloji fəsadların indi də özünü göstərdiyini demiş və bunun nəsillərin dəyişməsi, yaxud başqa amillərlə bağlı olduğunu vurğulamışdır.

Prezident bütün bunlarla yanaşı, millətin bir millət kimi xarakterizə edən əsas amilin dil olduğunu ön plana çəkmişdir: “Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik”.

Prezident qürurla Azərbaycan xalqının böyük xalq olduğunu xüsusi qeyd edərək, dünyada 50 milyondan çox azərbaycanlının yaşadığını yada salmış, Azərbaycan dilinin heç bir dilin kölgəsində qalmadığını, orijinallığını, zənginliyini bəyan edərək bu dildə istənilən ifadəni söyləməyin, istənilən şeirin yazılmasının çətinlik çəkmədən mümkünlüyünü göz önünə gətirmişdir: “Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da, çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq?”.

Prezident İlham Əliyev tək rəhbərlik etdiyi on milyonluq Azərbaycanın deyil, xaricdə yaşayan hər bir azərbaycanlının dərdinə şərik olan, xoşbəxtliyini, eyni zamanda, adət-ənənələrə malik olmasını istəyən bir lider kimi öz çıxışlarında xaricdə yaşayan azərbaycanlıların doğma dili yaxşı mənimsəməsi üçün vacib tədbirlər görüldüyünü də qeyd etmiş, Azərbaycan dilinin zənginliyini ön plana çəkərək dünyanın müxtəlif bölgələrində yaşayan 50 milyon soydaşımızın ana dili statusuna malik olduğunu bəyan etmişdir: “Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var”.

Azərbaycan Prezidenti xarici ölkələrdə Azərbaycan məktəblərinin olmadığını və bunun ədalətsizlik olduğunu yada salmış, bu ədalətsizliyə son qoymaq üçün artıq bir çox tədbirlər görüldüyünü və göstərişi ilə onlayn məktəblər açıldığını, zaman-zaman bu məktəblərin əhatə dairəsinin çoxalacağını söyləyərək, azərbaycanlıların yaşadıqları bütün bölgələrdə Azərbaycandilli məktəblərin olmasının vacibliyini qeyd etmişdir. Prezident, eyni zamanda, ən böyük arzularından birinin xaricdə yaşayan azərbaycanlıların Azərbaycan dilində bizim kimi danışması olduğunu diqqətə çatdırmışdır.

Prezident bir sıra jurnalistlərin xalq qarşısında çıxış edərkən xarici kəlmələrdən istifadə etdiyini də təəssüflə xatırlamış, Azərbaycan ziyalılarının, yazıçılarının, şairlərinin də bu işə biganə qalmamalarını tövsiyə etmiş, onların sözünə böyük ehtiyac olduğunu söyləmişdir: “Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da aşıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da, çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq”.

Əminik ki, Prezidentin doğma dilimiz haqqında qətiyyətli və mükəmməl çıxışı bütün ziyalılar və vətənsevərlər arasında xüsusi bir canlanmaya səbəb olacaq və bu da öz növbəsində həm indiki, həm də gələcək nəsillərin, eyni zamanda, xarici ölkələrdə yaşayan soydaşlarımızın doğma dilimizi hər şeydən vacib hesab etmələrindən ötrü zəmin yaradacaqdır.

*Vüq ƏHMƏD,*
***AMEA Ədəbiyyat İnstitutu mətbuat tarixi və publisistika şöbəsinin müdiri, professor***




# Milli varlığımızın mənəvi Vətəni – Azərbaycan dili

**“Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”. Bu müdrik sözlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, Vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, xüsusi qayğı göstərib.**

Mübaliğəsiz deyə bilərik ki, Azərbaycan dilinin son əsrin 30 ildəki inkişafı öncə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illərin, təxminən, üçdəiki hissəsi Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə düşür. Ulu öndərin Azərbaycan dili və ümumiyyətlə, dil siyasəti, əsasən üç prinsip üzərində qurulmuşdur: demokratiklik, dəqiqlik və uzaqgörənlik, obyektivlik. Bundan başqa, Ulu öndərin dil siyasəti iki istiqamətdə özünü qabarıq şəkildə göstərir. Birincisi, milli dil sahəsindəki siyasət ilk gündən ana dilinin inkişafı, dövlət dili səviyyəsinə yüksəlməsi, dünya meridianlarına çıxması ideyaları ilə bağlı olmuşdur. İkincisi, Heydər Əliyevin başqa dillərə münasibətdə yürütdüyü dil siyasəti öz demokratikliyi, uzaqgörənliyi və obyektivliyi ilə fərqlənir.

Ümummilli lider dilimizin saflığını, zənginliyini qorumağın vacibliyini çıxışlarında hər zaman vurğulayır, cəmiyyətin bütün imkanlarını ana dilinin inkişafını təmin etməyə səfərbər edirdi. Təsadüfi deyil ki, noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə Prezident İlham Əliyevin çıxışı mahiyyətcə, dövlətin gələcək inkişaf fəlsəfəsi haqqında strateji manifest idi. Prezidentin səsləndirdiyi fikirlər bugünkü dəyişkən mühitdə Azərbaycanın yeni siyasi və iqtisadi modelinin ideoloji əsaslarını formalaşdırır. Çıxışdan açıq şəkildə görünür ki, Azərbaycanın gələcəyi elm, bilik və milli ruh üzərində qurulmalıdır. Prioritet sahələrdən biri isə Azərbaycan dilinə qayğı, onun yad ünsürlərdən qorunması, milli kimliyimizə hörmət edilməsidir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin 2026-cı il yanvar ayının 5-də yerli televiziya kanallarına, Azərbaycan mediasının nümayəndələrinə geniş müsahibə verməsi çox dəyərli bir ənənənin davamıdır. Ötən ilə yekun vurmaq, yeni başlanan il üçün nəzərdə tutulanlar barədə fikir bölüşmək baxımından cənab Prezidentin bu müsahibələri xüsusi məna, müstəsna əhəmiyyət daşıyır. Aydındır ki, Prezident İlham Əliyevdən müsahibə almaq, ona suallar vermək hər jurnalistin arzusudur. İlin başlanğıc günlərində belə bir imkanı qazanmaq hər bir televiziya işçisinin ürəyindən idi.

Müsahibədən sonra televiziya və radio kanallarında, sosial mediada və saytlarda paylaşılan materiallar misilsiz reaksiyalar yaratdı. Dünya mətbuatında canlanan yazılar isə daha böyük maraq doğurdu.

Prezidentin jurnalistlərin suallarına verdiyi cavablara uyğun olaraq, xüsusilə, dil məsələləri ilə əlaqədar ölkəmizin müvafiq qurumlarında aparılan tədbirlərlə paralel Azərbaycan Milli Elmlər Akademiyasının da ayrı-ayrı strukturlarında akademik İsa Həbibbəylinin rəhbərliyi ilə müxtəlif tədbirlər keçirilir. Bu tədbirlər planının daxilində, təbii ki, Nəsimi adına Dilçilik İnstitutunun kollektivi – xüsusilə dilçi alimlər geri qalmır. İnstitutun direktoru professor Nadir Məmmədlinin mətbuata verdiyi açıqlamaları, televiziya və radio kanallarında, həmçinin müxtəlif saytlarda və sosial mediada olan çıxışları maraq doğurur.

Yanvar ayının 8-də adıçəkilən institutun direktor müavini Baba Məhərrəmlinin AZƏRTAC-a verdiyi müsahibə, konkret olaraq, Azərbaycan dilinin saflığının qorunmasına həsr olunmuşdur.

Alimin sözlərinə görə, Azərbaycan xalqının genetik yaddaşını, milli stereotiplərini və etnik psixologiyasını yaşadan ana dilimizi qorumaq hər bir vətəndaşın, hər bir ziyalının mənəvi borcudur. Bu gün televiziya ekranlarında, mətbuatda, reklamlarda, afişalarda və ictimai iaşə obyektlərinin adlarında ədəbi dil normalarının pozulması yolverilməzdir. Televiziya aparıcılarının nitqinə nəzarət gücləndirilməlidir.

Bəzən televiziya verilişlərinin aparıcıları qardaş Türkiyə türkcəsinin orfoepiya normalarına uyğun tələffüzə yol verirlər (məsələn, filan əvəzinə falan, digər əvəzinə diyər). Hətta türk dilinin qrammatik formaları süni şəkildə Azərbaycan dilinə gətirilir (gəlib də, gedib də, gəldiyimdə və s.). Halbuki Türkiyə türkcəsi ilə Azərbaycan dilinin ortaq tarixi olsa da, hər iki dil müstəqil ədəbi dillər kimi formalaşıb və birinin elementlərini süni şəkildə digərinə köçürməyə ehtiyac yoxdur.

B.Məhərrəmli qeyd edib ki, Azərbaycan ədəbi dilinin saflığı problemi hələ yüz il əvvəl ziyalılarımızı düşündürürdü. Vaxtilə televiziya məkanında formalaşmış peşəkar diktor məktəbi bu sahədə etalon rolunu oynayırdı. Təəssüf ki, bu gün bəzi özəl kanallarda qeyri-peşəkar aparıcılar ədəbi dil normalarını pozur, süni dil elementləri yaradırlar. Halbuki, televiziya və radio dili cəmiyyət üçün nümunə olmalıdır.

Alim son illər bədii tərcümələrdə və film dublyajlarında da dilimizin leksik-semantik sisteminə zidd ifadələrin artdığını bildirib. Onun fikrincə, müxtəlif dövlət qurumlarında dilçi kadrların fəaliyyətinə böyük ehtiyac var və dövlət dilinin düzgün tətbiqinə nəzarət gücləndirilməlidir.

Azərbaycan xalqının milli varlığının, mənəvi irsinin və dövlətçilik ənənələrinin təməl daşı olan ana dili müasir dövrdə təkcə ünsiyyət vasitəsi deyil, həm də milli təhlükəsizlik və strateji özünümüdafiə məsələsidir. Prezident İlham Əliyevin dilimizlə bağlı səsləndirdiyi fikirlər bu sahədə yeni bir ideoloji yol xəritəsinin cızıldığını göstərir. Bu fikirləri “AZƏRTAC”-a açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dili tarixi şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Xədicə Heydərova söyləyib.

Xədicə Heydərova dövlət başçısının bu konseptual yanaşmalarını təhlil edərək, dilin qorunmasının müstəmləkə təfəkküründən tam azad olmaq və gələcək nəsillər qarşısında mənəvi borc kimi qiymətləndirir. Prezident İlham Əliyev dili dövlətçiliyin ən mühüm atributu və millətin millət edən əsas amil kimi xarakterizə edir. Onun fikrincə, milli kimliyimiz birbaşa dilə bağlıdır; dil pozularsa, milli kimlik və dövlətçilik də təhlükə altına düşər.

Alim bildirir ki, dövlət başçısı xalqın əsrlər boyu müxtəlif imperiyaların tərkibində yaşamasına baxmayaraq, öz dilini qoruya bilməsini böyük tarixi nailiyyət və “xalqın böyüklüyü” kimi qiymətləndirir: “Prezident əcnəbi sözlərin dilə daxil olmasını “zənginləşmə” deyil, “pozulma” hesab edir. O, xəbərdarlıq edir ki, xarici kəlmələr milli kimliyi “damcı-damcı” sarsıdır. Dövlət başçısı Azərbaycan dilini dünyadakı 50 milyon azərbaycanlını birləşdirən ortaq dəyər kimi görür. Xaricdə yaşayan soydaşlarımızın ana dilini sadəcə “məişət səviyyəsində” deyil, mükəmməl dərəcədə mənimsəməsini strateji hədəf kimi müəyyənləşdirir.

İlham Əliyev dilin qorunması missiyasında əsas yükü jurnalist və ziyalıların çiyinlərinə qoyur; çünki geniş kütlələrə təsir edən efir məkanı dilin ən çox “sınağa çəkildiyi” və örnək təşkil etdiyi yerdir. Prezidentin bu fikirləri göstərir ki, onun dil siyasəti filoloji yanaşmadan daha çox, strateji və ideoloji mahiyyət daşıyır.

Müasir dünyada “qapalı məkanda yaşamağın qeyri-mümkünlüyünü” etiraf edən dövlət başçısı internet və sosial şəbəkələrin dilə təsirini bir növ “yumşaq güc”lə mübarizə meydanı kimi görür. Onun “Nə üçün mübarizə?” sualına verdiyi cavab, əslində, mədəni assimilyasiyaya qarşı bir müdafiə doktrinasıdır. Onun fikrincə, müsahibədəki “müstəmləkəçilik psixologiyasının fəsadları” ilə bağlı fikir olduqca dərindir. Dilin təmizlənməsi həm də təfəkkürün müstəmləkə qalıqlarından təmizlənməsi deməkdir.

Öz ana dilində danışmaqdan utanmaq və ya xarici dildə danışmağı “ağıllı görünmək” vasitəsi hesab etmək Prezident tərəfindən milli natamamlıq kompleksi kimi rədd edilir. “Əcdadlarımızın əmanəti” ifadəsi ilə İlham Əliyev dil məsələsini mənəvi bir borc müstəvisinə keçirir. Bu, gənc nəslə ötürülən bir mesajdır: müstəqil dövlətin vətəndaşı öz dilini müstəmləkə dövründəki atalarından daha yaxşı qorumalıdır.

Prezident İlham Əliyevin cavablarında maraqlı bir məqamla rastlaşırıq: “Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik. İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq?”.

Prezident İlham Əliyevin nəinki dilçilərimiz, yazarlarımız, ümumiyyətlə xalq qarşısında qoyduğu məsələlər olduqca əhəmiyyətlidir. Azərbaycan dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğu haqqında ideya istiqaməti bu gün də dövlət siyasətinin tərkib hissəsi kimi müasir siyasi baxışlara uyğun səviyyədə aparılır.

Prezident İlham Əliyevin ana dilinin geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi qətiyyət, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə xidmət edir. Ölkə rəhbərinin jurnalistə verdiyi cavabında deyilir: “Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır.

Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən.

Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən – istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm. Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var”.

Nəticə olaraq, İlham Əliyevin yanaşması Azərbaycan dilini sadəcə keçmişin mirası deyil, gələcəyin müstəqillik qarantı kimi təqdim edir. Bu, hər bir vətəndaşın, xüsusən də ictimai rəyə təsir edən şəxslərin üzərinə böyük məsuliyyət qoyur.

*Fizuli MUSTAFAYEV,*
***AMEA-nın baş elmi işçisi, filologiya elmləri doktoru***

*Türk birliyi*

# Qardaş xalqların mədəni irsi ortaq sərvətə çevrilir

**Ötən il Türk Mədəniyyəti və İrsi Fondu üçün də əlamətdar hadisələrlə yadda qalıb. Fond Türk dünyasının tarixi, mədəni-ədəbi irsinin qorunması və beynəlxalq miqyasda tanıdılması istiqamətində sistemli fəaliyyətini davam etdirir.**

BTMİF Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Qazaxıstan, Qırğız və Türkiyə respublikalarının dövlət başçılarının dəstəyi ilə təsis olunub. Mənzil-qərargahı Bakıda yerləşən və Aktotı Raimkulovanın rəhbərlik etdiyi bu beynəlxalq təşkilata Özbəkistan, Türkmənistan və Macarıstan da daxildir. Son 2 il ərzində missiyası çərçivəsində 50-yə qədər kitabın çapını, onlarla beynəlxalq tədbiri, sərgi və konfransları reallaşdırıb.

**Ötən dövrdə görülmüş işlər – reallaşdırılmış layihələr və qarşıdakı hədəflər barədə XQ-yə məlumat verən Aktotı Raimkulova dedi:**






– Fondumuzun təsis etdiyi 5 yeni kitab seriyası – "Türk dünyasının görkəmli şəxsiyyətləri", "Ədəbi incilər", "Elmi incilər", "Tarixi incilər" və "Diplomatik incilər" – Türk dünyasının intellektual və mədəni xəzinəsini vahid konsepsiyada təqdim edir. Bu seriyalar çərçivəsində dünyaşöhrətli siyasətçi Heydər Əliyev və onun mədəni irsə qayğısı haqqında nəşr, Məhəmməd Füzuli, Mir Cəlal, Mahmud Kaşğari, Abay Kunanbayev, Bəxtiyar Vahabzadə və digər klassiklərin irsi müxtəlif dillərdə çap olunaraq beynəlxalq oxucuya təqdim edilib.

Xüsusilə "Divanü lüğat-it-türk"ün 950 illiyi, Birinci Türkoloji Qurultayın 100 illiyi, Füzulinin 530, Bəxtiyar Vahabzadənin 100 illik yubileyləri Fondun fəaliyyətində mühüm ideoloji və elmi xətt təşkil edib. Bu yubileylər UNESCO və digər beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində yüksək səviyyədə qeyd olunub. Eyni zamanda, uşaqlar üçün nəzərdə tutulmuş "Uşaqların Nizami Gəncəvi Dünyası", "Türk dünyasının göy qurşağı" (türk xalq nağılları), "Mənim adım Kojadır" və digər nəşrlər də hazırlanır.

Onu da xüsusi vurğulayım ki, Azərbaycan, Qazaxıstan, Özbəkistan və digər təsisçi dövlət rəhbərlərinin tapşırıq və göstərişləri ilə türk dövlətlərində reallaşan layihələr, düzənlənən elmi-ədəbi və tarixi məclislər türk irsi xəzinələrinin daha sanballı təşkilinə vəsilə olur. Misal üçün deyim ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli "Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən, fond Nizami Cəfərov, Mahirə Hüseynova və Aysel Qəriblinin müəllifi olduqları "Birinci Türkoloji Qurultay" kitabını Azərbaycan, qazax və rus dillərində nəşrə hazırlayıb.

Ötən il Bakı Musiqi Akademiyası ilə birgə "Türk ölkələrinin milli musiqi alətləri" atlası nəşr edilib. Digər mühüm layihə Azərbaycan Memarlar İttifaqı ilə birlikdə hazırlanmış və UNESCO-nun Mənzil-qərargahında təqdim edilmiş "Azərbaycan Memarlıq İrsinin Dühası: Əcəmi Naxçıvani – 900" kitabıdır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin tapşırığına uyğun olaraq, görkəmli qazax şairi, mütəfəkkiri və maarifçisi Abay Kunanbayevin 180 illiyi beynəlxalq səviyyədə qeyd edilib.

Fondumuzun irimiqyaslı təşəbbüslərindən biri olan "Türk folklor irsi" antalogiyası dünya elmi praktikasında ilk dəfə türk xalqlarının şifahi irs xəzinəsini vahid akademik korpusda və çoxdilli nəşrlər olaraq birləşdirir. Ötən 3 il ərzində 21 cildinin çapı planlaşdırılan bu layihə türk dünyasının dastan, mif və əfsanələrini həm çap, həm də rəqəmsal formatda gələcək nəsillərə ötürməyi hədəfləyir. Birinci mərhələdə, Türk dünyasının qəhrəmanlıq dastanlarına həsr olunmuş ilk cildin 5 kitabı artıq işıq üzü görüb.

Bununla yanaşı, "Türk dünyasının mədəni kodu" adlı ilk çoxdilli kataloq türk xalqlarının maddi və qeyri-maddi irs nümunələrini populyar-elmi dildə geniş auditoriyaya çatdırır. Kataloqda 7 ölkənin hər birindən 10 maddi və qeyri-maddi mədəni irs nümunəsi olmaqla, ümumilikdə 70 unikal abidə və ənənə təqdim olunur. Bu nümunələr türk dünyasının mənəvi birliyini və tarixi-coğrafi quruluşlarının yollarının kəsişməsində formalaşmış mədəni müxtəlifliyini əks etdirir.

Fondumuz qardaş millətlərimizin ədəbi-mədəni irsinə aid elmi məclislərin əhəmiyyətini nəzərə alaraq, Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunan "Aşıq Ələsgərdən Üzeyir Hacıbəyliyə: Türk dünyasının mədəni kodları" adlı konfransın materiallarını da ayrıca kitab şəklində nəşr edib.

Türk dünyasının diplomatik irsinə də xüsusi önəm veririk. Tanınmış Azərbaycan diplomatı və dövlət xadimi Hafiz Paşayevin "Bir səfirin manifesti" əsəri qazax dilinə tərcümə olunub. Bundan əlavə, görkəmli dövlət xadimi Həsən Həsənovun "Azərbaycan və macar xalqlarının etnik kökləri" kitabı nəşrə hazırlanıb, tarixçi Fəxri Valehoğlunun "Azərbaycan–Gürcüstan münasibətləri (1918–1922)" elmi araşdırması çap edilib.

Beynəlxalq təşkilatın bütün nəşrləri təqdimat mərasimləri, dəyirmi masalar və elmi konfranslarla müşayiət olunur, seçilmiş parçalar əsasında bədii və ədəbi çıxışlar təşkil edilir. Nəşr olunmuş kitablar bir qayda olaraq türk ölkələrinin milli kitabxanalarına hədiyyə edilir. Bununla da ortaq türk irsinin tanıdılmasına, beynəlxalq səviyyəli maarifçiliyin artırılmasına və geniş auditoriyanın bu mədəni irsə çıxışının təmin edilməsinə töhfə verilir.

Fond mədəni diplomatiyanı yalnız nəşrlərlə deyil, media və vizual layihələr vasitəsilə də gücləndirir. "Turk discovery" platformasında hazırlanan "Əbədiyyətin nişanələri, Türk dünyası rəmzlərdə" sənədli seriyası petroqliflərdən runik yazılara qədər türk irsinin arxaik kodlarını vizual yaddaşa çevirir.

UNESCO strukturları, ICHCAP, AMEA, TÜRKSOY və üzv dövlətlərin mədəniyyət qurumları ilə əməkdaşlıq bağları fondun fəaliyyətini qlobal miqyasda möhkəmləndirir. Bu baxımdan ötən il dekabrın sonunda Seulda "Sərhədləri aşan miras və (ASEAN) Cənub-Şərqi Asiya Ölkələrinin Ortaq Mədəni İrsi: dəyərlər və regional əməkdaşlıq" mövzusuna həsr olunmuş beynəlxalq konfrans çərçivəsində imzalanmış Anlaşma Memorandumu Türk dünyasının qeyri-maddi irsinin Asiya–Sakit Okean regionunda tanıdılmasına yeni imkanlar açır.

Nəticə etibarilə, Türk Mədəniyyəti və İrsi Fondu son illər yalnız kitab nəşr edən qurum deyil, ortaq türk yaddaşını sistemləşdirən, onu beynəlxalq elmi və mədəni ünsiyyət prosesinə daxil edən strateji mərkəz kimi çıxış edir.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# İnformatika fənni rəqəmsal dövrün bələdçisidir

*Bu gerçəklik qəbul imtahanlarında müvafiq dəyişiklik tələb edir*

**2023-cü ildən ali təhsil müəssisələrinə qəbul imtahanları çərçivəsində I ixtisas qrupu üzrə tətbiq edilən yeni model, xüsusilə informatika fənninin imtahan mexanizmindəki yeri baxımından diqqət çəkir.**

Mövcud qaydalara əsasən, I ixtisas qrupu daxilində informatikayönümlü, yəni riyaziyyat–informatika (Rİ) altqrupuna daxil olan ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər imtahanın II mərhələsində riyaziyyat və fizika fənləri ilə yanaşı, informatika fənnindən, mühəndislikyönümlü, riyaziyyat–kimya (RK) altqrupuna daxil olan ixtisasları seçən abituriyentlər isə informatika əvəzinə, kimya fənnindən imtahan verirlər.

Bu struktur I ixtisas qrupunda informatika fənninin hələ də köməkçi statusda saxlanıldığını göstərir. Çünki bu qrupda bütün ixtisaslar üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər II mərhələdə riyaziyyat, fizika və kimya fənlərindən imtahan verdikdən sonra əlavə olaraq informatika fənnindən fərq imtahanı verirlər. Beləliklə, informatika əsas imtahan fənni deyil, əlavə və seçimə bağlı fənn kimi təqdim olunur. Halbuki müasir texnologiyalar dövründə informatika analitik düşüncə, alqoritmik təfəkkür və problem həlletmə bacarıqlarını formalaşdıran fundamental fənndir.

Qaydalar abituriyentlərə müəyyən mənada seçim azadlığı da yaradır. Belə ki, ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı I ixtisas qrupu üzrə elektron ərizə dolduran abituriyentlər istəklərinə uyğun olaraq yalnız Rİ, RK və ya hər iki altqrupu seçə bilirlər. Lakin hər iki altqrup üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər üçün əlavə informatika fərq imtahanı tələbi yenidən ortaya çıxır.

Rəqəmsallaşmanın bütün sahələri əhatə etdiyi bir dövrdə mühəndislikdən təbiət elmlərinə, iqtisadiyyatdan logistika və planlaşdırmaya qədər hər bir sahə informatika bilikləri üzərində qurulur. Bu baxımdan informatikanın yalnız bir altqrupun çərçivəsində saxlanılması, onun real əhəmiyyətini tam əks etdirmir.

Qonşu ölkələrin təhsil təcrübəsinə nəzər saldıqda görünür ki, informatika fənni artıq orta və yuxarı siniflərin əlavə dərsi deyil, aşağı siniflərdən etibarən formalaşdırılan baza bacarığıdır. Şagirdlər erkən yaşlardan informatikanın əsas anlayışları, alqoritmik düşüncə, məntiqi ardıcıllıq və kodlaşdırma ilə tanış olur, rəqəmsal bacarıqlar mərhələli şəkildə aşılanır. Bu ölkələrdə İT və kompüteryönümlü ixtisasları seçmək istəyən şagirdlər məktəb dövründə sistemli hazırlıq keçirlər. Nəticədə, ali məktəblərə qəbul zamanı bu sahə üzrə bilik və bacarıqlar formal xarakter daşımır, əsas meyar kimi qiymətləndirilir.

Belə bir model həm şagirdin şüurlu şəkildə ixtisas seçimi etməsinə imkan yaradır, həm də universitet mərhələsində təhsilin keyfiyyətini artırır. Çünki ali məktəblər artıq sıfırdan deyil, müəyyən baza üzərində təhsil verməyə başlayır. Bu yanaşma bir daha göstərir ki, informatika fənni yalnız müəyyən ixtisas qruplarına aid edilə bilməz; o, müasir təhsilin və rəqəmsal cəmiyyətin ayrılmaz tərkib hissəsidir.






**Təhsil eksperti Elçin Əfəndi qeyd edir ki, informatika fənninin I ixtisas qrupunda, riyaziyyat–informatika altqrupunda yer almasının əsas səbəbi həmin altqrupa daxil olan ixtisasların bilavasitə informasiya texnologiyaları istiqamətli olmasıdır.** Belə ki, informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, kompüter elmləri, kompüter mühəndisliyi, data analitikası, eləcə də mexatronika və robototexnika mühəndisliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi və informatika müəllimliyi kimi ixtisaslarda informatika bilikləri əsas tələblərdəndir.

Müasir dövrdə informasiya texnologiyaları son dərəcə sürətlə inkişaf edir, informatika biliklərinin mənimsənilməsi artıq zərurətə çevrilib. Ali təhsil müəssisələrinə tələbə qəbulu zamanı abituriyentlərin bu fənn üzrə ən azı ilkin biliklərə malik olması olduqca vacibdir. İlkin baza formalaşdığı təqdirdə, tələbələr qəbul olduqları ixtisaslarda informatika və texnologiyayönümlü fənləri daha rahat mənimsəyir, tədris prosesində ciddi çətinliklərlə üzləşmirlər.

Gələcəkdə informatika fənninin digər ixtisas qruplarına da inteqrasiyası mümkündür. Zamanla ixtisaslar dəyişir, yeni sahələr formalaşır və bu da tədris proqramlarında yenilənmələri qaçılmaz edir. Ola bilsin ki, yaxın perspektivdə informatika fənni bir neçə ixtisas qrupunda da tədris olunsun. Bunun üçün isə müvafiq dövrlərdə əsaslandırılmış qərarların qəbul edilməsi vacibdir.

Gələcəkdə informatika fənninin digər ixtisas qruplarına da daxil edilməsi mümkündür. Məsələn, üçüncü ixtisas qrupundakı bəzi ixtisaslarda, eləcə də dördüncü ixtisas qrupunda yer alan biotexnologiya ixtisası üzrə informatika fənninin tədrisi məqsədəuyğun sayıla bilər. Çünki bu sahələrdə də rəqəmsal texnologiyaların və informasiya sistemlərinin rolu getdikcə artır. Bu baxımdan, növbəti dövrlərdə müvafiq qərarların qəbul edilməsi və informatika fənninin sözügedən ixtisas qruplarına inteqrasiyası istisna edilmir.

**Təhsil eksperti Elmin Nuri isə müasir dövrdə informatika fənninin digər fənlər qədər əhəmiyyətli olduğunu bildirir:**



–İnformatika fənninin ixtisas qruplarına salınması məsələsini yalnız "çətinlik" prizmasından qiymətləndirmək doğru deyil. Söhbət burada konkret bir fənnin ağır və ya yüngül olmasından yox, onun vacibliyindən gedir. Hər fənnin öz məzmun standartları var və bu standartlar insanın düşüncə tərzinə, gündəlik həyatına, cəmiyyətdəki gələcək mövqeyinə birbaşa təsir göstərir. Sadəcə, biz bu təsiri çox zaman fərq etmirik. Çünki bu proseslər əsasən şüuraltı səviyyədə baş verir. Məsələn, buraxılış imtahanlarında riyaziyyat, Azərbaycan dili və xarici dil fənlərinin olması artıq cəmiyyət tərəfindən qəbul edilib. Amma az adam düşünür ki, riyaziyyat fənninin də məzmun standartları insanın analitik düşünməsini, məntiqi yanaşmasını və problem həll etmə bacarığını formalaşdırır.

Bu bacarıqlar isə insanın həyatının bütün mərhələlərində ona yardımçı olur, fərdin özündən xəbərsiz, daxili düşüncə mexanizmləri vasitəsilə formalaşır. İnformatika fənni də məhz bu kontekstdə qiymətləndirilməli, dövrün tələblərinə uyğun olaraq onun strateji əhəmiyyəti düzgün anlaşılmalıdır. Məsələn, informatika fənninin əsas məzmun standartlarından biri alqoritmik təfəkkürün formalaşdırılmasıdır. Yəni biz informatikanı yalnız "Word"də bu necə edilir", "Excel"də bu funksiya haradadır", "PowerPoint" belə açılır" kimi texniki mövzularla məhdudlaşdırmırıq. Əksinə, fərqində olmadan məzmun standartlarının yaratdığı şüuraltı mexanizmlərlə üz-üzə qalırıq və bu mexanizmlər insanın düşüncə tərzini formalaşdırır.

Təhsilin çox vaxt görünməyən, amma son dərəcə təsirli tərəfləri məhz buradadır. İnformatika məzmun standartları və müasir dövrün tələbləri baxımından bu günümüz üçün əvəzolunmazdır. İxtisasından asılı olmayaraq hər kəsin informatikanı bilməsi artıq seçim yox, zərurətə çevrilməkdədir.

Nəticə etibarilə, informatika fənninin ali təhsil müəssisələrinə qəbul mexanizmlərindəki mövqeyi təhsilin gələcək çağırışlara nə dərəcədə hazır olması ilə bağlıdır. Müasir dünyada biliklərin sürətlə yeniləndiyi, peşə sərhədlərinin dəyişdiyi və rəqəmsal bacarıqların bütün sahələr üçün baza üstünlüyünə çevrildiyi bir şəraitdə, informatikanın "əlavə" və ya "seçimə bağlı" fənn kimi təqdim olunması artıq elmi-pedaqoji baxımdan əsaslandırılması çətin olan yanaşmadır.

Burada əsas məsələ informatikanın baza bacarıqları kimi qəbul edilməsidir. Yəni mövzu hamının proqramçı olması deyil, istənilən ixtisas üzrə təhsil alan fərdin informasiya ilə işləmək, prosesləri modelləşdirmək, səbəb–nəticə əlaqələrini alqoritmik müstəvidə qura bilmək bacarığıdır.

***Ləman TƏHMƏZ***
***XQ***

*Elxan Məmmədov – 80*

# Saz-söz qədirşünası və qeyrətkeşi

**Onun adını çox öncədən duymuşdum. XX əsrin yetmişinci illərindən və saz-söz bilicilərinin söhbətlərindən. İlk görüşümüz səksəninci illərin əvvəlində oldu, mən aspiranturaya daxil olanda. Doğma adamlar kimi qarşılaşdıq. Sadə, səmimi və mərd bir adam təəssüratı yaratdı məndə. Sonra onu illər və onillər boyu bu keyfiyyətin əsl daşıyıcısı kimi gördüm, onun insanlığına, mehr-məhəbbətinə və saz-söz sənətinə vurğunluğuna heyran kəsildim.**



Sazın-sözün möhtəşəm bilicisi olduğunu biləndən sonra əziz qardaşım Elxanı özümə mənəvi bir yol göstəricisi saydım. Elmi fəaliyyətimin başlanğıcında o mənim çalışmalarıma istiqamət verirdi. İş elə gətirdi ki, Elxan müəllim gec müdafiə elədi, o zaman mən rəsmi şəkildə ona rəhbər təyin oldum. Ancaq xəyalımda bir ustad kimi o mənim rəhbərim idi.

Elxan Məmmədli gözəl saz-söz duyumu olan folklorçu idi. Nəyin halal-hümmət, nəyin saxta-qondarma olduğunu o dəqiqə müəyyənləşdirə bilirdi, özü də gözəl saz çalırdı. Çalğı və oxu incəliklərini son nöqtəsinə qədər xırdalamağı bacarırdı. Bu mənada, təcnisləri, xüsusən də təcnis sənətkarlığını dərin bir məharət və həssaslıqla araşdırması çox yerində idi.

Elxan müəllim sözün həqiqi mənasında aşıqşünas idi, o, klassik ustadlarla yanaşı, XX əsrdə Borçalıda, Göyçədə, Şirvanda, Naxçıvanda, Dərələyəzdə, Gəncəbasarda, o cümlədən də Təbriz-Qaradağda, Urmiyada, Zəncanda yaşayıb-yaradan ustad aşıqların ömür və sənət yolunu canlı şəkildə öyrənən yorulmaz bir araşdırmaçı idi.

XX əsrin ikinci yarısındakı ustadların böyük əksəriyyəti ilə yaxın-doğma münasibətləri olan bir folklor fədaisi idi. Azərbaycanı mahal-mahal, kənd-kənd gəzib-dolaşmışdı. Göyçəni, Borçalını az qala hər il öz elmi ezamiyyətlərinə daxil edirdi. Məşhur kəndlərin sayılıb-seçilən ağsaqqallarını birər-birər tanıyırdı.

Gözəl yol-yoldaşlığı var idi. Yolda, səfərdə olanda özünün bütün mərd, insani keyfiyyətlərini büruzə verirdi. Onunla keçirdiyimiz hər gün, hər səfər unudulmaz xatirələrlə, əhvalatlarla doludur. Bunların içərisində o qədər dodaqqaçırdan məzəli hadisələr olurdu ki....

Onu da deyim ki, Aşıq Əmrah Gülməmmədov, Hüseyn Saraclı, xüsusən də Kamandar Əfəndiyev onun əziz qonaqları idilər. Aşıq Kamandar bəzən günlərlə, həftələrlə Elxan müəllimin və onun atası – əsl el ağsaqqalı olan Hüseynqulu müəllimin qonaqları olardı. Faxralı elinin bu gözəl ailə ocağı indi də o keyfiyyəti qoruyur...

Elxan Məmmədli sazı-sözü, aşıq sənətini o qədər böyük həssaslıqla mənimsəmişdi ki, əsl aşıq ensiklopediyasına çevrilmişdi. Yaxın zamanlara qədər bir çox qaranlıq və mübahisəli məsələləri məhz ondan öyrənib dəqiqləşdirirdik. Dastanları bütün variativ ayrıntıları ilə sinəsində gəzdirən bu sənət fədaisinin indi yerini kim verə bilər?! Çətindi bu sorğunun cavabı. Folklor İnstitutunda "Aşıq sənəti" şöbəsinin müdiri kimi məsul bir işi ləyaqətlə yerinə yetirən ikinci belə bir elm və sənət adamı tapılacaqmı? Dəyərli bilim adamları həmişə özlərindən sonra bir boşluq buraxır. Əməkdar mədəniyyat işçisi, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədlinin itkisində olduğu kimi. Nur içində uyusun!

Mən Elxanı həmişə yenilməz, əyilməz, özübütöv, sözübütöv qardaş bilmişəm. Bu gün də gözümdə o ucalıqda qalır. Elə bilirəm ki, həmişə yanımdadır, qolum-qanadımdır.

***Məhərrəm QASIMLI,***
***Azərbaycan Aşıqlar Birliyinin sədri,***
***Əməkdar elm xadimi, professor***

# El ədəbiyyatı xiridarı

**Folklorşünas alim Elxan Məmmədli Borçalının qədim-qayım ellərindən olan Faxralı kəndində sazın-sözün işığında dünyaya göz açmışdı. Hər dəfə görüşüb ünsiyyət tapanda danışığının axarı boyunca sözündən-söhbətindən əllərimiz boylanırdı. O, bu gün cismən aramızda olmasa da, folklorumuzla, aşıqşünaslıqla bağlı gördüyü işlər könül sərvətimiz kimi ruhumuzun ağuşunda yaşayır.**



İndi Elxan Məmmədlinin sözünün və özünün ətri hopan kitabları da könül sərvətlərimiz sırasındadır. O, uzun illər Azərbaycan radio və televiziyasında "Bulaq", "Ustadnamə", "Sazın-sözün sehrində", "Gözəlləmə" və "Sarıtel" verilişlərinin müəllifi və aparıcısı olmuşdur. Bu gün elxansevərlərin Atatürk Mərkəzində bir araya gəlməsi də səbəbsiz deyildi. Onun "Saz üstündə köklənmişəm", "Aşıq sənəti – dünən, bu gün və sabah", eləcə də onun xatirəsinə həsr olunmuş "Sarıtel" ünvanlı Elxan Məmmədli" kitablarının təqdimatı keçirilirdi.

Məslisin moderatoru akademik Muxtar Kazımoğlu dedi:

- Hələ 2006-cı ildə Elxan Məmmədlinin 60 illiyi münasibətilə xatirələrdən və məqalələrdən ibarət bir kitab nəşr olunmuşdu. O kitabda mənim də yazım var. Vəfatından sonra – Elxan Məmmədli haqqında söz deməyə daxili ehtiyac duyulduğundan, həmin kitabdakı yazımdan bir parçanı xatırlatmağı və söhbətimi o parça üzərində qurmağı vacib sayıram. Bu, Elxan Məmmədlinin ustad folklorşünas kimi toplayıcılıq qabiliyyətini özündə ehtiva edir. O, aşıq yaradıcılığına, müasir aşıq mühitinə çox yaxşı bələd idi. Radio və televiziyada aşıq sənəti ilə bağlı çıxışları maraqla qarşılanırdı. Söz xatirinə söz demək onun təbiətinə yad idi.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı Elxan Məmmədlinin həm bir insan, həm də folklorumuzun daşıyıcısı kimi ən mühüm keyfiyyətlərindən söz açaraq dedi:

- Biz Elxan Məmmədli ilə 45 il bir yerdə işləmişik. Həmin illər ərzində onun sazın-sözün möhtəşəm bilicisi olduğunun dönə-dönə şahidi olmuşam. O, gözəl saz-söz duyumu olan folklorçu idi. Təcnisləri, xüsusən də təcnis sənətkarlığını dərin məharət və həssaslıqla araşdırması çox yerində idi. Dissertasiya işi və onun əsasında hazırladığı monoqrafiyada da təcnis sənətkarlığının daxili mahiyyət və qanunauyğunluğunu çox gözəl və səriştəli şəkildə təqdim edirdi. O, sözün həqiqi mənasında, aşıqşünas idi, klassik ustadlarla yanaşı, XX əsrdə Borçalıda, Göyçədə, Şirvanda, Naxçıvanda, Dərələyəzdə, Gəncəbasarda, o cümlədən də Təbriz-Qaradağda, Urmiyada, Zəncanda yaşayıb-yaradan ustad aşıqların ömür və sənət yolunu canlı şəkildə öyrənən yorulmaz araşdırmaçı idi.

Onu da qeyd etmək lazımdır ki, Aşıq Əmrah Gülməmmədov, Hüseyn Saraclı, xüsusilə də Kamandar Əfəndiyev dəfələrlə Elxan Məmmədlinin əziz qonaqları olurdular. Ona görə də o, sazı-sözü, aşıq sənətini böyük həssaslıqla mənimsəmişdi. Özü də bir növ aşıq ensiklopediyasına çevrilmişdi.

Akademik Muxtar Kazımoğlu bir neçə dəfə Elxan Məmmədli haqqında öz fikirlərini məclis iştirakçılarının diqqətinə çatdırdı. O qeyd etdi ki, "Təcnis sənətkarlığı" adlı qiymətli monoqrafiyanı – fəlsəfə doktorluğu dissertasiyası kimi çox yüksək səviyyədə müdafiə edilən və Azərbaycan folklorşünaslığında xüsusi yer tutan bir əsəri ərsəyə gətirməkdə Elxan Məmmədliyə elmi qaynaqlar nə qədər gərək olubsa, onun ustad aşıqlarla ünsiyyətdən əxz etdikləri də bir o qədər gərəkli olub.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, professor Asif Hacılı, Milli Məclisin üzvləri Elnarə Akimova, Müşfiq Məmmədli, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu və başqaları bir-birindən isti, bir-birindən təravətli sözlərlə, söz sərrafi Elxan Məmmədlini qədirşünaslıqla xatırladıqlarını dilə gətirdilər. Daha sonra aşıqlar öz əlvan ifaları ilə tədbirə rəng qatdılar.

Tədbirin sonunda Elxan Məmmədlinin qardaşı, iqtisadçı alim Eldar Hüseynquluoğlu iştirakçılara öz təşəkkürünü bildirdi.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

*Sosial layihələr*

# Özünüməşğulluq daimi “çörəkağacı” qazanmaqdır

## *Yaxud balıq verməkdənsə, balıq tutmağı öyrət*





**Müasir əmək bazarında dövlətlərin əsas çağırışlarından biri sosial müdafiə ilə iqtisadi fəallıq arasında balansın düzgün qurulmasıdır. Azərbaycan bu çağırışı fəal cavablandıraraq məşğulluq siyasətinin əsas prioritetlərindən biri kimi aşağı sosial dəstək mexanizmindən yüksək iqtisadi iştirakçılıq mexanizminə keçidin təmin olunmasını müəyyənləşdirib.**

Ənənəvi sosial yardım mexanizmləri qısamüddətli rifah effekti yaratsa da, uzunmüddətli perspektivdə iqtisadi passivlik və asılılıq risklərini artırır. Məhz bu kontekstdə özünüməşğulluq modeli sosial siyasətin daha çevik, davamlı və dayanıqlı aləti kimi ön plana çıxır, eyni zamanda, iqtisadi fəallığa da müsbət impuls verir.

Son illər ölkəmizdə həyata keçirilən məşğulluq islahatları, xüsusilə özünüməşğulluq proqramı bu yanaşmanın institusional səviyyədə tətbiq edildiyini göstərir.

Prezident İlham Əliyev 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində proqramın əhəmiyyətinə toxunaraq vurğuladı ki, ölkəmizdə “özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır” və bu mexanizm vətəndaşlara yalnız müvəqqəti gəlir mənbəyi deyil, ailə büdcələrini təmin etməklə layiqli həyat qurmaları üçün imkan yaradır. Bu fikirlər özünüməşğulluğun artıq adi sosial dəstək layihəsi yox, dövlətin strateji məşğulluq siyasətinin tərkib hissəsi olduğunu təsdiqləyir.

### Özünüməşğulluğun Azərbaycan modeli

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Məşğulluq tədbirləri departamentinin müdiri Pərviz Bənnalı** bildirdi ki, özünüməşğulluq, adından da aydın olduğu kimi, şəxsin müstəqil surətdə və ya dövlətin dəstəyi ilə öz məşğulluğunu təmin etməsidir:

– Burada işsiz, habelə, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslər nəzərdə tutulur. Bu proqram çərçivəsində aztəminatlı



ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə dəstək göstərilir. Yəni vətəndaşa birbaşa maliyyə vəsaiti verilmir, o, təqdim etdiyi biznes plana uyğun olaraq kənd təsərrüfatı, istehsal və ya xidmət üzrə müvafiq əmlaklar ilə təmin edilir. Bu, özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir.

Ölkəmizdə bu proqramı Dövlət Məşğulluq Agentliyi icra edir və mərhələli yanaşmaya əsaslanır. İlkin müraciət mərhələsi özünüməşğulluğun təşkili ilə bağlı məsləhətlərin və məlumatların verilməsindən, yəni özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilməsindən ibarətdir. Növbəti mərhələdə uyğunluğun müəyyənləşdirilməsi məqsədilə mənzil-məişət şəraitinə baxış keçirilir, burada vətəndaşlara müraciət etdiyi zərf üzrə peşə bacarıqlarını ölçmək məqsədilə suallar verilir, təcrübəsi yoxlanır. Sonra özünüməşğulluğun təşkili üçün biznes-planın hazırlanmasına köməklik göstərilməsi, o cümlədən təlimlərin keçirilməsi və nəticələri qiymətləndirilir. Nəhayət, seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün natura şəklində material, avadanlıq və digər əmlak 1 il müddətinə müqavilə əsasında vətəndaşa verilir: Şəxsin fəaliyyəti həmin dövrdə monitorinqdən uğurla keçdikdə əmlaklar vətəndaşın mülkiyyətinə verilir.

Rəqəmlərə gəlincə, 2017-ci ildə icrasına başlanan proqram çərçivəsində 2025-ci ilin sonuna olan məlumata əsasən, 113 minədək vətəndaş özünüməşğulluq fəaliyyəti ilə əhatə olunub. Bu rəqəm özlüyündə proqramın miqyasını və sosial əhatəliliyini aydın şəkildə göstərir. Təkcə 2025-ci il ərzində ümumi 16 min 827 nəfər özünüməşğulluğa cəlb edilib ki, onlardan 94 nəfər şəhid ailəsi üzvü, 976 nəfər məcburi köçkün, 131 nəfər ünvanlı dövlət sosial yardımı alan şəxs, 520 nəfər pensiya yaşına 2 ildən az qalan şəxs, 262 nəfər isə cəzaçəkmə müəssisəsindən azad edilmiş şəxs kateqoriyasına daxildir.

### Proqramın tələbləri və üstün qruplar

Ümumiyyətlə, istiqamətindən asılı olmayaraq özünüməşğulluğa müraciət etmək istəyən şəxs üçün başlıca meyar onun qanunvericiliyə uyğun olaraq işsiz və ya mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxs olmasıdır. Bu tələb ödənirsə, şəxslə müvafiq olaraq Məşğulluq İmkanlarının Qiymətləndirilməsi sorğusu həyata keçirilir və şəxsin təqdim etdiyi məlumatlar əsasında Fərdi Məşğulluq Proqramı tərtib olunur.

“Məşğulluq haqqında” Qanuna əsasən, özünüməşğulluğunun təşkili zamanı sosial həssas əhali qrupuna – ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlilliyi olan şəxslərə, şəhid ailəsi üzvlərinə, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir. Bunu əsas tutaraq növbəlilik reyestrində həmin kateqoriyadan olan şəxslər öncəliyə malik olur və bu səbəbdən daha tez əmlaklarla təmin olunurlar. Həmçinin Birinci Qarabağ və Vətən müharibələrində iştirak etmiş, eləcə də müharibə ilə əlaqədar əlilliyi olan şəxslər də bu üstünlüklərdən yararlana bilirlər. Bu seçim mexanizmi proqramın resurslarının məqsədyönlü istifadəsini və nəticəyönümlü icrasını təmin edir.

### Qarabağ və Şərqi Zəngəzurda özünüməşğulluq

İşğaldan azad olunmuş ərazilərimizə köçən əhalinin məşğulluğunun təmin edilməsi dövlətin əsas prioritetlərindən biridir. Bu məsələdə də Dövlət Məşğulluq Agentliyinin üzərinə böyük iş düşür. Görünən odur ki, Agentlik bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün özünüməşğulluq proqramının icrasına xüsusi önəm verir və aktiv məşğulluq tədbirləri arasında bu proqramın icrasını prioritet hesab edir. Agentlikdən verilən məlumata görə, cari dövrədək “Böyük Qayıdış” çərçivəsində 700-ə yaxın şəxsə öz kiçik biznesini qurması üçün dövlət dəstəyi göstərilib və həmin şəxslər özünüməşğulluq proqramı çərçivəsində əmlaklarla təmin ediliblər.

Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzur bölgələrində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ölkəmizin əmək bazarının inkişafına zəmin yaradır. Bu çərçivədə həmin ərazilərdə icra olunan özünüməşğulluq proqramı keçmiş məcburi köçkünlərin iqtisadi reinteqrasiyasına, kənd təsərrüfatı və xidmət sahələrinin inkişafına stimul verməklə, yerli məşğulluğun dayanıqlı əsaslarla qurulmasını təmin edir. Yəni burada özünüməşğulluq artıq sosial adaptasiya mexanizmi deyil, postmünaqişə iqtisadi inkişaf strategiyasının əsas elementlərindən biri kimi çıxış edir.

### *Ekspert rəyi*



**Elşad MƏMMƏDOV,**
**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri, professor**

Əmək bazarında ən ciddi yanaşmalardan biri işsizliyin yalnız statistik azaldılması deyil, davamlı və dayanıqlı məşğulluğun təmin edilməsidir. Özünüməşğulluq proqramı bu baxımdan klassik məşğulluq mexanizmlərindən fərqlənir. Bu model vətəndaşı əmək bazarında işaxtaran subyektdən işyaradan subyektə çevirir; mövsümi və qeyri-sabit gəlir risklərini minimuma endirir; ailə təsərrüfatlarının formalaşmasına şərait yaradır; regionlarda əmək miqrasiyasının qarşısının alınmasına kömək edir.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanda işləmək istəyən hər kəs üçün imkanlar mövcuddur – istər tikinti sektorunda, istər kənd təsərrüfatında, istərsə də digər sahələrdə. Özünüməşğulluq proqramı isə bu imkanların genişlənməsinə və institusional çərçivəyə salınmasına xidmət edir. Bu proqram xüsusilə də kiçik sahibkarlığın inkişafına təsir göstərərək istehsal və xidmət sahələrində yerli bazarın tələblərinə uyğun yeni müəssisələrin yaranmasını təmin edir.

Nəticədə, bu proqram çərçivəsində açılan kiçik istehsal müəssisələri məhsul çeşidini artırır, xidmət sahələri isə yeni iş imkanları yaradaraq məşğulluğu gücləndirir. Misal üçün, 2025-ci ildə pilot olaraq Oğuz rayonunda həyata keçirilmiş avtoklaster layihəsi buna nümunədir. Özünüməşğulluq proqramına cəlb edilmiş bir qrup şəxsin əmək bazarının tələbi, iqtisadiyyatın prioritet sahələri nəzərə alınaraq “Avtodəmirçi xidmətləri - PDR batıqların bərpası”, “Avtorəngsaz”, “Avtoçilingər xidməti - Katalizatorların təmizlənməsi xidməti”, “Avtoelektrik - Kondisioner təmiri”, “Avtoyağlama xidməti”, “Avtorazval xidməti”, “Avtotəmizləmə xidməti”, “Özünüxidmət avtotəmizləmə xidməti”, “Avtodisk təmiri – Avtomobil şinlərinin bərpası” üzrə əmlaklarla təmin edilməsi və onların eyni məkanda birgə fəaliyyətinin təşkili bu layihənin əsas məqsədi olub.

Özünüməşğulluq proqramının təsiri yalnız fərdi səviyyə ilə məhdudlaşmır. Bu mexanizm ölkə üzrə iqtisadi aktivliyin genişlənməsinə də mühüm töhfə verir. Bu cür aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi və dəstəklənməsi iqtisadiyyatın inkişafı, əlavə dəyərin yaradılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, sahibkarlıq vərdişlərinin aşılanması və işsizlik səviyyəsinin azaldılmasına imkan yaradır; kiçik və mikrobiznes subyektlərinin artması yerli bazarlarda mal və xidmət təklifini genişləndirir, regionlarda iqtisadi dövriyyəni canlandırır, həmçinin kənd yerlərində qeyri-neft sektorunun inkişafını sürətləndirir.

Zamanla özünüməşğulluq fəaliyyəti ilə məşğul olan şəxslərin bir qismi daha böyük biznes strukturlarına çevrilir, yeni iş yerləri yaradır və vergiödəyici statusu qazanır. Bu isə proqramı həm sosial, həm də iqtisadi baxımdan səmərəli edir. Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində hər il benefisiarlara dair qiymətləndirmə işləri aparılır. Bu proses aktivlər vətəndaşa verildikdən 12 ay və 24 ay sonra olmaqla, ümumilikdə iki dəfə həyata keçirilir. Araşdırmaların nəticəsi göstərir ki, proqramın öz məqsədinə nailolma faizi 12 ay sonra 90, 24 ay sonra isə 75 faizin üzərindədir.

Prezident İlham Əliyevin yerli mediaya son müsahibəsində səsləndirdiyi əsas mesaj ondan ibarət idi ki, sosial siyasətin məqsədi vətəndaşlara müvəqqəti dəstək vermək deyil, ümumilikdə insan potensialını gücləndirmək və dayanıqlı inkişafa nail olmaqdır. Özünüməşğulluq proqramı bu fəlsəfənin praktik ifadəsidir. Çünki bu proqram vətəndaş məsuliyyətini və təşəbbüskarlığını artırır, iqtisadi fəallığı stimullaşdırır, sosial rifah ilə iqtisadi inkişaf arasında davamlı körpü yaradır. Məhz bu səbəbdən özünüməşğulluq bu gün sadəcə alternativ məşğulluq forması deyil, strateji seçimdir.

***Mustafa KAMAL***
***XQ***

*Yeni qaydalar*

# “Kirayəyə mənzil verirəm”

## *Bəs mülkünü başqasına etibar etməyi rəsmiləşdirmisənmi?*



**Azərbaycanda minlərlə insan öz mənzilini kirayəyə verir. Əksər hallarda isə bu proses rəsmi müqavilə bağlanılmadan, sadəcə, qarşılıqlı razılaşma əsasında həyata keçirilir. Bir çox vətəndaş isə bunun heç bir problem yaratmayacağını düşünsə də, qanunvericilikdə məsələyə fərqli yanaşılır və müəyyən tələblər müəyyənləşdirilir. Bəs hazırda bu sahədə hansı vəziyyət müşahidə olunur? Evini müqaviləsiz kirayəyə verən şəxslər barədə hansı məsuliyyət gözlənilir?**

Ekspertlərin bildirdiyinə görə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, kirayə (icarə) münasibətləri yazılı formada rəsmiləşdirilməlidir. Belə müqavilə tərəflərin hüquq və öhdəliklərini aydın şəkildə müəyyən edir və mümkün mübahisələrin qarşısını alır. Bununla belə, yalnız müqavilə bağlanılmadığına görə Mülki Məcəllədə birbaşa cərimə nəzərdə tutulmur. Əsas məsuliyyət vergi qanunvericiliyi ilə bağlıdır.

Qanuna əsasən, evini kirayəyə verən fiziki şəxs vergi orqanlarında uçota durmalı, əldə etdiyi kirayə gəlirini bəyan etməli və müvafiq vergini ödəməlidir. Vergi Məcəlləsinə edilən dəyişikliklər çərçivəsində 2026-cı il yanvarın 1-dən fiziki şəxslərə məxsus yaşayış sahələrinin kirayəyə verilməsindən əldə olunan gəlirlərə 10 faiz dərəcəsi ilə vergi tətbiq edilir. Halbuki indiyədək bu göstərici 14 faiz təşkil edirdi. Məsələn, mənzilini aylıq 400 manata kirayəyə verən şəxs əvvəl 56 manat vergi ödədiyi halda, yeni qaydalara görə bu məbləğ 40 manat olacaq. Qeyd olunmalıdır ki, belə bir dəyişiklik sahibkarlıq fəaliyyəti çərçivəsində hüquqi şəxslərə kirayəyə verilən əmlaklara şamil edilmir. Həmin kateqoriya üçün 14 faizlik vergi dərəcəsi dəyişməz olaraq qalır.

Lakin vergi dərəcəsinin aşağı salınması heç də büdcə öhdəliyinin azaldılması məqsədi daşımır. Əsas məqsəd vergidənyayınma hallarının qarşısını almaq, kirayə müqavilələrinin rəsmiləşdirilməsini və şəffaflığın artırılmasını təşviq etməkdir. Bu sahədə digər mühüm yenilik isə maliyyə sanksiyaları ilə bağlıdır. Belə ki, 2026-cı ildən etibarən vergi orqanında qeydiyyata alınmaq üçün ərizənin vaxtında verilməməsinə görə 200 manat məbləğində cərimə tətbiq edilir. Əvvəllər bu məbləğ cəmi 40 manat həddində müəyyənləşdirilmişdi. Bundan sonra isə evini kirayəyə verən şəxs vergi qeydiyyatına durmaqdan yayınarsa, daha ciddi maliyyə məsuliyyəti ilə üzləşəcək.

Bundan başqa, vergi hesabatında gəlirin azaldılmış göstərilməsi və ya hesabatın, ümumiyyətlə, təqdim edilməməsi hallarında yayındırılan vergi məbləğinin 50 faizi həcmində cərimə nəzərdə tutulur. Bununla belə, evini kirayəyə verən şəxs vergi orqanında qeydiyyata durmadan da əldə etdiyi gəlir üzrə vergi ödənişini könüllü şəkildə həyata keçirə bilər.

Xatırladaq ki, 2025-ci il yanvarın 1-dən etibarən kirayə gəliri əldə edən vətəndaşlara daha bir imkan verilib. Belə ki, onlar vergi orqanında şəxsən qeydiyyata durmadan vergi agenti müəyyənləşdirə və vergi öhdəliklərinin icrasını həmin agentə həvalə edə bilərlər. Vergi agenti vergini hesablayır, kirayəçidən tutur və büdcəyə köçürür. Həmçinin ödənilən gəlirlərin və tutulan vergilərin uçotunun aparılması da vergi agentinin vəzifəsidir.



Təcrübədə müqaviləsiz kirayə münasibətləri təkcə ev sahibləri üçün deyil, kirayəçilər üçün də müəyyən risklər yaradır. Belə ki, yaşayış yeri və olduğu yer üzrə qeydiyyata düşməmək kirayəçilərin inzibati məsuliyyətə cəlb edilməsinə səbəb ola bilər. İnzibati Xətalar Məcəlləsinə əsasən, vətəndaşın olduğu yer üzrə qeydiyyatdan keçməməsinə görə xəbərdarlıq edilir və ya 30 manat məbləğində cərimə tətbiq olunur.

Hazırda Bakıda kirayə mənzillərlə bağlı monitorinqlər aparılır. İcra orqanları və bələdiyyələrin səfərbər olunduğu bu prosesin gedişində əmlakla bağlı məlumat bazaları, sosial şəbəkələr, mənzillərdə kommunal xidmətlərdən istifadəyə dair informasiyalar nəzərdən keçirilərək araşdırma aparılır, hansı mənzillərin kirayə verildiyi müəyyənləşdirilir. Eyni zamanda, həmin mənzillərin kirayə verilməsi ilə bağlı notarial qaydada müqavilənin bağlanıb-bağlanılması aydınlaşdırılır. Bir sözlə, monitorinqlər zamanı rəsmi qaydada müqavilə bağlanılmadan kirayə verilən mənzillərin üzə çıxarılması, onların sahiblərinin cəzalandırılması qarşıya mühüm vəzifə kimi qoyulur.

Yeri gəlmişkən, beynəlxalq təcrübədə evlərin kirayəyə verilməsi ilə bağlı bəzi məlumatları da diqqətə çatdırmaq istərdik. Belə ki, dünya ölkələrinin əksəriyyətində kirayə münasibətləri ciddi şəkildə hüquqi çərçivəyə salınıb və bu sahədə şəffaflıq əsas prinsiplərdən biri hesab olunur. Məsələn, Avropa İttifaqı ölkələrində evlərin kirayəyə verilməsi mütləq yazılı müqavilə əsasında həyata keçirilir. Müqavilədə kirayə haqqı, müddət, tərəflərin hüquq və vəzifələri, depozit məbləği və digər şərtlər dəqiq göstərilir.

Almaniyada kirayə müqavilələri adətən uzunmüddətli olur və kirayəçilərin hüquqları qanunla ciddi qorunur. Ev sahibinin müqaviləsiz kirayə verməsi, demək olar ki, mümkün deyil və belə hallar aşkar edildikdə yüksək cərimələr tətbiq olunur. Eyni zamanda, kirayə gəlirləri mütləq vergi bəyannaməsində göstərilməli və gəlir vergisi ödənilməlidir.

Qardaş Türkiyədə də icarə münasibətlərinin rəsmiləşdirilməsi məcburidir. Son illər bu ölkədə kirayə haqlarının bank vasitəsilə ödənilməsi tələbi tətbiq olunur ki, bu da vergidən yayınmanın qarşısını alır. Kirayə müqaviləsi bağlanılmadan mənzil kirayəyə vermək həm ev sahibini, həm də kirayəçini hüquqi mübahisələr qarşısında müdafiəsiz qoyur.

ABŞ-da kirayə bazarı tamamilə şəffaf mexanizmlər üzərində qurulub. Demək olar ki, bütün ştatlarda kirayə müqaviləsi bağlanmadan mənzil icarəyə verilmir. Kirayə ödənişləri bank köçürməsi və ya elektron sistemlər vasitəsilə gerçəkləşdirilir. Gəlirlərin gizlədilməsi isə ciddi maliyyə sanksiyaları və hətta cinayət məsuliyyəti ilə nəticələnir.

Gürcüstanda son illər kirayə bazarının leqallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Elektron müqavilə sistemləri yaradılıb, qısamüddətli kirayə fəaliyyətinə xüsusi vergi rejimlərinin tətbiqinə başlanılıb. Bununla da həm dövlət büdcəsinin gəlirləri çoxalıb, həm də vətəndaşların hüquqlarının daha etibarlı şəkildə qorunması reallaşıb.

Ümumilikdə, beynəlxalq təcrübə göstərir ki, kirayə münasibətlərinin rəsmi müqavilə əsasında qurulması həm ev sahibləri, həm kirayəçilər, həm də dövlət üçün faydalıdır. Şəffaf mexanizmlər mübahisələrin azalmasına, vergidənyayınma hallarının minimuma enməsinə və bazarın daha sivil şəkildə inkişafına xidmət edir.

Beləliklə, Azərbaycanda da kirayə bazarının tədricən leqallaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atılır. Vətəndaşların hüquqi və vergi öhdəliklərinə məsuliyyətlə yanaşması isə gələcəkdə mümkün problemlərin qarşısını almağın ən etibarlı yoludur.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Rəşad ƏLİYEV,**
**Vəkillər Kollegiyasının üzvü**

Hazırda ölkənin bir sıra bölgələrində müqaviləsiz ev kirayəsi hallarının aşkar edilməsi məqsədilə monitorinqlər aparılır. İcarə müqaviləsi, əslində, əmlak kirayəsi müqaviləsidir və bu sənəd tərəflər arasında hüquqi münasibətləri tənzimləyir. İcarəçi müəyyən edilmiş icarə haqqını ödəməyə borcludur, kirayə verən isə əldə etdiyi gəlirə görə vergi ödəməlidir.

Vergi ödəyicisi kimi uçotda olan şəxs tərəfindən kirayə haqqı ödənildikdə, vergi öhdəliyi ödəmə mənbəyində, yəni kirayəçi tərəfindən yerinə yetirilir və həmin gəlirdən ikinci dəfə vergi tutulmur. Kirayədə qalan şəxslərin cərimələnməsi isə Vergi Məsəlləsi ilə deyil, yaşayış yeri üzrə qeydiyyat qaydalarının pozulması ilə bağlıdır.

“Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Qanuna əsasən, vətəndaşlar, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycanda müəyyən müddətə məskunlaşdığı yer üzrə mütləq qeydiyyata alınmalıdırlar. Şəxs yaşayış yerindən kənarda 60 gündən artıq müvəqqəti yaşamaq istədikdə, 7 gün ərzində müvafiq dövlət orqanına müraciət etməlidir. Bu tələblərə əməl edilməməsi isə inzibati məsuliyyət yaradır.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 09 (30978) 16 yanvar 2026-cı il, cümə

## İDMAN

### IV Avropa Oyunlarına hazırlıq



**Azərbaycan Respublikasının gənclər və idman naziri, Avropa Gimnastikasının prezidenti Fərid Qayıbov 2027-ci ildə İstanbulda keçiriləcək IV Avropa Oyunları üzrə Koordinasiya Komissiyasının iclasında iştirak edib.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, mərasimdə, həmçinin Türkiyənin gənclər və idman naziri Osman Aşkın Bak, Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos, Türkiyə Milli Olimpiya Komitəsinin rəhbəri Ahmet Gülüm, eləcə də Avropa Olimpiya Komitəsinin rəsmiləri, milli və Avropa idman federasiyalarının nümayəndələri iştirak ediblər.

İclasda müxtəlif ölkələrin milli olimpiya komitələrinin rəhbərləri və digər maraqlı tərəflərlə birgə Avropa Oyunlarına hazırlıq məsələləri müzakirə olunub.

### Futbol hakimlərimiz Antalyada



**Elit kateqoriyalı hakimlərin Türkiyənin Antalya şəhərində keçirilən təlim-məşq toplanışı davam edir.**

AFFA-dan verilən məlumata görə, Hakimlər Departamentinin fitnes bölməsinin rəhbəri, Əməkdar məşqçi Namiq Quliyevin rəhbərliyi ilə ümumi fiziki hazırlıq üzrə məşqlər olub, hakimlərin çəki indeksi yoxlanılıb.

AFFA-nın dəvəti ilə UEFA Hakimlər Komitəsinin üzvü tərəfindən hakimlər üçün nəzəri və praktiki seminarlar təşkil olunub. Karlos Velasko "Meydanda mövqe seçimi" və "Oyunun idarəolunması" mövzusunda praktiki seminarlar keçib.

UEFA-nın fiziki hazırlıq üzrə məsul şəxsi Verner Helsen isə fiziki hazırlıq, praktiki hərəkətlər və qərarvermə mövzularını əhatə edən seminarda çıxış edib.

### Yeni cüdo qaydaları seminarı



**Azərbaycan Cüdo Federasiyasının (ACF) Hakimlər Komitəsinin təşkilatçılığı ilə milli komandaların Təlim-Məşq Mərkəzində Beynəlxalq Cüdo Federasiyasının tətbiq etdiyi qaydalardakı dəyişikliklərə həsr olunmuş seminar keçirilib.**

Seminar ACF prezidentinin müşaviri Natiq Bağırov və ACF-nin hakimlər üzrə meneceri, A kateqoriyalı beynəlxalq dərəcəli hakim Mətin Rəhimlinin rəhbərliyi ilə təşkil olunub.

ACF-dən verilən məlumata görə, seminarda "yuko" xalının hansı vəziyyətlərdə verilib-verilməməsi, "kumikata"-nın qırılması zamanı icazə verilən hallar və "şido" cərimələrinin tətbiq olunma meyarları, vaxtı uzatmağa görə veriləcək "şido" cərimələri, "uşiro-sankaku" texnikasının tətbiqi zamanı nəzərə alınacaq nüanslar, passivliklə bağlı "şido" cərimələrinin verilməsində yeniliklər və görüş zamanı tibbi müdaxilə ilə bağlı dəyişikliklərlə əlaqədar müzakirələr aparılıb.

Mərasim iştirakçılarına Beynəlxalq Cüdo Federasiyasının tətbiq etdiyi yeniliklər izah edilib, dəyişikliklər əyani şəkildə nümayiş etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

*✓ "Azərsu" ASC tərəfindən Babayev Sahib Əmrəli oğlunun adına verilmiş 662093 nömrəli sayğac və CO22699 nömrəli plomb itdiyi üçün etibarsız sayılır.*

*Bu gün xəyaldır...*

# Ayda qonaq olmaq istəyirsinizmi?



**Ay əsrlər boyu insanın ümidlərinin, xəyallarının və sükutunun ünvanı olub. Gecələrin səmasında sakitcə parlayan bu nur topası nə vaxtsa sevgi etiraflarına, ayrılıqlara, dualara və arzulara şahidlik edib. İnsan ona baxıb susub, düşünüb, bəzən də cavabsız suallarını ona etibar edib. Bu gün isə həmin səssiz şahid haqqında danışarkən sözlər dəyişir: artıq Ay təkcə poetik ilham mənbəyi deyil, elmi layihələrin, texnoloji planların və kosmik tikintilərin mərkəzində dayanır.**

San-Fransiskonun texnoloji səmasının altında doğulan cəsarətli ideyalar Ayı yavaş-yavaş xəritəyə çevirir. ABŞ-ın qərb sahilində fəaliyyət göstərən "GRU Space" adlı startap iddia edir ki, Ayda hotellər tikmək və 2032-ci ildən etibarən oraya turistlər göndərmək artıq fantaziya yox, planlaşdırılan gələcəkdir.

Bu barədə San-Fransiskonun (ABŞ, Kaliforniya ştatı) "GRU Space" startap şirkətinin saytındakı məqalədə qeyd olunub. Bildirilir ki, şirkət Ayda hotellər tikməyi və artıq 2032-ci ildə ora turistlər göndərməyi nəzərdə tutur. Öz məqsədlərini isə bununla əsaslandırıb ki, "SpaceX" şirkətinin fəaliyyəti sayəsində son illərdə yüklərin orbitə çıxarılması xərci əhəmiyyətli dərəcədə azalıb. Kosmosa yüklərin göndərilməsi "Blue Origin" şirkəti və dünyanın digər ölkələrində çoxsaylı startaplar sayəsində bazarda artan rəqabət səbəbindən ucuzlaşmağa davam edəcək.

Şirkətin açıqlamasına görə, kosmos artıq varlı insanlar üçün turistik istiqamətə çevrilir. Birinci mərhələdə hotellər turistlərlə birlikdə Yerin səthinə çatdırılacaq, bunlar 2-4 nəfərlik şişmə modullar olacaq. İldə üç uçuş şərti ilə bir turist üçün nəzərdə tutulan xərc 416 min dollar təşkil edəcək. Daha sonra həm Yer kürəsindən, həm də Ay səthindən alınan materiallardan istifadə edərək daha mürəkkəb konstruksiyaların tikilməsi planlaşdırılır. Bu cür hotellər 10 qonağı qəbul edə biləcək, qiymət isə 83 min dollara qədər ucuzlaşa bilər. Texnologiyaların sınaqdan keçirilməsi üçün hazırlıq uçuşlarının 2029 və 2031-ci illərdə həyata keçirilməsi planlaşdırılır.

Hazırda Ayda daimi yaşayış yoxdur. Orada nə şəhər var, nə küçə, nə də gündəlik həyat. Ay səthi sərt temperatur fərqləri, radiasiya, oksigen və su çatışmazlığı ilə xarakterizə olunur. Buna baxmayaraq, son illər aparılan elmi araşdırmalar göstərir ki, Ay tamamilə "ölü" deyil. Onun bəzi bölgələrində, xüsusən də qütb ərazilərində su buzlarının mövcudluğu aşkar edilib. Bu isə uzunmüddətli yaşayış üçün ən vacib şərtlərdən biri hesab olunur. Ayda tikilməsi planlaşdırılan hotellər isə klassik mənada yaşayış üçün deyil. Bu obyektlər əsasən kosmik turizmə xidmət edəcək.

Gələcəkdə Ay səfərlərinə qatılacaq şəxslər yüksək gəlirli turistlər, astronavtlar, alimlər və tədqiqatçılar olacaq. Onlar burada aylarla deyil, bir neçə gün və ya həftə qalacaqlar. Bu hotellər Yer üzündəki hotellərdən köklü şəkildə fərqlənəcək: qalın qoruyucu divarlar, süni cazibə sistemləri, qapalı ekosistemlər və tam avtomatlaşdırılmış həyat təminatı infrastrukturu ilə.

Mütəxəssislərin fikrincə, Ayda yaşayışın mümkünlüyü daha çox texnologiyanın inkişaf sürətindən asılıdır. Əgər enerji mənbələri, radiasiyadan qorunma üsulları və qida istehsalı problemləri həll edilərsə, Ay gələcəkdə elmi koloniyalara ev sahibliyi edə bilər. Lakin bu yaşayış Yer üzündəki həyatla müqayisə edilə bilməz. Bu, daha çox elmi missiyalara xidmət edən məhdud və nəzarətli mühit olacaq.

Bəli, Ayda hotellərin tikilməsi hələlik cəsarətli bir ideya, böyük xəyalların məhsulu kimi görünə bilər. Ancaq unutmayaq ki, bir vaxtlar təyyarə ilə uçmaq, okeanın altı ilə getmək və ya kosmosa çıxmaq da mümkünsüz sayılırdı. Ayda yaşayış bu gün reallıq olmasa da, sabahın elmi gündəliyində artıq öz yerini alıb. Ola bilsin ki, yaxın gələcəkdə Ay təkcə gecələr səmamızda parlayan bir işıq deyil, insanın yeni ümidlərinin, araşdırmalarının və macəralarının ünvanı olacaq.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# AHİK yazıçı və şairlərə dəstək göstərəcək

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evində keçirilən görüşdə şair və yazıçıların sosial ehtiyaclarının və mənəvi tələbatının cavablandırılması diqqət mərkəzində olub.**





Bildirilib ki, Prezident İlham Əliyev ədəbiyyat və incəsənət adamlarının bədii yaradıcılığını daim diqqətlə izləyir, onların yaratdıqları mənəvi dəyəri yüksək qiymətləndirir. Səməd Vurğun adına Yaradıcılıq Evində müasir şəraitin yaradılması da qələm sahiblərinə dövlətin göstərdiyi dəstəyin növbəti ifadəsidir.

Burada rahat və müasir avadanlıqlarla təchiz olunmuş otaqlar, toplantılar, yaradıcılıq görüşlərinin keçirilməsi üçün salon, kinoteatr, kitabxana, istirahət zonaları, idman meydançaları var. Əsaslı təmir edilib abadlaşdırılmış sosial obyektdə istirahətə yanaşı, sərbəst yaradıcılıq üçün də əlverişli ədəbi-bədii mühit yaradılıb.

Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev bütün bunlara görə birliyin çoxsaylı üzvləri adından dövlət başçısına minnətdarlığını bildirib.

Görüşdə ədəbiyyat və incəsənət adamlarının sosial qayğıları ilə bağlı AHİK-in həyata keçirdiyi layihələr və icra etdiyi yeniliklər barədə də məlumat verilib. Qeyd edilib ki, şair və yazıçıların Yaradıcılıq Evinin imkanlarından geniş şəkildə yararlanmaları üçün həmkarlar ittifaqı da fəal işə qoşulacaq, zəruri işlər görəcək.

Qonaqlar Yaradıcılıq Evində yaradılan şəraitlə tanış olub, cari birgə tədbirləri gündəmə gətiriblər.

***Q.ƏLİYEV***
***XQ***

# Ac adamı su doyurmaz



**Aclıq və iştahı ayırd etmək sağlam qidalanma və çəkiyə nəzarətin açarıdır. Rusiyalı dietoloq Viktoriya Qovoruşko bu barədə fikirlərini bölüşüb.**

Jurnalistlərə açıqlamasında bu məsələ barədə danışarkən o, kiçikyaşlı uşaqları nümunə gətirib. Deyib ki, əgər onlar acdırlarsa, onlara su vermək işə yaramayacaq. Çünki uşaqlara su aclıqlarını yox etmək üçün kifayət deyil. Onlara mütləq doyurucu yemək verilməlidir.

Dietoloq, onu da əlavə edib ki, yaşlandıqca insanlar nahardan sonra su içməyə yox, birmənalı şəkildə şirniyyat, xüsusilə, konfet yeməyə öyrəşirlər: "Amma aclıq doyurucu yeməyə üstünlük verir. Məsələn, insanın qarşısında bir parça şokolad və bir boşqab yemək varsa, o, ikincisini seçəcək. İştah isə peçenyeyə də maraq göstərir".

O, həmişə özünü dinləməyi və həqiqətən, ac olduğunuzu, yoxsa, sadəcə, "şirin" istəyin-istəmədiyinizi soruşmağı məsləhət görüb.

***Z.HÜSEYNLİ***
***XQ***

# "Səyyarmextikinti" ASC səhmdarlarının nəzərinə!

"Səyyarmextikinti" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti ümumi yığıncağı 2 mart 2026-cı il saat 12:00-da, Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi 2 nömrəli ünvanda ("Səyyarmextikinti" ASC-nin inzibati binasında) keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** "Səyyarmextikinti" Açıq Səhmdar Cəmiyyətinin 2024 və 2025-ci illər üzrə maliyyə nəticələrinin təsdiq edilməsi.

**2.** "Səyyarmextikinti" Açıq Səhmdar Cəmiyyətinin kreditor borclarının ödənilməsi ilə bağlı məsələnin müzakirəsi.

Səhmdarların və ya etibarnamə üzrə nümayəndələrinin həmin yığıncaqda iştirakı vacibdir.

***"Səyyarmextikinti" Açıq Səhmdar Cəmiyyətinin idarə heyəti***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və aparat əməkdaşları qurumun sabiq hakimi, Əməkdar hüquqşünas

**RAFAEL QVALADZENİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və kollektivi maşın və mexanika mühəndisliyi kafedrasının müəllimi, dosent Rəşid Barxalova

**QARDAŞININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## HAVA

# Yağmursuz bir cümə...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 6-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət gecə 75-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 6-11 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 15-20, gündüz 2-5 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq ərazilərdə yollar buz bağlayacaq.

***Q.ƏLİYEV***
***XQ***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2837
SİFARİŞ 68
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00